KHAZAR REVIEW

XƏZƏR XƏBƏR

№ 413 Yanvar 2022



AYLIQ DƏRGİ
ISSN 2218-2772
khazar-review.khazar.org



“Xəzər”də



imtahan





həyəcanları





Exams Thrill







At Khazar University





İÇİNDƏKİLƏR

Əməkdar incəsənət xadimi, bəstəkar, professor Elnarə Dadaşovanın yaradıcılıq gecəsi 6
"Zəfər kuboku" uğrunda yarışda "Xəzər"in komandası qalib oldu 10
"Gələcəyini qur!" layihəsi Xəzər Universitetində 12
İstanbul Kent Universitetinin rektoru Xəzər Universitetinin qonağı oldu 13
"Teknofest-2022"-yə hazırlıqla əlaqədar seminar 16
Yunus Əmrə və Türkcə ilinə həsr olunmuş tədbir 18
Qüdrət İsmayılzadə. **Dövrünü qabaqlayan görkəmli ziyalı və dövlət xadimi-Həsən Həsənov** 20
Professor, akademik Hamlet İsaxanlı təhsil naziri Emin Əmrullayevlə görüşdü 30
"Xəzər" ölkə mediasında 31
AMEA Nizami adına Ədəbiyyat İnstitutunun xəbərləri 32
"Ələsgərəm, yandım eşq atəşində" adlı ədəbi-bədii gecə 38
Cənubi Florida Universitetinin doktorantı Xəzər Universitetində seminar -workshop keçirib 39
***Hamlet İsaxanlı*. Son görüş olmayaydı...** 40
"Xəzər"in məzunları 56
Nadir Azəri. **Biləcik`dəki soydaşlarımızı bir araya gətirən təşkilat** 58
Xəzər Universitetinin əməkdaşları Türkiyə universitetlərində rəsmi səfərdə 60
" Mədəniyyətlərarası səriştə" mövzusunda seminar 61
Hədəf kurslarının İdarə Heyəti ilə görüş 62
Professor, akademik Hamlet İsaxanlı APDU və George Washington Universitetinin birgə magistr proqramı üzrə təhsil alan tələbələr qarşısında qonaq-mühaziraçi kimi çıxış etdi 63
"Xəzər"in xarici nəşrləri 74

1995-ci ilin
yanvarından nəşr olunur

Təsisçi:
Xəzər Universiteti

Baş redaktor:
Hamlet İsaxanlı

Baş redaktor müavini:
Əlirza Balayev

Foto:
Multimedia Mərkəzi

Xəzər Universiteti

Ünvan:
Bakı, Məhsəti küşəsi 41

Tel.: (+9912 323 93 13
(+9912 421 10 93
Mob.: (+99450) 321 31 69

E-mail: contact@khazar.org
Tiraj: 3000

Redaksiya heyəti:
İsa Həbibbəyli
Alla Axundova
Şahin Fazil
Knyaz Aslan

İngilis dilində
mətnlərin redaktoru:
Zamirə Qurbanova

Kompüter tərtibatçısı:
Günel Əkbərova

CONTENTS

Creative Evening of Honored Art Worker, Composer, Professor Elnara Dadashova 6
Khazar University Team Wins the Competition For Victory Cup 10
"Build Your Future!" Project at Khazar University 12
Rector of İstanbul Kent University Visits Khazar University 13
Workshop on Preparation for "Teknofest-2022" 16
An Event Dedicated to the Year of Yunus Emre and Turkish Language 18
Gudrat İsmayilzade. **Prominent intellectual and statesman ahead of his time -Hasan Hasanov** (*in azerbaijani*) 20
Professor, Academician Hamlet İsakhanlı Met With Minister of Education Emin Amrullayev 30
"Khazar" in Country`s Media 31
News of Institute of Literature named after Nizami of ANAS (*in azerbaijani*) 32
"I`m Alasgar, I`m Burnt in the Fire of Love" Literary-Artistic Evening 38
A Doctoral Student at South Florida University Held a Workshop at Khazar University 39
Hamlet Isakhanli. **I wish it were not our last date...** (*in azerbaijani*) 40
Graduate of Khazar University 56
Nadir Azeri. **An organization bringing together our compatriots in Bilecik** (*in azerbaijani*) 58
Khazar University Staff Members Pay Official Visit to Turkish Universities 60
Seminar on "InterculturalCompetence" 61
Meeting With Board of Hadaf Courses 62
Professor,Academician Hamlet Isakhanlı Delivered a Speech as a Guest Speaker for ASPU and George Washington University`s Joint Master`s Program Students 63
"Khazar"s Foreign Publications 74

It has been published since January 1995

Founder:
Khazar University

Editor-in-chief:
Hamlet Isakhanli

Associate editor:
Alirza Balayev

Photo:
Multimedia Centre

Khazar University

Ünvan:
Bakı, Məhsəti küşəsi 41

Tel.: (+9912 323 93 13
(+9912 421 10 93
Mob.: (+99450) 321 31 69

E-mail: contact@khazar.org
Tiraj: 3000

Editorial members:
Isa Habibbayli
Alla Akhundova
Shahin Fazil
Knyaz Aslan

Editor of English Texts:
Zamira Gurbanova

Computer graphics:
Gunel Akbarova



ƏMƏKDAR İNCƏSƏNƏT XADİMİ, BƏSTƏKAR, PROFESSOR ELNARƏ DADAŞOVANIN YARADICILIQ GECƏSİ

CREATIVE EVENING OF HONORED ART WORKER, COMPOSER, PROFESSOR ELNARA DADASHOVA

2021-ci il dekabrın 16-da Xəzər Universitetinin Fikrət Əmirov Konfrans-Konsert Mərkəzində Əməkdar incəsənət xadimi, bəstəkar, professor Elnarə Dadaşovanın yaradıcılıq gecəsi keçirildi.

Tədbirdə Xəzər Universitetinin rəhbərliyi və əməkdaşları, tələbələr, musiqi ictimaiyyətinin nümayəndələri iştirak edirdilər.

Tədbir bəstəkar haqqında qısametrajlı filmin nümayişi ilə başlandı. Sonra sənətşünaslıq üzrə fəlsəfə doktoru, Azərbaycan Milli Konservatoriyasının dosenti Jalə Qulamova yaradıcılığının kamillik dövrünü yaşayan Elnarə Dadaşovanın zəngin və çoxşaxəli fəaliyyətindən geniş məlumat verdi.

Konsertdə Xəzər Universiteti Musiqi və incəsənət departamentinin müdiri, əməkdar müəllim, pianoçu Zülfiyyə Sadıqovanın bədii rəhbərliyi ilə universitetin Kamera orkestri, Xəzər Universitetinin müəllimi, beynəlxalq müsabiqələr laureatı Məhsəti Cabbarovanın rəhbərliyi ilə universitetin tələbələrdən ibarət xor kollektivi iştirak edirdi.

On December 16, 2021, Khazar University's Fikret Amirov Conference and Concert Center hosted a creative evening ofHonored Art Worker, composer, and professor Elnara Dadashova.

The event was attended by Khazar University administration and staff, students, and members of the music community.

The event began with the screening of a short film about the composer. Then Jala Gulamova, Doctor of Philosophy in Art History, Associate Professor of the Azerbaijan National Conservatory, gave detailed information about the rich and multifaceted activity of Elnara Dadashova.

The concert was attended by the University's Chamber Orchestra under the artistic direction of Khazar University's Music and Art Department, Honored Teacher, pianist Zulfiya Sadigov, and the university's student choir led by Khazar University teacher, winner of international competitions Mahsati Jabbarova.

Solistlər - beynəlxalq müsabiqələr laureatı Fəxri Kazım-Nicat, Məhsəti Cabbarova, Georgiy Şaroyev adına 11 illik musiqi məktəbinin şagirdi Mehriban Əliyeva, Xəzər Universitetinin tələbəsi Ramil Sayidov, kamança ifaçısı, Xəzər Universitetinin müəllimi, əməkdar artist Rauf İslamov idi.

Konsertdə bəstəkarın "Ana", "Anam məni istəyir" (sözləri Sayalı Tağıyevanın), "Böyüklərim yada düşdü" (sözləri Hamlet İsaxanlının), "Bahar şərqisi" (sözləri Səməd Vurğunun), "Lay-lay" (sözləri Əhməd Cəmilin), "Vüqarlı dağların sevirəm, Vətən" (sözləri Hüseyn Sözlünün), "Döyüş cəngisi" (sözləri Bəşir Quliyevin), "Prelüd", "Sarı gəlin" xalq mahnısının kamera orkestri üçün işlənmiş variantı, "Sənə düşüb meylim" (sözləri Əhməd Cavadın), "Adajio" və "Alqış qeyrətinizə" (sözləri Şahinin) əsərləri səsləndi. Hamlet İsaxanlının sözlərinə yazılmış mahnı oxunarkən videoçarxda onun dünyasını dəyişmiş qohumlarının və özünün fotoşəkilləri nümayiş olundu.

Tədbirdə Xalq artisti, Üzeyir Hacıbəylinin ev muzeyinin direktoru bəstəkar Sərdar Fərəcov çıxış edərək, Elnarə xanım Dadaşovanın yaradıcılığından söz açdı, konsert və iştirakçıları haqqında xoş təəssüratını bildirdi.

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri, professor, akademik Hamlet İsaxanlı çıxışında Elnarə xanım Dadaşovanın yaradıcılığının səciyyəvi cəhətlərini nəzərə çatdırdı, universitetin musiqi kollektivlərinin fəaliyyətini yüksək qiymətləndirdi.

(*Ardı səh.8-də*)

The soloists were Fakhri Kazim-Nijat, winner of international competitions, Mahsati Jabbarova, Mehriban Aliyeva, a student at the 11-year music school named after Georgiy Sharoyev, RamilSayidov, a student at Khazar University, kamancha player, teacher at Khazar University, and honored artist Rauf Islamov.

The composer's work "Ana", "Anam məni istəyir" (lyrics by Sayali Tagiyeva), "Böyüklərim yada düşdü" (lyrics by Hamlet Isaxanli), "Bahar Şərqisi" (lyrics by Samad Vurgun), "Lay-lay" (lyrics by Ahmad Jamil), "Vüqarlı dağların sevirəm, Vətən "(lyrics by Huseyn Sozlu)," Döyüş cəngisi "(lyrics by Bashir Guliyev)," Prelüd "," Sarı gəlin"folk song version for chamber orchestra," Sənə düşüb meylim "(lyrics by Ahmad Javad)," Adajio"and" Alqış qeyrətinizə "(words by Sahin) were performed at the concert. While singing a song written in the words of Hamlet Isaxanli, the video showed photos of his deceased relatives and himself.

Speaking at the event, People's Artist, Director of the House Museum of Uzeyir Hajibayli, composer Sardar Farajov spoke about the work of Elnara Dadashova, expressed his good impressions about the concert and its participants.

In his speech, Professor, Academician Hamlet Isaxanli, Founder of Khazar University, Chairman of the Board of Directors and Trustees, highlighted the distinctive features of ElnaraDadashova's work and praised the work of the university's music groups.

(*To be continued page 8*)





Bütün konsert müddətində həm royal arxasında ifaçı, həm də dirijor kimi rəhbərlik edən Elnarə Dadaşova tədbirin sonunda tamaşaçılara, Xəzər Universitetinin Kamera orkestrinə və xor kollektivinə, xüsusilə gecənin keçirilməsində ona dəstək olan Hamlet İsaxanlıya çox dərin təşəkkürünü bildirdi. Səhnəni gül-çiçəklərə qərq edən tamaşaçılar sonda bəstəkarla xatirə şəkli çəkdirdilər. Konsert çox uğurlu, yaddaqalan keçdi və dinləyicilərə müsbət aura, xoş təəssürat bağışladı.





At the end of the event, Elnara Dadashova, who led both the piano and the conductor throughout the concert, thanked the audience, the Khazar University Chamber Orchestra and choir, and especially Hamlet Isaxanli, who supported her during the night. The audience filled the stage with flowers and took a photo with the composer. The concert was very successful and memorable, and gave the audience a positive aura and a good impression.

Nefes
Psixi Sağlamlıq Akademiyası

"YENİYETMƏLİK DÖVRÜNDƏ PSİXOLOJİ PROBLEMLƏR" MÖVZUSUNDA SEMİNAR



2021-ci il dekabrın 16-da Xəzər Universitetinin Psixologiya departamentinin müəllimi və doktorantı Nilufər Əlizadənin təşkilatçılığı ilə "Yeniyetməlik dövründə psixoloji problemlər" mövzusunda seminar keçirilmişdir. Seminarda Dr. psixiatr, "Nefes" Psixonevroloji Sağlamlıq Akademiyasının təsisçisi, ABŞ Harvard Universitetinin Boston Uşaq Xəstəxanasında tədqiqatçı kimi çalışmış, Azərbaycan Tibb Universiteti Psixiatriya kafedrasının müəllimi İkram Rüstəmov çıxış etmişdir.

Xəzər Universiteti ilə yanaşı BDU və digər psixoloji mərkəzlərdə çalışan psixoloq və tələbələrin iştirakı ilə keçirilən seminarda praktiki nümunələr vasitəsilə yeniyetməlik dövründə baş verən böhran hallarından və onların həlli yolları haqqında müzakirələr aparılmışdır. Sonda Dr. İkram Rüstəmov iştirakçıların suallarını cavablandırıb.

SEMINAR ON "PSYCHOLOGICAL PROBLEMS IN ADOLESCENCE"

On December 16, 2021, a seminar on "Psychological Problems in Adolescence" was organized by Nilufar Alizadeh, the lecturer and doctoral student in the Department of Psychology at Khazar University. Dr. Ikram Rustamov, the psychiatrist and founder of the "Nefes" Academy of Psychoneurological Health, who worked as a researcher at Harvard University's Boston Children's Hospital and is a lecturer at the Department of Psychiatry of the Azerbaijan Medical University, spoke at the seminar.

The seminar, which was attended by psychologists and students from BSU and other psychological centers along with Khazar University, discussed the crisis in adolescence and ways to solve it through practical examples. In the end, Dr. Ikram Rustamov answered the questions of the participants.

REKTOR ADPU-NUN YUBİLEY TƏDBİRİNDƏ

RECTOR AT ANNIVERSARY EVENT OF ASPU

2021-ci il dekabrın 17-də Xəzər Universitetinin rektoru dosent İradə Xəlilova Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) 100 illik yubileyi ilə əlaqədar keçirilən tədbirdə iştirak edib.

Tədbirdə əvvəlcə Dövlət Himni səsləndirilib, Vətən müharibəsi şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla anılıb.

Tədbirdə təhsil naziri Emin Əmrullayev, ADPU-nun rektoru professor Cəfər Cəfərov, ADPU-nun gənc müəllimi, psixologiya üzrə fəlsəfə doktoru Səbinə Əlizadə, universitetin IV kurs tələbəsi İsmayıl Nəsirov çıxış edərək, professor-müəllim heyətini təbrik etmiş, uğurlar arzulayıblar.

Mərasimdə ADPU-nun 100 illiyinə həsr edilmiş film nümayiş olunub.

Tədbir bədii hissə ilə davam edib.

On December 17, 2021, Rector of Khazar University, Associate Professor Irada Khalilova, attended an event dedicated to the 100th anniversary of the Azerbaijan State Pedagogical University (ASPU).

At the beginning of the event, the National Anthem was played and the memory of the martyrs of the Great Patriotic War was commemorated with a minute of silence.

The Minister of Education Emin Amrullayev, Rector of ASPU, Professor Jafar Jafarov, young teacher of ASPU, Doctor of Philosophy in Psychology Sabina Alizade, 4th year student of the university Ismayil Nasirov congratulated the teaching staff and wished them success.

The film dedicated to the 100th anniversary of ASPU was shown at the ceremony.



"ZƏFƏR KUBOKU" UĞRUNDA YARIŞDA "XƏZƏR"İN KOMANDASI QALİB OLDU

KHAZAR UNIVERSITY TEAM WINS THE COMPETITION FOR VICTORY CUP

Yasamal Rayon Gənclər və İdman İdarəsi tərəfindən təsdiq edilmiş xüsusi tədbirlər planına müvafiq olaraq, 2021-ci il oktyabrın 1-dən başlayaraq, ali və orta ixtisas təhsili müəssisələrinin komandaları arasında "Zəfər Kuboku" uğrunda "Nə?, Harada?, Nə zaman?" intellektual oyunu üzrə bilik yarışı keçirilmişdir. Əsasnaməyə müvafiq olaraq yarışlar iki mərhələ üzrə təşkil edilmiş, birinci mərhələ üzrə daxili yarışların qalibi olmuş komandalar final mərhələsinə vəsiqə qazanmışlar.

Dekabrın 24-də təşkil edilmiş "Zəfər Kuboku"nun final mərhələsində I yerə Xəzər Universitetinin komandası, II yerə Bakı Dövlət Universitetinin komandası, III yerə Azərbaycan Dövlət İqtisad Universitetinin komandası layiq görülmüşdür. Yarışlara ümumilikdə 378 nəfər gənc qatılmışdır.

Xəzər Universitetinin komandasında qələbə qazanmış tələbələr Bəhruz Şabılı, Ehtiram Yarıyev, Nuranə Şablılı, Tamerlan Abdullayev, Tuqay Abdullazadə və İsmayıl Adıgözəlovdur.

In accordance with the special action plan approved by Yasamal District Youth and Sports Department, starting from October 1, 2021, "What ?, Where ?, When?" knowledge contest on intellectual game was held between the teams of higher and secondary vocational education institutions competing for the "Victory Cup". According to the regulations, the competitions were organized in two stages, and the teams that won the internal competitions in the first stage qualified for the final stage.

In the final round of the Victory Cup on December 24, the Khazar University team won first place, Baku State University won second place, and Azerbaijan State Economic University won third place. A total of 378 young people participated in the competition.

The winning students in the Khazar University team are Bahruz Shabili, Ehtiram Yariyev, Nurana Shabilli, Tamerlan Abdullayev, Tugay Abdullazade, and Ismail Adigozalov.

"KOSMOS ƏSRİ VƏ TÜRK DÜNYASI (İMKANLAR, VƏZİFƏLƏR, RİSKLƏR)" ADLI KONFRANS

CONFERENCE ENTITLED "SPACE AGE AND THE TURKIC WORLD (OPPORTUNITIES, CHALLENGES, RISKS)" HELD



2021-ci il dekabrın 18-də Xəzər Universiteti Tarix və arxeologiya departamentinin QAFSAM (Qafqaz Stratejik Araşdırmalar Mərkəzi) ilə birgə təşkil etdiyi "Kosmos əsri və türk dünyası (imkanlar, vəzifələr, risklər)" adlı konfrans keçirildi.

Konfransda Türkiyə Kosmos Agentliyi başqanı Serdar Hüseyin Yıldırım bütün dünyada aktuallaşan "Kosmosda güç savaşları: türk dünyasının imkanları və strategiyaları" mövzusunda məruzə etmişdir. Azərbaycanın elm adamları, politoloqları və müxtəlif universitetlərin tələbələrinin iştirak etdiyi konfransda dünyanın yeni geosiyasi dəyişimi, kosmosda dərinləşən rəqabət və s. mövzularda maraqlı müzakirələr aparılmış, qonaq verilən suallara əhatəli cavablar vermişdir.

Sonda Xəzər Universiteti adından başqan Serdar Hüseyin Yıldırım`a təşəkkürnamə təqdim edilmişdir.

AZƏRTAC tədbir haqqında xəbər yayımlayıb:

On December 18, 2021, a conference entitled "Space Age and the Turkic World (Opportunities, Challenges, Risks)" was organized by Khazar University's Department of History and Archeology in collaboration with QAFSAM (Caucasus Center for Strategic Studies).

At the conference, the head of the Turkish Space Agency, Serdar Huseyin Yildirim, made a speech on "Power Wars in Space: Opportunities and Strategies of the Turkic World". The conference, which was attended by Azerbaijani scientists, political scientists and students from various universities, focused on the new geopolitical changes in the world, deepening competition in space, etc. Interesting discussions were held on these topics and the guest provided comprehensive answers to the questions.

At the end, on behalf of Khazar University, a letter of thanks was presented to Serdar Huseyin Yildirim.

https://azertag.az/xeber/Elmi_konfrans_Kosmos_esri_ve_turk_dunyasi-1956594

"XƏZƏR"İN MÜƏLLİMİ YENİ İL MİLLİ KİTAB SƏRGİSİNDƏ

MEETING AT NEW YEAR NATIONAL BOOK FAIR

2021-ci il dekabrın 19-da Yeni il Milli Kitab Sərgisində Xəzər Universitetinin Dillər və ədəbiyyatlar departamentinin müəllimi Ülvi Babasoyla "Gənc yazarları niyə oxumuruq?" mövzusunda görüş-disput keçirilmişdir. Yazıçı Cəlil Cavanşirin moderatorluğu ilə keçirilən görüşdə Azərbaycan gəncliyinin mütaliə və intellekt səviyyəsi, oxumağa və yazmağa olan münasibəti, həmçinin yazıçıların qarşılaşdıqları çətinliklər kimi bir çox məsələlər müzakirə edilmişdir.

Görüşdə Xəzər Universitetinin Dillər və ədəbiyyatlar departamentinin müdiri, dosent Dilbər Zeynalova tədris prosesində ədəbiyyatın müxtəlif dövrlərinə, o cümlədən çağdaş yazarlara hər zaman diqqətlə yanaşıldığını, sənət adamları ilə görüşlər keçirildiyini, onların təbliğ olunmasına səy göstərildiyini vurğulamışdır.

On December 19, 2021, a meeting was held at the New Year National Book Fair with Ulvi Babasoy, the lecturer in Khazar University's Department of Languages and Literature, on "Why don't we read young writers?". The meeting, moderated by the writer Jalil Javanshir, discussed a wide range of issues, including the level of reading and intelligence of Azerbaijani youth, their attitude to reading and writing, as well as the difficulties faced by writers.

During the meeting, Dilbar Zeynalova, Head of the Language and Literature Department at Khazar University, emphasized that various periods of literature, including contemporary writers, have always been taken into account in the teaching process, meetings have been held with them, and efforts have been made to promote them.

"GƏLƏCƏYİNİ QUR!" LAYİHƏSİ XƏZƏR UNİVERSİTETİNDƏ
"BUILD YOUR FUTURE!" PROJECT AT KHAZAR UNIVERSITY

2021-ci il dekabrın 19-da "Gələcəyini Qur!" Gəncliyə Dəstək Layihəsi cari səkkizinci ilinin (2021-2022-ci tədris ili) dəyərlərə həsr olunan tədbirini həyata keçirdi. Tədbir Xəzər Universitetinin Neftçilər kampusunda baş tutdu.

Tədbir Xəzər Universiteti haqqında təqdimatla başladı. Universitetin Abituriyentlərlə iş üzrə şöbəsinin rəhbəri Ülvi Babasoy Layihə iştirakçılarına universitet haqqında məlumat verdi və gənclərin suallarını cavablandırdı. Layihənin məzunları olan və hazırda Xəzər Universitetində təhsil alan gənclər də abituriyentlərlə öz təcrübələrini bölüşdülər.

Tədbir Xəzər Universitetinin rektoru dosent İradə Xəlilovanın çıxışı ilə davam etdi. Daha sonra, Xəzər Universitetinin qonağı olan İstanbul Kent Universitetinin rektoru Dr. Necmettin Atsü gənclərə təhsilin önəmindən bəhs edib, onlara təhsil həyatlarında müvəffəqiyyətlər arzuladı.

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor, akademik Hamlet İsaxanlı gənclərin qarşısında çıxış edərək, mövzuya aid mühüm aspektlərdən danışdı. O, həmçinin, Xəzər Universitetinin qurulmasından və hər insanın Vətəni qarşısında olan məsuliyyətindən söhbət açdı. Çıxışın yekununda Hamlet İsaxanlı Layihə iştirakçılarının hər birinə müəllifi olduğu "Xəzərin sorağında" adlı kitabını hədiyyə etdi.

Tədbirin digər spikerləri mövzunun müxtəlif aspektlərinə dair gənclərə təqdimatlar verdi. Spikerlər arasında müəllim, psixoloq və bir sıra sosial layihələrin təsisçisi Hüseyn Həsənov və insan resursları üzrə mütəxəssis Xəqani Səfərov da var idi.

Layihə iştirakçıları universitetin kitabxanası ilə də tanış oldular.

2014-cü ildən Təhsil Nazirliyinin dəstəyi ilə fəaliyyət göstərən "Gələcəyini Qur!" Gəncliyə Dəstək Layihəsindən bu günə qədər 1200-dən çox gənc məzun olmuşdur. Layihəni uğurla başa vuran məzunlar hazırda ölkənin bir sıra universitetlərində və həmçinin xarici universitetlərdə təhsillərini davam etdirirlər. Cari, 8-ci ilində "Gələcəyini Qur!" Layihəsi bp və tərəfdaşları, PAŞA Holding, Azerfon, Baker Tilly və İpəksu şirkətlərinin maliyyə dəstəyi ilə həyata keçirilməkdədir.

On December 19, 2021, "Build Your Future!" the Youth Support Project held an event dedicated to values in the current eighth year (academic year 2021-2022). The event took place at Khazar University's Neftchilar campus.

The event began with a presentation about Khazar University. Ulvi Babasoy, Head of the University's Enrolees' Department, informed the project participants about the university and answered their questions. Those who graduated from the project and are currently studying at Khazar University also shared their experiences with the enrolees.

The event continued with a speech by Khazar University Rector, Associate Professor Irada Khalilova. Afterwards, Dr. Necmettin Atsu, Rector of Istanbul Kent University, Khazar University's guest, spoke about the importance of education for the young and wished them success in their educational lives.

Professor Hamlet Isakhanli, Founder of Khazar University and Chairman of the Board of Directors and Trustees, addressed the youth and spoke about important aspects of the subject.He also spoke about the establishment of Khazar University and everyone's responsibility to their homeland. At the end of his speech, Hamlet Isakhanli presented a copy of his book" In search of Khazar" to each of the project participants.

Other speakers at the event gave presentations to the young on various aspects of the topic. Among the speakers were teacher, psychologist and founder of a number of social projects Huseyn Hasanov and human resources specialist Khagani Safarov.

The project participants also got acquainted with the university library.

More than 1,200 young have graduated from "Build your future" Youth Support Project, which has been operating since 2014 with the support of the Ministry of Education. The graduates who successfully completed the project are currently studying at a number of universities in the country, as well as at foreign universities. In its current 8th year " Build your future" project is implemented with the financial support of BP and its partners, PASHA Holding, Azerfon, Baker Tilly and Ipeksu.

News about the event is posted on the Project's website in two languages:

Azərbaycan dilində: https://geleceyiniqur.az/az/geleceyini-qur-layihesi-xezer-universitetinde-2021/
İngilis dilində: https://geleceyiniqur.az/en/project-participants-at-khazar-university/



İSTANBUL KENT UNİVERSİTETİNİN REKTORU XƏZƏR UNİVERSİTETİNİN QONAĞI OLDU

RECTOR OF ISTANBUL KENT UNIVERSITY VISITS KHAZAR UNIVERSITY

2021-ci il dekabrın 19-da İstanbul Kent Universitetinin (İKU) rektoru Dr. Necmettin Atsü və universitetin Uluslararası ofis rəhbəri Berna Severge Xəzər Universitetində olmuş, universitetin təsisçisi, Direktorlar və Qəyyumlar Surasının sədri professor, akademik Hamlet İsaxanlı ilə görüşmüşdür.

Sonra qonaqlar Xəzər Universitetində keçirilən "Gələcəyini qur!" Layihəsinin təqdimatında iştirak etmişlər. Təqdimatda Bakı şəhərinin 12 rayonundan seçilmiş yüz nəfərə yaxın ən aktiv 11-ci sinif şagirdləri universitetin rektoru dosent İ.Xəlilova, Dr. N. Atsü və professor, akademik H. İsaxanlının nitqlərini dinləmiş, onlara gələcək işlərində uğurlar arzu edilmişdir.

İstanbul Kent Universitetinin əməkdaşları ilə görüşdə Xəzər Universitetinin İctimaiyyətlə əlaqələr və media üzrə direktoru Əlövsət Əmirbəyli də iştirak etmişdir.

On December 19, 2021, the rector of Istanbul Kent University (IKU) Dr. Necmettin Atsu and the head of the university's International Office, Berna Severge, visited Khazar University and met with the university's founder, Chairman of the Board of Directors and Trustees, Professor, Academician Hamlet Isaxanli.

Then, the guests attended the presentation of the Project "Build Your Future!" at Khazar University. About a hundred of the most active 11th-grade students selected from 12 districts of Baku listened the speeches of the rector of Khazar University, associate professor I.Khalilova, Dr. N.Atsu and professor, academician H.Isaxanli and they wished students success in their future work.

Alovsat Amirbeyli, Khazar University's Director of Public Relations and Media, also attended the meeting with Istanbul Kent University staff.

GƏLƏCƏYİNİ QUR!
GƏNCLİYƏ DƏSTƏK LAYİHƏSİ

"XƏZƏR"Ə TƏŞƏKKÜR MƏKTUBU

LETTER OF THANKS TO KHAZAR UNIVERSITY

Hörmətli Hamlet müəllim,

19 dekabr tarixində Layihəmizin tədbirinin Xəzər Universitetində keçirilməsinə şərait yaratdığınız üçün Sizə komandamız və abituriyentlərimiz adından dərin minnətdarlığımızı bildiririk.

"Gələcəyini Qur!" Layihəsi olaraq sevinirik ki, ilk tədbirimiz məhz Xəzər Universitetində baş tutdu, Abituriyentlərimizdən aldığımız qiymətləndirmə nəticələrinə əsasən əminliklə deyə bilərəm ki, gənclər çox dolğun və maraqlı bir gün keçirdilər. Çox sağ olun ki, bazar gününü gənclərə ayıraraq, bu günü onlar üçün yaddaqalan etdiniz.

Hörmətli Hamlet müəllim,

Sizi və Xəzər Universitetinin bütün əməkdaşlarını qarşıdan gələn Yeni İl və Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə təbrik edirəm! Yeni ildə Sizə və komandanıza yeni nailiyyətlər arzu edirəm.

Hörmətlə,
Bəhruz Hidayətzadə
Direktor,
"Build Your Future" MMC

Dear Mr. Isakhanli,

On behalf of our team and our enrolees, we would like to express our deep gratitude to you for facilitating the holding of our Project event at Khazar University on December 19.

We- the members of "Build your future!" Project are delighted that our first event took place at Khazar University. Based on the results of the assessment we received from our enrolees, I am absolutely sure that they had a very full and interesting day. Thank you very much for dedicating your weekend to the enrolees and making this day memorable for them.

Dear Mr. Hamlet Isakhanli,

I congratulate you and all the staff members of Khazar University on the upcoming New Year and the Day of Solidarity of World Azerbaijanis! I wish you and your team new achievements in the new year.

Sincerely,
Bahruz Hidayatzade
Director
"Build Your Future" LLC

"MİLLİ EKOSİSTEM QİYMƏTLƏNDİRMƏLƏRİ" LAYİHƏ KOMANDASININ NÖVBƏTİ GÖRÜŞÜ

THE NEXT MEETING OF "NATIONAL ECOSYSTEM ASSESSMENTS" PROJECT TEAM

2021 il dekabrın 18-21-də Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin və Ekosistem Xidmətləri və Biomüxtəliflik üzrə Beynəlxalq Panelin birgə apardığı "Milli Ekosistem Qiymətləndirmələri" layihə komandasının Şabran rayonunun Qalaaltı kəndində müxtəlif nazirlik, universitet və elmi idarələrin əməkdaşlarının iştirakı ilə növbəti görüşü olmuşdur.

Görüşdə Xəzər Universitetinin Coğrafiya və ətraf mühit departamentinin müdiri Rövşən Abbasov da iştirak etmişdir. Qeyd edək ki, Rövşən Abbasov "Milli Ekosistem Qiymətləndirmələri" layihəsində Su qrupunun komanda rəhbəridir və ölkənin şirin su ekositemlərinin qiymətləndirilməsi işlərini koordinasiya edir. Layihə nəticəsi olaraq, Azərbaycanın meşə, otlaq və su ekosistemlərinn müasir vəziyyəti və gələcək dəyişmə tendensiyaları öyrəniləcək və çap edilərək ölkə hökumətinə və beynəlxalq təşkilatlara təqdim olunacaq.

The next meeting of the "National Ecosystem Assessment" project team conducted by the Ministry of Ecology and Natural Resources of the Republic of Azerbaijan and IPBES (International Panel on Biodiversity and Ecosystem Services) on December 18-21, 2021 was held in Galaalti village of Shabran district. The meeting was attended by employees of various ministries, universities and scientific institutions.

Rovshan Abbasov, Head of the Department of Geography and Environment at Khazar University, also attended the meeting. It should be noted that Rovshan Abbasov is the team leader of the Water Group in the "National Ecosystem Assessments" project and coordinates the assessment of freshwater ecosystems in the country. As a result of the project, the current state and future trends of Azerbaijan's forest, pasture and aquatic ecosystems will be studied and published and submitted to the government and international organizations.

DİLLƏR VƏ ƏDƏBİYYATLAR DEPARTAMENTİ MÜƏLLİMLƏRİNİN İNTEQRATİV DƏRSİ

INTEGRATIVE LESSON OF FACULTY MEMBERS OF LANGUAGES AND LITERATURE DEPARTMENT

2021-ci il dekabrın 21-də Xəzər Universitendə Dillər və ədəbiyyatlar departamentinin "İnteqrativ dərs" layihəsi çərçivəsində "Yazılı ədəbiyyat və folklorda retrospektivlik"mövzusunda növbəti açıq dərs keçirildi.

Departamentin müəllimləri Dr.Aynur Qəzənfərqızı və Ülvi Babasoy retrospektivliyin şifahi və yazılı mətnlərdə işlənməsi, folklorda və ədəbiyyatda zaman, polifoniklik anlayışları haqqında geniş məlumat verdilər, dünya folklorunda və ədəbiyyatında yazılı və şifahi ədəbiyyatın qarşılıqlı təsirindən danışdılar. Dünya ədəbiyyatından Qabriel Markesin "Yüz ilin tənhalığı", Azərbaycan ədəbiyyatndan isə Mövlud Süleymanlının "Köç", "Səs", "Ceviz qurdu" əsərlərinə istinad edərək, folklorun işlənmə məqamlarını nümunələr əsasında göstərdilər. Açıq dərs tələbələrin və məruzəçilərin sual-cavabı ilə yekunlaşdı.

On December 21, 2021, the next open lesson on "Retrospective in Written Literature and Folklore" was held at Khazar University as part of the "Integrative Lesson" project of the Department of Languages and Literature.

Teachers of the department Dr. Aynur Gazanfargizi and Ulvi Babasoy gave detailed information about the development of retrospective in oral and written texts, the concepts of time and polyphony in folklore and literature, the interaction of written and oral literature in world folklore and literature. Referring to Gabriel Marquez's "Loneliness of the Century" from world literature and Movlud Suleymanli's "Migration", "Voice", "Walnut Worm" from Azerbaijani literature, they showed the development of folklore on the basis of examples. The open lesson ended with questions and answers from students and speakers.

"XƏZƏR"İN MÜƏLLİMLƏRİ "GƏNC EKOLOGİYA MÜHƏNDİSLƏRİ" LAYİHƏSİNİN BAĞLANIŞ TƏDBİRİNDƏ

FACULTY MEMBERS OF KHAZAR UNIVERSITY AT CLOSING CEREMONY OF YOUNG ENVIRONMENTAL ENGINEERS PROJECT

2021-ci il dekabrın 21-də Xəzər Universiteti Təbiət elmləri və mühəndislik fakültəsinin müəllimləri Bakı şəhəri 62 saylı məktəbdə "Gənc ekologiya mühəndisləri" layihəsinin bağlanış tədbirində iştirak etmişlər.

"Gənc Ekologiya mühəndisləri" layihəsi Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən dəstəklənmiş bir layihədir. Bu layihədə Xəzər Universitetinin müəllimləri könüllü olaraq gənc mühəndislərə mentorluq etmişlər.

Layihə çərçivəsində orta məktəb şagirdləri kiçik mühəndis qurğuları yaratmış və onları nümayiş etdirmişlər. Bu qurğular əsasən günəş, külək kimi təbii resurslardan istifadəni təkmilləşdirmək məqsədi daşıyır. Sonra Xəzər Universitetinin müəllimləri çıxış etmişlər. Görüşdə Fizika və elektronika departamentinin müdiri Fəridə Tatardar, Coğrafiya və ətraf mühit departamentinin müdiri Rövşən Abbasov, Mexanika mühəndisliyi departamentinin koordinatoru Mehdi Kiyasaftar iştirak etmişlər. Sonda şagirdlərə sertifikat verilmiş və xatirə şəkli çəkilmişdir.

On December 21, 2021, faculty members from Khazar University's School of Sciences and Engineering participated in the closing ceremony of the Young Environmental Engineers Project at School No. 62 in Baku.

The Young Environmental Engineers is a project supported by the Ministry of Education of the Republic of Azerbaijan. In this project, Khazar University faculty members volunteered to mentor young engineers.

As part of the project, high school students created and demonstrated small engineering structures. These structures are mainly aimed at improving the use of natural resources such as sun and wind.

Then Khazar University teachers made speeches. The meeting was attended by Farida Tatardar, Head of the Department of Physics and Electronics, Rovshan Abbasov, Head of the Department of Geography and Environment, and Mehdi Kiyasaftar, Coordinator of the Department of Mechanical Engineering. At the end, students were given a certificate and a photo was taken.

"TEKNOFEST -2022"-YƏ HAZIRLIQLA ƏLAQƏDAR SEMİNAR

WORKSHOP ON PREPARATION FOR "TEKNOFEST-2022"

2021-ci il dekabrın 22-də Xəzər Universitetində "Teknofest - 2021"-in Beynəlxalq Pilotsuz Uçuş Aparatları (PUA) yarışmasının finalçısı olmuş, "İti Qovan" komandasının kapitanı Rəşad Bərəkəti və Fizika və elektronika departamentinin müdiri dosent Fəridə Tatardar tərəfindən Teknofest seminarı keçirildi.

Teknofest - Türkiyə Texnologiya və Sənaye nazirliyinin Selçuk Bayraktar`ın rəhbərlik etdiyi T3 Vəqfi ilə birgə təşkil etdiyi, dünyanın ən böyük texnologiya festivalıdır. Bu festivalda aviasya şouları, texnologya sərgiləri, Startup sammitləri və exnologiya yarışmaları keçirilir. Fizika və elektronika departamentinin tələbələri 2021 ci il fevral ayının 4 - də "İti Qovan" komandası yaradaraq, Türkiyə Sənaye və Texnologiyalar Nazirliyi ilə T3 Vəqfinın birgə təşkil etdiyi yarışmada iştirak etmişlər.

Seminarda Teknofestin texnologiya yarışmaları, xüsusilə də PUA yarışmaları barəsində tələbələrə ətraflı məlumat verildi. Məqsəd tələbələrin texnologiya yarışmalarına olan marağını artırmaq idi. Növbəti illərdə Xəzər Universitetinin tələbələrinin bu yarışmada iştirak edə bilməsi üçün onlara tətbiqi mühəndislik və komandada işləmə bacarıqlarının yaradılmasında bu cür yarışların önəmli olduğu açıqlandı. Tədbirə qatılan tələbələr Xəzər Universitetində Mühəndislik klubunun yaradılmasını, tələbələrin orada aktiv olaraq öz ixtisasları üzrə işləmək, həmçinin Türkiyənin Teknofest və dünyada keçirilən digər beynəlxalq yarışmalara da qatılmaq istədiklərini aparılan anket sorğusunda qeyd etdilər.

Seminarın sonunda Xəzər Universitetində Mühəndislik klubunun yaradılması və gələn mövsüm "İti Qovan" komandası ilə yanaşı, klub daxilində yaradılacaq digər komandaların "Teknofest -2022" müsabiqəsində bir neçə kateqoriyada iştirak etmələri müzakirə edildi.

On December 22, 2021, Khazar University hosted a Teknofestseminar hosted by Rashad Barakati, Captain of the Team "ItiGovan", the finalist in Teknofest-2021 International Unmanned Aerial Vehicle (UAV) Competition, and Farida Tatardar, Associate Professor, Head of the Physics and Electronics Department.

Teknofest is the world's largest technology festival organized by the Turkish Ministry of Technology and Industry in cooperation with the T3 Foundation led by Selcuk Bayraktar. The festival entails aviation shows, technology exhibitions, start-up summits and technology competitions. On February 4, 2021, students of the Department of Physics and Electronics established the team "ItiGovan" and participated in the competition organized by the Turkish Ministry of Industry and Technology and the T3 Foundation.

During the seminar, students were given detailed information about Teknofest's technology competitions, especially PUA competitions. The aim was to increase students' interest in technology competitions. The importance of developing applied engineering and team working skills of Khazar Universitystudents was highlighted in order to participate in this competition in the coming years. Students participating at the event expressed their views on establishment of the Engineering Club at Khazar University, students working there actively in accordance withtheir specialties as well as their desire to participate in Teknofest Turkey and other international competitions around the world through the questionnaire.

At the end of the seminar, the establishment of an Engineering Club at Khazar University and the participation of other teams within the club, along with "Iti Govan" team, in the Teknofest-2022 competition in several categories were discussed.



TƏLƏBƏLƏRİN TƏŞKİLATÇILIĞI İLƏ XEYRİYYƏ KAMPANİYASI

CHARITY CAMPAIGN ORGANIZED BY STUDENTS

Xəzər Universiteti Humanitar, təhsil və sosial elmlər fakültəsinin Filologiya ixtisasında təhsil alan 2-ci kurs tələbəsi Fidan Hüseynova, 3-cü kurs tələbələri Fatma Heydərova və Ləman Haşımovanın təşkilatçılığı ilə xeyriyyə kampaniyası keçirilib. Kampaniyada 510 AZN toplanıb. Yığılan məbləğlə "Nur uşaq evi" və "Sevgi sığınacaq evi"nə ərzaq və şirniyyat yardımı edilib.

A charity campaign was organized by Fidan Huseynova, a second-year student majoring in philology at Khazar University's School of Humanities, Education, and Social Sciences, and Fatma Heydarova and Laman Hashimova, third-year students. 510 AZN was collected during the campaign. The collected money was used to provide food and sweets to "Nur" Children's Home and "Sevgi" Shelter house.

XƏZƏR UNİVERSİTETİNİN ƏMƏKDAŞI ELMİ İŞİNİ MÜDAFİƏ ETDİ

KHAZAR UNIVERSITY STAFF MEMBER DEFENDS PHD DISSERTATION

2021-ci il dekabrın 22-də Azərbaycan Dillər Universitetinin nəzdində elmlər doktoru və fəlsəfə doktoru elmi dərəcəsi verən ED 2.12 Dissertasiya şurasında Xəzər Universitetinin dissertantı və İngilis dili və ədəbiyyatı departamentinin koordinatoru Milana Abbasova "İngilis dilinin tədqiqinə sosiolinqvistik yanaşmada müasir tendensiyalar" adlı dissertasiya işini uğurla müdafiə etdi.

Dissertasiya şurasının sədri akademik Kamal Abdullayevin rəhbərliyi ilə keçirilən iclasda Milana Abbasovanın təqdimatından sonra şura üzvlərinin sualları cavablandırıldı.

Dissertasiya şurası rəsmi opponentlərin, ayrı-ayrı alimlərin dissertasiya və onun avtoreferatı haqqında rəylərini, elmi iş üzrə yerli və xarici elmi jurnallarda çap olunmuş məqalələri, dissertasiya işinin Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının tələblərinə cavab verdiyini nəzərə alaraq, iddiaçının fəlsəfə doktoru elmi dərəcəsi almağa layiq olması haqqında qərar qəbul etdi.

On December 22, 2021, Milana Abbasova, PhD student at Khazar University and coordinator of the Department of English Language and Literature, successfully defended her dissertation entitled "Contemporary Trends in Sociolinguistic Approach to the Study of English" at Dissertation Council No.ED 2.12 at Azerbaijan University of Languages granting degrees Doctor of Science and Doctor of Philosophy. At the meeting chaired by the head of the dissertation council academician Kamal Abdullayev, Milana Abbasova delivered her presentation and answered the questions of the board members.

The Dissertation Council decided that the applicant can be granted PhD degree taking into account the opinions of official opponents, individual scientists on the dissertation and its abstract, articles on scientific work published in local and foreign scientific journals, the dissertation's meeting the requirements of the Supreme Attestation Commission under the President of the Republic of Azerbaijan.

YUNUS EMRƏ VƏ TÜRKCƏ İLİNƏ HƏSR OLUNMUŞ TƏDBİR

AN EVENT DEDICATED TO THE YEAR OF YUNUS EMRE AND TURKISH LANGUAGE

2021-ci il dekabrın 23-də Xəzər Universitetində Dillər və ədəbiyyatlar departamentinin təşkilatçılığı ilə Yunus Əmrə və Türkcə ilinə həsr olunmuş "Gel Gidelim Dosta Gönül" (Türk Dünyasına Səyahət) adlı tədbir keçiridi. Tədbirdə Bakı Yunus Əmrə Mərkəzinin müdiri Selçuk Karakılıç, Tatarıstanın Azərbaycandakı nümayəndəsi Elmira Yusifli, AMEA Folklor İnstitutunun əməkdaşı Əli Şamil, Xəzər Universitetinin əməkdaşları və tələbələri iştirak etdilər.

Tədbirdə Yunus Əmrə yaradıcılığından şeirlər səsləndirilməklə yanaşı, tələbələr Türk Dünyasının dahi şəxsiyyətləri olan Bilgə Kağan, Mahmud Kaşğarlı, Yusif Xas Hacib, Ziya Gökalp, İsmayıl Qaspıralı və Əli bəy Hüseynzadənin fikirlərini də çatdırdılar. Başqırd, özbək, uyğur, qırğız, tatar kimi ayrı-ayrı türk ləhcələrində şeirlər ifa edildi. "Ana yurd" mahnısı tədbir iştirakçılarında xüsusi əhval-ruhiyyə yaratdı. Tədbir ərzində Türk Dünyasının repressiya qurbanları da yad edildi. Tatar Diasporasının və Xəzər Universitetinin rəqs qrupları Özbəkistan, Azərbaycan və Türkiyə rəqslərini nümayiş etdirdilər.

Tədbir çərçivəsində Türk Dünyasının mətbəxinə aid yemək və şirniyyatların xeyriyyə məqsədli satışı keçirildi.

On December 23, 2021, Khazar University's Department of Languages and Literature organized an event called "Gel Gidelim Dosta Gönül" (Journey to the Turkic World) dedicated to the Year of Yunus Emre and Turkish language. The event was attended by Selcuk Karakilich, Director of the Baku Yunus Emre Center, Elmira Yusifli, Representative of Tatarstan in Azerbaijan, Ali Shamil, an employee of the ANAS Folklore Institute, and staff members, students of Khazar University.



In addition to reciting poems by Yunus Emre, the students shared the views of geniuses of the Turkic World Bilga Kagan, Mahmud Kashgarli, Yusif Khas Hajib, Ziya Gokalp, Ismail Gaspirali and Ali bey Huseynzade. Poems were performed in different Turkish dialects such as Bashkir, Uzbek, Uyghur, Kyrgyz and Tatar. The song "Ana yurd" created a special mood among the participants. Victims of repression of the Turkic World were also commemorated during the event. Dance groups from the Tatar Diaspora and Khazar University performed dances from Uzbekistan, Azerbaijan and Turkey.

As part of the event, a charity sale of food and sweets from the cuisine of the Turkic World was held.


Kazan Tatarları
Azərbaycan











DÖVRÜNÜ QABAQLAYAN GÖRKƏMLİ ZİYALI VƏ DÖVLƏT XADİMİ - HƏSƏN HƏSƏNOV

28 may 1918-ci ildə yaranmış Azərbaycan Xalq Cümhuriyyətinin görkəmli nümayəndələri elmin və mədəniyyətin inkişafı üçün ilkin və vacib tədbirlərin əhəmiyyətini dərk edərək bu istiqamətdə qərarlar verib, quruculuq işlərinin hədəflərini müəyyən edirdilər. Lakin tarixin gedişatı onlara öz məqsəd və arzularını gerçəkləşdirməyə imkan vermədi. Amma onlar böyük bir vətənpərvərlik, millətsevərlik irsini artıq SSRİ tərkibində olan Azərbaycanın gələcək nəsillərinə mənəvi inkişafın təməl daşı kimi, möhtəşəm miras kimi ərməğan etdilər; milliliyi inkar edən yeni ideoloji baxışların amiranə yollarla tətbiqinə, amansız repressiyalara, totalitar imperiya quruluşunun zorakı mühəndisliyinə baxmayaraq, artıq sovet Azərbaycanında da yetişən yeni ziyalı nəsillər vətənpərvərliyin və millətsevərliyin bünövrəsi olan mədəni irsin qorunması və öyrənilməsini öz həyatlarının məqsədi kimi dərk edirdilər. Formal olaraq zahiri görünüş dəyişsə də, müəyyən mövzular yasaq altında olsa da, sovet Azərbaycanının milli ziyalı təbəqəsindən çıxan alimlərin, incəsənət və dövlət xadimlərinin əsas amalı - gələcək nəsillər üçün milli kimliyin əsası olan mədəni irsi yaşatmaq və inkişaf etdirmək idi.

Bu kontekstdə Ulu Öndər Heydər Əliyevin Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi olduğu dövrü xüsusi vurğulamaq lazımdır. Məhz bu dövr SSRİ tərkibində Azərbaycanın siyasi, iqtisadi və mədəni sahədə güclənməsi dövrü idi. Ulu Öndərin apardığı müdrik siyasət dövrünü Azərbaycanın SSRİ daxilində "milli intibahı" adlandırsaq, yanılmarıq. Sözsüz ki, müstəqil Azərbaycan Respublikasının müjdəsi olmuş bu dönəmdə milli mənafelərə uyğun ideoloji və mədəni mühiti Heydər Əliyevin məsləkdaşı olmuş dövlət idarəçiliyindəki milli kadrlar olmadan gerçəkləşdirmək mümkün deyildi. Ulu öndərin dövlət quruculuğu istiqamətində ən böyük tarixi işlərindən biri də dövlət aparatına vətənpərvər, millətsevər, ziyalı, bilikli, səriştəli milli kadrların aranıb yerləşdirilməsi oldu.

Ulu Öndərin 1969-1982-ci illərdə böyük etimad göstərib Azərbaycanın dövlət idarəçilik aparatında Vətən yolunda xidmətə cəlb etdiyi milli ruhlu ziyalılardan biri də müstəqillik dövründə Azərbaycanın ilk baş naziri olmuş, daha sonra respublikamızı BMT-də ləyaqətlə təmsil etmiş, xarici işlər naziri vəzifəsi də daxil olmaqla diplomatik sahədə uzun illər uğurla fəaliyyət göstərmiş Həsən Əziz oğlu Həsənovdur. Ulu Öndərin müstəqil Azərbaycana aparan amal yolunun məsləkdaşı olan Həsən Həsənovun keçmişi, Vətən qarşısında xidmətləri barədə istər KİV-də, istərsə də elmi ədəbiyyatda yetərincə çox məlumat əldə etmək olar.

Söhbət bu görkəmli dövlət xadiminin təkcə yüksək şəxsi keyfiyyətlərindən, Azərbaycan ziyalıları ilə daimi təmasından, tarix üzrə elmi araşdırmalarından getmir. Biz, sadəcə olaraq, diqqəti indiyədək onun Azərbaycan tarixi və arxeologiyasına göstərdiyi himayəyə və dəstəyə yönəltməyə çalışacağıq. Belə ki, 70-ci illərin sonundan 1983-cü ilədək yüksək sovet dövlət vəzifələrində Həsən Həsənovun Azərbaycan tarixçilərinə və arxeoloqlarına verdiyi önəm, göstərdiyi diqqət geniş oxucu auditoriyasına çox bəlli deyil, bu həqiqətlər yalnız alimlərimizin bir sıra yazılı və şifahi nəqlində öz əksini tapıb.

Barəsində söz açdığım dövlət xadimi ilə şəxsi söhbətlərimə, özümün, həmyaşıd alim həmkarlarımın yazılı və şifahi xatirələrinə istinadən demək olar ki, 1975-ci ildə Bakının indiki Səbail (o zamanlar "26 Bakı komissarı" adlanan) rayonunun partiya komitəsinin birinci katibi təyin edildikdən etibarən



Heydər Əliyev 1983-cü il sentyabrın 6-da Qədim Şabran Tarix və Mədəniyyət Abidəsinə səfər zamanı

Həsən müəllim paytaxtda cəmlənmiş dövrünün görkəmli ziyalıları, tədqiqatçı alimləri ilə sıx ünsiyyət qurdu. Çünki Elmlər Akademiyasındakı partiya təşkilatı Səbail rayonunun partiya qeydiyyatında idi və keçirilən bütün partiya və ictimai tədbirlərə Həsən müəllim şəxsən AMEA alimlərini dəvət edirdi.

1979-cu ildə o zaman "Kirovabad" adlanan Gəncə Şəhər Partiya Komitəsinin birinci katibi vəzifəsinə Heydər Əliyev tərəfindən Həsən Həsənov təyin olunur. Həsən müəllim qədim Gəncənin elmi potensialını görərək, tezliklə buraya, o zaman sovet Azərbaycanının EA-nın prezidenti Həsən Abdullayevi dəvət edir. Gəncə və şəhərin ziyalıları ilə H.Abdullayevi tanış edən H.Həsənov EA-nın Gəncə bölməsi yaradılması barədə təklif irəli sürür. Çox keçmədən H.Həsənovun bu təşəbbüsü gerçəkləşir. Daha sonra H.Həsənovun təşəbbüsü və dəstəyi ilə EA-nın Gəncə şöbəsinin nəzdində bölgəni tədqiq edən arxeoloji qrup da təşkil olunur.

İndiyədək gəncəlilər Həsən Həsənovun adını Gəncədəki məscidlərin tədqiq və bərpa edilməsi kimi təqdirəlayiq fəaliyyətlə bağlayırlar. Problemin nə qədər çətin olmasını dərk etmək üçün qısa tarixə baş vurmalı olacağıq. Belə ki, Azərbaycanda bolşevik Rusiyasının işğalı nəticəsində qurulmuş yeni sovet sistemi dinə antolerant idi. Marksizm ideologiyası dini nəinki köhnə və geridə qalmış ideologiya kimi, həm də düşmən dünyabaxış kimi qiymətləndirir və onunla hər bir üsulla mübarizə aparırdı. Sovet hökumətinin dinlə mübarizəsi təkcə din xadimlərinin və dini tədrisin təqibi ilə bitmirdi. Dini məbədlər də ya dağıdılır, ya da ən "yaxşı halda" tam fərqli təyinatla istifadə olunurdu. Həsən müəllim və yaşlı nəsil gəncəlilərlə söhbətlərdən bəlli olur ki, tarixən "İmamzadə şəhəri" kimi tanınan və Azərbaycandakı dini mərkəzlərdən biri olan Gəncədə belə, məscidlərə sovet hakimiyyətinin münasibəti yenə də soyuq idi, dini abidələr qəti olaraq dindarlardan uzaq saxlanılır, mədəni irs kimi qəbul edilmirdi.

Həsən müəllimin xatirələrinə istinad etsək, o dövrdə Gəncədəki bəzi məscidləri ailələrə yaşayış üçün vermişdilər, bəzilərində istehsal təşkil olunmuşdu.

Həsən müəllim söhbətlərinin birində söylədi ki, Bala Bağban məhləsində yerli sakinlərlə görüşərkən, onlardan biri nəyisə söyləyəndə and içərək deyir: "Dustaq məscid haqqı". Həsən müəllim o dəqiqə deyir ki, ilk dəfədir belə and eşidirəm. Həmin sakin Həsən müəllimin əlindən tutub, həmin məscidə tərəf aparır. Dağılmış vəziyyətdə olan Bala Bağban məscidi hətta at tövləsi, ərzaq, o cümlədən içki saxlamaq üçün anbar kimi istifadə olunurdu. Bərpa edilmiş Bala Bağban məscidi Şəfa ocağı, "Yaşıl aptek" kimi

istifadəyə verildi.

"Tatarlar məscidi" adlanan Hüseyniyyə məscid mədrəsəsi avtomobil təkərləri saxlanılan anbar kimi,"Şərəfxanlı" məscidi isə tikiş fabrikinin filialı kimi istifadə olunurdu. "Zərrabi" məscidində bir neçə ailə yaşayırdı. "Şahsevənli" məscidi isə dağılmış vəziyyətdə idi.

H.Həsənovun öz sözlərinə görə, bu məscidləri müxtəlif adla bərpa edib, qorumaq lazım idi. Çünki onlar xalqın tarixi, maddi və mənəvi - mədəni, həm də dini irsi idi. Bərpa işlərinə təkcə memarlar deyil, tarixçi və arxeoloqlar da cəlb edildi. Həsən müəllimin öz sözlərinə görə, ilk dəfə məhz məscidlərin bərpa işində arxeologiyanın dəyərini və vacibliyini hiss etdi.

Sözsüz ki, bərpa edilən məscidlər dini mərkəzlər kimi xalqa, dindarlara qaytarıla bilməzdi. Bu cür addım həm onlarla ziyalı üçün və hətta bərpa edilmiş abidələr üçün ciddi təhlükə yaradardı. O zaman Moskvadan dinlə mübarizə aparmaq üçün sərt göstərişlər gəlirdi. Dini mərkəzlərin inkişafı qadağan idi. Dini məbədləri sökmək, dağıtmaq alqışlanırdı. Ona görə də, bərpa edilmiş məscidlər dini ocaq olaraq deyil, mədəni-tarixi abidələr kimi istifadə edildi. Məsələn, Ozan məscidini sərgi-muzeyə çevirərək, orada şəhər sakinləri və qonaqlar üçün Gəncənin orta əsr maketi sərgiləndi. Bərpa edilmiş digəri təhsil ocağı, uşaq texniki mərkəzi kimi təqdim olundu.

Həsən müəllimlə söhbətlərdən bəlli olur ki, Hüseyniyyə məscidi bərpa edilərək, bilik ocağı - Nizami Gəncəvi və Aleksandr Puşkin adına şəhər kitabxanası kimi istifadəyə verildi. Rus klassik şairinin adının da kitabxanaya əlavə edilməsinin siyasi məqsədilə yanaşı, həm də tarixi səbəbi var idi. Çünki hələ çar dövründə Gəncədə (çar müstəmləkəçiliyi dövründə Yelizavetpol adlandırılmışdı) Puşkin adına kitabxana mövcud idi. Bərpa olunarkən Xalq rəssamı Toğrul Nərimanbəyov da orada Nizami və Puşkinin ədəbi obrazlarından ibarət böyük bir panno düzəltdi və həmin panno indi də durmaqdadır. Bu müdrik siyasi mövqe ilə Həsən Həsənov Gəncədə 8 məscidin bərpasına nail ola bildi. Bərpa zamanı məscidlərin divarlarındakı, vaxtilə bilərəkdən üstü suvanmış Quran-i Kərimdən mətnlər və Hüseyniyyə məscidinin mehrabı da aşkar edildi.

Həsən Həsənovun bu yöndə fəaliyyəti diqqətdən kənarda deyildi. Tezliklə Gəncədə və ətraf bölgələrdə belə bir şayiə yayılır ki, Gəncəyə İranın dini lideri Ayətullah Xomeyni səfərə gələcək. Bakıdakı rəsmilərlə əlaqə saxlayan H.Həsənova bildirildi ki, bu şayiələr əsassızdır və şayiələrin mənbəyini Gəncənin özündə axtar. O dövrdə Gəncə şəhəri üzrə SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin rəhbəri Adna Adnayevi yanına çağıraraq, H.Həsənov ona bu şayiənin mənbəyini araşdırmağı tapşırır. Bir müddətdən sonra aydın olur ki, gəncəlilər sovet dönəmində ağılasığmaz bir prosesə, yəni, ən yüksək səviyyədə şəhərin kommunist rəhbərliyinin məscidləri belə geniş miqyaslı bərpa etməsinə izah tapmaq istəyirmiş. Mümkün risklərdən sığortalanmaq üçün xalqın geniş kütlələrindən kökündə milli mənəvi özül gizlədilmiş bu prosesə izahat axtaran sadə soydaşlarımız bunu İranın dini liderinin bəlkə də Gəncəyə mümkün səfəri ilə izah etməyə çalışmışlar...

Şəxsi söhbətlərdə Həsən müəllim maraqlı və o dövrü araşdıran tarixçilər üçün diqqətçəkici bir epizodu da danışıb. Gəncədə aparılan təmir-tikinti, bərpa işləri və yeni təsərrüfat obyektlərinə baxış keçirmək üçün respublikanın rəhbəri Heydər Əliyevin Gəncəyə növbəti səfəri planlaşdırılırdı. Qəbul edilmiş qaydalara görə, Gəncə partiya komitəsi səfər proqramını öncədən hazırlayıb, Bakıya yollayır. Proqrama "Yeni Gəncə" qəsəbəsinə, Xatirə Bağına (indiki Heydər Əliyev adına park), yeni tikilmiş idman məktəbinə, şahmat məktəbinə və digər mədəni və sənaye obyektlərinə baxış salınmışdı. H.Həsənov məscidlərin bərpası barədə bəzi bədniyyətli adamların Bakı və Moskvaya edilən şikayətlərindən xəbərdar idi. Ona görə də, proqrama bərpa edilmiş məscidləri cəlb etməmişdi. Bakıdan ona zəng edən Heydər Əliyevin köməkçisi bildirib ki, səfər proqramını nəzərdən keçirən Heydər Əliyev bərpa edilmiş məscidlərin niyə proqramda olmadığını bilmək istəyir. Narahatlığı artmış Həsən müəllim cavab vermişdi ki, "mən heç bir məscid bərpa etməmişəm". Köməkçi də bildirib ki, bərpa edilmiş Gəncə məscidləri barədə bütün respublika və ondan kənarda da danışırlar. Siyasi fərasətini göstərən Həsən müəllim də bildirib ki, "mən dağılmış tarixi abidələri arxeoloji və tarixi memarlıq baxımından bərpa etmişəm". Bu zaman köməkçi Həsən Həsənovun narahatlığını hiss edərək, gülərək deyib ki, narahat olma, sizin bu təşəbbüsünüzü Heydər Əliyev bəyənib və bərpa edilmiş məscidlərdən birinə baxmaq istəyir.

Gəncəyə səfər edən Ulu Öndər yeni təsərrüfat və sosial obyektlərlə yanaşı, həm də bərpa edilmiş üç

məscidə də baxış keçirir. Zərrabi məscidində Nizami poeziya teatr truppası çıxış edir. Ulu Öndər "Yaşıl aptek kimi istifadəyə verilən məscidi, Hüseyniyyə və digər məscidləri də ziyarət edir. Məscidlərin bərpası və təmirindən Heydər Əliyev olduqca məmnun qalmışdı. Beləliklə, Həsən Həsənovun təşəbbüsü ən yüksək səviyyədə dəstəklənmişdi; bu isə Heydər Əliyevin Azərbaycanın qədim tarixinə və mədəniyyətinə olan diqqət və qayğısının daha bir təzahürüdür.



M.Hüseynov, H.Həsənov, Ə.Cəfərov Azıx düşərgəsini müşahidə edirlər (18 iyul 1981-ci il)

Gəncə ilə bağlı bir maraqlı epizodu xatırlamaq istərdim. Həsən Həsənov çalışırdı ki, tipik sovet təsərrüfat şəhəri təəssüratı bağışlayan Gəncə şəhəri milli mədəniyyət mərkəzinə çevrilsin. Yerli ziyalılar, arxeoloqlar ona bildirdilər ki, şəhər ətrafında, hətta Qarabağa qədər ərazilərdə çox sayda qoyun, qoç, at və digər stildə daş heykəllərə rast gəlmək olar. Baxımsızlıqdan və hətta xalqımızın bədxahları tərəfindən qərəzli rəftar ilə bu daş heykəllər yox olmaq təhlükəsi qarşısındadır. Həsən müəllim bu abidələrin tarixi və mədəni əhəmiyyətini düzgün dəyərləndirir; bir çox xalqlarda oxşar daş abidələr ümumiyyətlə yox idi. Onun göstərişi ilə xüsusi qrup yaradılır, onlara vəsait, nəqliyyat ayrılır. Bu qrup Gəncə və ətraf bölgələrdən həmin daş heykəlləri toplayaraq, Gəncəyə gətirir. Gəncədə tarix muzeyinin qarşısında bağ salınır və bu daş heykəllər bağın ərazisinə yerləşdirilir.

Ulu Öndər yetişdirdiyi milli kadrın fəaliyyətini yüksək dəyərləndirərək, 1981-ci ildə Həsən Həsənovu Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin ideoloji məsələlər üzrə katibi vəzifəsinə təyin edir. Həsən müəllimin öz sözləri ilə desək, "H.Əliyev məni Bakıya özünə müavin gətirəndə dedi ki, Gəncədə gördüyün işləri indi bütün respublikada gerçəkləşdir. Qoy bizim Azərbaycan tarixi, mədəniyyəti daha da canlansın".

Bu yeni vəzifədə elə ilk tədbirlərdən biri Gəncədə toplanmış daş heykəllərin əsasında Azərbaycanda daş heykəllərin ənənəsini dünyaya tanıtmaq oldu. Həsən müəllim o zaman AMEA Memarlıq və İncəsənət İnstitutunda çalışan akademik Rasim Əfəndiyevlə görüşür və Gəncədə və digər bölgələrimizdə daş heykəllər ənənəsi barədə mövzunu qaldırır. Tezliklə, Rasim Əfəndiyevin "Azərbaycanın daş plastikası" adlı tədqiqat əsəri işıq üzü görür.

O dövrdə Heydər Əliyev qərar qəbul etmişdi ki, Azərbaycan tarixinin 10 cildliyi hazırlansın. Sovet dövründə tarix siyasiləşmişdi. Azərbaycan tarix elminə Moskvadan ciddi müdaxilə var idi. Azərbaycan tarixinin 10 cildliyinin 9 cildi hazır idi. Birinci cild ən qədim tarix və etnogenez məsələlərini əhatə edirdi. Problemi həll etmək üçün Həsən Həsənov tez-tez AMEA tarixçilərini və arxeoloqlarını toplayaraq,

müzakirələr təşkil edirdi. Müzakirələrdən aydın oldu ki, Azərbaycan tarixçilərinin etnogenez məsələsində fikirləri haçalanır. AMEA Tarix İnstitutunun direktor müavini Mahmud İsmayılov Azərbaycan xalqının kökündə aparıcı etnik massivi tarixi türk xalqları ilə bağlayırdı. AMEA Tarix İnstitutunun direktoru akademik İqrar Əliyev isə, bildirirdi ki, XII əsrə qədər Azərbaycanda türk əsilli əhali mövcud deyildi. Bu fikir ayrılığına görə çoxcildli Azərbaycan tarixinin nəşri uzun illər baş tutmadı.

Həsən müəllim daim qeyd edir ki, Gəncədə arxeologiyaya göstərdiyi qayğını sonra respublika miqyasında inkişaf etdirdi. O, tarix elmi ilə yanaşı, həm də arxeologiyaya diqqət yetirməyə başladı.



H.Həsənov Xəzər Universitetində

Qeyd edək ki, Heydər Əliyev sovet dönəmində respublikaya rəhbərliyi dövründə milli Azərbaycan arxeologiyasının canlanmasında Həsən Həsənovun əməyini dəstəkləyirdi. Belə ki, rayon rəhbərləri, xüsusilə partiya komitələri arxeoloqların fəaliyyətinə barmaqarası baxır, lazımi diqqət ayırmırdılar. Yerli partiya və təsərrüfat rəhbərlərinin arxeologiya, onun bölgənin və xalqın tarixinin öyrənilməsində əhəmiyyəti, digər respublikalarda öz arxeoloqlarına göstərilən dəstək barədə heç təsəvvürləri yox idi. Həsən Həsənov Azərbaycan KP MK-nın ideologiya işləri üzrə katibi vəzifəsində elm, təhsil, mədəniyyət və xarici əlaqələrə məsul olaraq bölgələrə səfər etdikdə, daim ərazidə çalışan arxeoloji ekspedisyalara baş çəkir, onların problemlərini öyrənir və yerli partiya və təsərrüffat rəhbərlərinə arxeoloqlara yardım etmələrini tapşırırdı. Nəticədə, rayonların partiya və təsərrüfat rəhbərləri artıq H.Həsənovun göstərişini gözləmədən bölgədə çalışan arxeoloji ekspedisiyalara lazımi dəstəyi verməyə başlamışdılar. Çünki bilirdilər ki, Həsən müəllim səfərlərindən sonra rayonlardakı siyasi, sosial, təsərrüfat və digər sahələrdə durum barədə Heydər Əliyevə məruzə edirdi. Qınaqdan yayınmaq üçün rayon partiya komitələrinin katibləri, digər sahələrdə olduğu kimi, arxeoloqlara dəstək istiqamətində də problemləri həll etməyə çalışırdılar. Həm də onlar bilirdilər ki, Heydər Əliyevin özü də bu məsələni diqqətdə saxlayırdı və Həsən Həsənovun bu istiqamətdə təşəbbüslərini və fəaliyyətini tam dəstəkləyirdi.

Şəxsi xatirələrim, həmkarlarımın xatirələri və Həsən müəllimlə həmin dövr haqqında söhbətlərə istinadən, deyə bilərəm ki, sovet dönəmindəki inzibati sistem və iqtisadi qaydalar arxeoloji ekspedisiyalar

üçün ciddi maneələr törədirdi. Bunu söhbətlər zamanı Həsən müəllimin özü də etiraf edirdi. Belə ki, sovet dönəmində arxeoloji ekspedisiya zamanı arxeoloqun azad işçi qüvvəsi, texniki avadanlıq və nəqliyyat tapması böyük bir problem idi. O dövrdə fəhlələr bölgələrdə kolxoz, sovxoz, digər istehsal, dövlət təsərrüfatı, iaşə və s. sahələr üzrə dövlət təşkilatlarında qeydiyyatda idi. Boş fəhlə tapmaq, hətta onun ekspedisiyada çalışması, həm ekspedisiya rəhbəri, həm də fəhlə üçün inzibati qaydalar müstəvisində ciddi problem doğura bilərdi. Eyni durumu texniki və nəqliyyat təchizatı üzrə görmək olardı. Arxeoloji ekspedisiyanın qalmağa yeri, təchizatı ayrıca böyük problem idi. Bu problemlər o dövrdə məhz Həsən Həsənov tərəfindən həll edildi. Onun göstərişi ilə, fəhlələr yerli dövlət təsərrüfat təşkilatında qeydiyyatda qalmaqla arxeoloji ekspedisiyalarda çalışa bilərdilər. H.Həsənovun tapşırığı ilə rayon partiya və dövlət orqanları arxeoloqları yerlə, nəqliyyat və digər avadanlıq ilə təmin etməli idilər. Bütün bu tədbirlər həmin dövrdə aparılan arxeoloji qazıntıların kəmiyyətinin və keyfiyyətinin yüksəlişində öz əksini tapdı. Həsən Həsənovun arxeologiyaya himayəsini arxeoloqlar hətta elmi hesabatlarında qeyd edir və ayrıca təşəkkürlərini bildirirdilər.

Həsən Həsənovu bəzi digər dövlət adamlarından fərqləndirən şəxsi keyfiyyətlərini də qeyd etmək vacibdir. İnsanlarla ünsiyyət qurmaq bacarığı, sadəliyi, incə yumor hissi, eyni zamanda problemlərin həllində onun ciddilik və qətiyyət nümayişi dillər əzbəridir. Məsələn, Füzuli rayonuna rəsmi səfəri zamanı yerli sovet və partiya rəhbərləri ilə birgə Azıx mağarasını ziyarət etmək istəyini bildirir. Mağaraya yaxınlaşıb, oraya daxil olmaq istəyərkən aydın olur ki, Azıx mağarasında torpaq və çöküntülər mövcud girişləri məhdudlaşdırıb, mağaraya bəzi hallarda, yalnız sürünərək girmək mümkün idi. Müşayiət edən şəxslər tərəddüdlə gözləyirdilər. Həsən Həsənov əsgər kimi sürünərək, mağaranın içərisinə daxil olur və onu müşayiət edən arxeoloqlardan birinin yandırdığı kibritin işığı ilə zülmət içində olan mağaraya baxış keçirir. Hətta bu zaman şalvarı dizədək sökülür. Belə olduqda mağaranın tədqiqatçılarından biri, o dövrdə gənc arxeoloq Əsədulla Cəfərovun verdiyi sancaqlarla sökülmüş yeri birləşdirir. Sonradan AMEA-nın şöbə müdiri olan, professor Əsədulla Cəfərov da öz əsərində qeyd edir ki, sadə insan olan Həsən Həsənov yüksək partiya vəzifəsində olduğu dövrdə Azıx mağarasının tədqiqinə, arxeoloq Məmmədəli Hüseynovun ekspedisiyasına hər bir dəstəyi göstərirdi.

Həmin dövrdə mərhum arxeoloq Rəşid Göyüşov qədim Şabran ərazisində tədqiqatlar aparırdı, Qala adlanan yerdə qazıntılara rəhbərlik edirdi. Qazıntıların aparıldığı əraziyə səfər edən Həsən müəllim tezliklə Rəşid Göyüşovla dostlaşır. Arxeologiya elmini yüksək dəyərləndirən Heydər Əliyev 1983-cü il sentyabrın 6-da Şabranda olarkən, həmin qazıntı yerinə baxır. Bir müddət sonra Azərbaycana səfəri çərçivəsində dünya şöhrətli norveçli səyyah Tur Heyerdal da buraya səfər edir.

Həsən Həsənov mənimlə söhbətlərində Rəşid Göyüşovla bağlı maraqlı bir məqama diqqət yetirir. Mərhum Rəşid Göyüşov bildirirdi ki, alban kilsələri xristianlığa qədərki alban çoxtanrıçılıq məbədləri üzərində inşa edilirdi. Şəxsən Həsən müəllimin mövqeyi bu idi ki, albanların əksəriyyəti xristian deyildi, qədim inanclar onlarda hələ yaşayırdı. Əgər xristianlıq albanları tam əhatə etsəydi və güclü olsa idi, indi Gürcüstanda olduğu kimi, Azərbaycanda əhalinin əksəriyyəti xristian olaraq qalardı. Yeni tədqiqatlarda, xüsusilə, Zaur Həsənovun bir tədqiqatında Musa Qalanqatlının "Alban tarixi"ndə qeyri-xristian hun əsilli albanların da, Herodotun "Tarix" əsərində iskitlərin də eyni sayda, yəni səkkiz tanrıları ilə müqayisəsi aparılmışdı.

Albaniyada xristianlıq mövzusu üzrə monoqrafiyaya böyük ehtiyacın olduğunu Həsən müəllim Rəşid Göyüşova bildirir. Rəşid müəllim də bu təklifi qəbul edir və 1984-cü ildə onun rus dilində "Qafqaz Albaniyasında xristianlıq (arxeologiyanın və yazılı mənbələrin məlumatları əsasında)" adlı monoqrafiyası işıq üzü görür. Rəşid Göyüşov kitabın bir nüsxəsini Həsən müəllimə bəxş edərkən, monoqrafiyanın titul səhifəsində bu sözləri yazmışdı: "Kitabımın nəşr olunmasının təşəbbüskarı və səbəbkarı, xalqımın mərd oğlu səmimi, mehriban Həsən müəllimə ən xoş arzularla. 20. XII. 84. Rəşid Göyüşov".

Həsən müəllimin etirafına görə, bu əsər nəşr olunandan sonra onda hətta müəyyən tərəddüd yaranmışdı ki, əsərin ərsəyə gəlməsinə həqiqətənmi ehtiyac var idi... Lakin cəmi bir neçə ildən sonra erməni millətçilərinin Azərbaycan xalqına qarşı ərazi iddiaları ilə yanaşı, albanların xristian irsinə də iddialarının miqyası əsərin zamanında işıq üzü gördüyünü təsdiq etdi.

AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun direktoru olmuş mərhum professor Arif Abbasovun

hamının yanında Həsən Həsənova dediyi sözlər tam gerçəkliyi əks etdirirdi: "Həsən müəllim, Heydər Əliyevin himayəsi altında sizin səyləriniz Azərbaycan arxeologiyasını gücləndirdi, bu sahənin institutlaşmasına zəmin yaratdı".

Həmin illərdə Həsən Həsənova müraciət edən ziyalılarımızdan biri də İnşaat Universitetinin kafedra müdiri Davud Axundov idi. O bildirmişdi ki, Azərbaycanın arxeoloji tədqiqata ehtiyacı olan bir çox qədim memarlıq abidələri haqqında elmi tədqiqatının çapına Tarix İnstitutunun direktoru akademik İqrar Əliyev yasaq qoyub. Səbəb bu idi ki, D.Axundov Qız qalasının e.ə. VIII əsrə aid olduğunu iddia edir, İ.Əliyev bu fikirlə razılaşmır və abidənin eramızın XII əsrində inşa edilməsində israrlı olur. Məsələ ilə bağlı H.Həsənov nəşriyyata zəng edir və bildirir ki, Azərbaycan KP MK İqrar Əliyevə elə səlahiyyət verməyib ki, kitabların nəşrinə müdaxilə etsin. Beləliklə, Həsən müəllimin birbaşa səyi ilə əsər nəşr edilir. D.Axundovun əsəri ilə tanış olan Həsən Həsənov etiraf edir ki, Azərbaycanın memarlıq tarixinin bir çox problemləri ilə bu monoqrafiyada tanış olub. H.Həsənovla fikir mübadiləsi zamanı Davud müəllim vətənimiz Azərbaycan ərazisində alban abidələrinin çox olması, onların erkən xristian dövrünə, hətta ondan da öncəki dövrə aidiyyatını qeyd edirdi. Eyni zamanda, Davud müəllim bildirirdi ki, bu abidələrin böyük bir qismi dağılmış və baxımsız haldadır. Sözsüz ki, Həsən müəllim həmin abidələrin qeydə alınması, tədqiqi və bərpası üçün imkanı daxilində D.Axundova dəstək verdi. Bir qədər sonra D.Axundov bərpa etdiyi abidələrin də təsvirlərinin əlavə olunduğu tədqiqatını dərc etdirdi.

Həsən müəllimin Azərbaycan tarixi elmi qarşısında xidmətlərindən biri qafqazşünas alim Fəridə Məmmədovanın tədqiqatının qarşısında duran əsassız maneələrin aradan qaldırılması idi. Belə ki, D.Axundov müraciət edərək, gənc bir alimin Qafqaz Albaniyası barədə tədqiqatının işıq üzü görməsinə akademik İ.Əliyev tərəfindən maneələrin yaradılmasından danışır. O zaman Həsən müəllim Fəridə xanımı Davud Axundovla birgə görüşə dəvət edir. Bu görüşdə Həsən müəllim Fəridə Məmmədovaya yalnız bir sual verir: onun əsərinin yeniliyi nədən ibarətdir və bu yeniliklər tariximizin daha ədalətli təqdimatında nə imkanlar yaradır?

Fəridə Məmmədova Həsən müəllimin sualına belə cavab vermişdi ki, onun əsərində Alban dövlətçiliyinin tarixi ən qədim zamanlardan tədqiq edilib.

Belə ki, birincisi, o dövrdə erməni tarixçiləri belə bir əsassız fikri tarix elminə qəbul etdirmək istəyirdilər ki, Qafqaz Albanları erməni tayfalarından biri olub. Əsərdə tarixi əsaslarla Qafqaz Albanlarının ermənilərdən tam fərqli bir etnos olması göstərilir.

İkincisi, əsərdə isbat olunur ki, Alban kilsəsi erməni kilsəsinin bir yeparxiyası deyil, tam ayrı və müstəqil kilsə təşkilatı olmuşdur.

Üçüncüsü, erməni tarixçiləri sübut etməyə cəhd edirlər ki, tarixi Albaniyanın sərhədi Kür çayının sol sahili boyunca idi, Araza qədər olan ərazilər isə, tarixən ermənilərə məxsus olub. F.Məmmədovanın əsərində isə, sübut olunur ki, Qafqaz Albaniyasının sərhədi Araz çayı boyunca uzanırdı. Bu əsərin nəyə görə İqrar Əliyev tərəfindən qəbul edilmədiyi sualına F.Məmmədova "bilmirəm" cavabı vermişdi.

Şəxsi görüşündə İqrar Əliyev bu suala belə cavab vermişdi ki, F.Məmmədovanın işində çatışmazlıqlar var, əsər tam hazır deyil və s. Həsən müəllim akademikə bildirmişdi ki, elmi mövzular üzrə F.Məmmədovanın fikirlərinə etiraz etməyə ixtiyarınız var, amma onun kitabının çapına mane olmaq hüququnuz yoxdur. Beləliklə, Həsən Həsənovun birbaşa dəstəyi ilə Fəridə Məmmədovanın "Qafqaz Albaniyasının siyasi tarixi və tarixi coğrafiyası (e.ə. III əsrdən - VIII əsrədək)" əsəri 1984-cü ildə nəşr edildi. 1994-cü ildə bu əsərin bir nüsxəsini Həsən Həsənova bəxş edərkən, monoqrafiyanın titul səhifəsində Fəridə Məmmədova bu sözləri yazmışdı: "İlk dəfə dünya tarixində Azərbaycanın tarixi coğrafiyasının (tarix elminin ən çətin sahəsinin) yaradılmasına, mənim əsərimin - bu kitabın ərsəyə gəlməsinə dəstək üçün əziz və dərin sayğılı Həsən Əzizoğluna hüdudsuz təşəkkürlə. Dərin ehtiramla Fəridə Məmmədova. 01.06.1994.".

Həsən müəllimlə söhbətlərimdə o qeyd edir ki, Fəridə xanım Qafqaz Albaniyasının etnik tərkibində türk tayfalarının olması barədə suala həmişə konkret cavab vermirdi, həmişə bu sualdan yayınırdı. Sadəcə, belə cavab verirdi ki, türkdilli tayfalar Qafqaz Albaniyasının etnik massivində hunlardan etibarən peyda olublar. Qeyd edək ki, bu problem indiyədək elmdə qızğın mübahisə mövzusu olaraq qalır.

Mühüm bir fakt kimi Qəbələdə aparılan qazıntıları qeyd etməliyəm. Mərhum arxeoloq Firudin

Qədirovun başçılığı ilə Qəbələ arxeoloji ekspedisiyasının III dəstəsi 1983-cü ildən başlanmış qədim Qəbələ şəhərinin Qala hissəsində arxeoloji tədqiqatları 1984-cü ildə də davam etdirirdi. Yerli sovet və təsərrüfat rəhbərliyi ilə arxeoloji ekspedisiyası arasında müəyyən problemlər yaşanırdı. 1984-cü ildə ekspedisiya ilə bağlı yaranmış problemləri həll etmək üçün Həsən Həsənov şəxsən qazıntı sahəsinə gəldi. Onu yerli partiya rəhbərləri və respublika üzrə abidələrin bərpa və konservasiya idarəsinin nümayəndələri müşayət edirdilər.

Ekspedisiyanın elmi hesabatında F.Qədirov yazırdı: "H.Həsənov yoldaş şəhər xarabalığı ilə və qazıntı apardığımız sahə ilə tanış olandan sonra, şəhər xarabalığının cənub darvazasının qarşısında səyyar müşavirə keçirdi. O, bu müşavirədə bir sıra təkliflər söylədi və Ə.Qurbanov yoldaşa (o zaman Qutqaşen, indiki Qəbələ rayonunun partiya komitəsinin 1-ci katibi), Bərpa-konservasiya idarəsinin rəhbərlərinə konkret olaraq aşağıdakıları bildirdi: a) Şəhərin cənub qala divarlarının və bəzi başqa sahələrinin bərpa və konservasiya işlərinə başlanılsın; b) "Qəbələ tarix muzeyi" üçün bina tikilsin; v) Abidəyə turist baxış düşərgəsi şəhərin cənub darvazası tərəfdə yaradılsın, turist maşınlarının yerləşdirilməsi təmin edilsin; q) Turistlər üçün düşərgə binası tikilsin, düşərgədə bufet-pavilyon yaradılsın; e) Düşərgənin yolu əsas yolla birləşdirilsin; e) Düşərgəyə yaxın yerdə 200 nəfərlik teatr binası tikilsin. Vaxtaşırı həmin binada Qəbələni təbliğ edən kinojurnallar və başqa tamaşalar təşkil edilsin". Rayon partiya rəhbəri və bərpa-konservasiya idarəsinin rəsmiləri bu tapşırıqları qısa müddətə gerçəkləşdirməyi vəd etdilər. Həmçinin, Həsən Həsənov təklif etdi ki, muzey binası qala divarlarından içəridə tikilsin.

Həsən müəllim ölkəmizin görkəmli ictimai, siyasi xadimi olmaqla yanaşı, eyni zamanda, elm adamıdır. Onun N.Nərimanov haqqında yazdığı dissertasiya işinin müzakirəsində iştirakım zamanı Həsən müəllimin çıxışı, opponentlərə verdiyi məntiqli, savadlı cavabları məni onun yaradıcılıq qabiliyyətinə, tədqiqat prinsipinə heyran etdi. Altmış yaşı ərəfəsində Həsən Həsənovun özü də bilavasitə tarix elmi ilə məşğul olmağa başlayır və tarix elmləri doktoru elmi dərəcinə layiq görülür. O, artıq bir sıra ciddi monoqrafiyaların müəllifidir. Onlardan "Bakı Qız Qalası", "Bakı Tanrıçılıq kompleksi", "Makedoniyalı İsgəndər və Atropat", "Nəriman Nərimanovun milli-dövlətçilik baxışları və fəaliyyəti", "Birinci Respublikaya gedən yolda" və başqaları. Onun əsərləri Rusiya, İtaliya, İspaniya, Gürcüstan, Fransa, Qazaxıstan, Bolqarıstan, Polşa, Macarıstan, Almaniya və Ukraynada nəşr olunur.

Həsən müəllim barədə milli arxeologiyamızın bugünkü görkəmli nümayəndələri də öz xatirələrini həvəslə bildirmişlər. Onları oxucularımızın diqqətinə çatdırmaq istərdik.

Hidayət Cəfərov, tarix elmləri doktoru, professor:

"Həmin illərdə Həsən Həsənovun arxeologiya elminə olan diqqətini iki faktla bir daha əyani göstərmək olar. İlk növbədə hal-hazırda Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun İçərişəhərdəki "Elmi ekspozisiya" sərgi-muzeyi ilə bağlı məsələni qeyd etmək istərdim.

Həsən Həsənovun arxeologiyaya bu qədər diqqətinin mövcudluğunda Arif Abbasovla olan dostluq münasibətləri də müəyyən rol oynamışdır. Arif müəllim o vaxt AMEA Tarix İnstitutunda Arxeologiya və Etnoqrafiya üzrə direktor müavini vəzifəsində işləyirdi. Arif müəllim mənim də daxil olduğum kiçik qeyri-formal bir qrup yaratmışdı. Bu qrup arxeoloji tədqiqatların yeni müstəvidə inkişaf etdirilməsi üçün müxtəlif təkliflər paketi hazılamışdı. Buraya bir çox məsələlər daxil idi. O cümlədən, arxeoloji ekspedisiyaların maddi təminatı, çöl tədqiqatlarının səmərəliliyini artırmaq üçün bazaların tikilməsi, nəqliyyat vasitələrindən istifadədə qayda yaradılması, arxeoloji materialların kameral işlənilməsi, mühafizəsi üçün xüsusi binanın ayrılması, artefaktların elmi ekspozisiyalarda saxlanılması və nümayişi, habelə bir çox bu qəbildən olan digər məsələlər. Lakin bütün bunların reallaşdırılması üçün müvafiq dövlət qurumlarının hərtərəfli dəstəyinə ehtiyac var idi. Məhz bu işlərin bir çoxunun həyata keçirilməsində Azərbaycan KP MK katibi Həsən Həsənovun əvəzsiz rolu oldu.

İçərişəhərdəki indi bir hissəsi Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun balansında olan, tarixi və memarlıq abidəsi - "Zəncirli ev" adı ilə tanınan yaraşıqlı binanın İnstituta verilməsi üçün Arif müəllim bütün imkanlarını səfərbər etmişdi. Binada əsaslı təmir işləri gedirdi. Lakin təmir qurtaran kimi orada xalçaçılıq üzrə beynəlxalq konqres üçün Azərbaycan xalçalarının sərgisi təşkil olundu. Əsl

mübarizə də bundan sonra başlandı. Məlum oldu ki, həmin binada gözü olanların sayı daha çoxdur. Bax belə şəraitdə Arif Abbasovun qətiyyəti, barışmazlığı, təşkilatçılıq qabiliyyətinin yeni tərəfləri özünü göstərdi. O, bütün imkanı daxilində olan potensialını işə saldı. Başlıcası isə, MK katibi Həsən müəllimin şəxsində əsl elm fədaisinin, elmin himayəçisinin dəstəyinə nail oldu.

1981-ci ilin yazı idi. Arif müəllim MK katibi ilə arxeoloqların görüşünün təşkilinə nail oldu. Mənim də daxil olduğum və Arif müəllim başda olmaqla bir qrup arxeoloqu Həsən Həsənov qəbul etdi. Çox səmimi və açıq diskussiya şəraitində keçən görüşdə Həsən müəllim söz istəyən hər kəsə öz mülahizələrini söyləməyə şərait yaratdı. Arxeoloqları narahat edən, ümumi işə xeyir verəcək bütün problemlər araşdırıldı. "Zəncirli ev"də arxeoloji sərginin yaradılması təklifində Həsən müəllim məsələni qəti qoydu: arxeoloqlara sübut etsin ki, Tarix müzeyi ilə eyni funksiyanı icra etməyəcəklər. Fərqli olmalıdır. Bu fərqi arxeoloqlar necə görür? Nələri icra etmək lazımdır? Arxeoloqlar çıxışlarında vurğuladılar ki, muzey statik fəaliyyətdə olan Tarix Muzeyindən fərqli olaraq, dinamik fəaliyyət göstərəcək, hər ilin arxeoloji artefaktlarının sərgisi təşkil olunacaq, ictimaiyyət ən yeni nailiyyətlərlə tanış olacaqlar. Bundan başqa, ikinci mərtəbədəki geniş zalda mütəmadi elmi konfranslar, disputlar, seminarlar, tələbələrlə, ictimaiyyətlə görüşlər keçiriləcək və s. Həsən müəllim səbrlə arxeoloqları dinlədi və tapşırıq verdi: təkliflər MK - ya yazılı müraciət kimi tərtib edilməlidir.

Arxeoloqlar MK-nın binasından yeni enerji ilə, xoş əhval-ruhiyyə, bir razılıq və rahatlıq hissləri ilə ayrıldılar. Sonrası arxeoloqlara yaxşı məlumdur. Bina bütünlüklə Tarix İnstitutunun arxeoloji bölümünün balansına verildi. Bəri başdan deyim ki, bu görüşdən sonra arxeoloji tədqiqatların gedişində keyfiyyətcə yeni mərhələ başlandı.

Təəssüflər olsun ki, zaman keçdikcə həmin yeniliklərin bir çoxu aradan çıxdı. Həsən müəllim başqa işə keçirildi. Arif müəllim dünyasını dəyişdi… İndi həmin "Zəncirli ev"in yalnız birinci mərtəbəsində İnstitutun "Elmi ekspozisiya" şöbəsi fəaliyyətini davam etdirir.

Mən hər dəfə həmin binanı ziyarət edəndə həmişə hörmətli Həsən müəllimin qətiyyətini, elmi araşdırmalara, xüsusilə arxeologiyaya və arxeoloqlara qayğısını xatırlayır, ehtiramımı bildirirəm. Mən hörmətli dövlət xadimi, diplomat və alimin çoxşaxəli fəaliyyətinin yalniz bir nümunəsini xatırlatdım. Onun çoxillik və çoxşaxəli həyat yolunda Azərbaycan xalqını dünya miqyasında tanıtdırmaq istiqamətində fəaiyyətini saymaqla qurtaran deyil. Onun bu sahədəki fəaliyyəti mənə 1960-cı illərdə Nazim Hacıyevi və Şıxəli Qurbanovu xatıladırdı..."

Əsədulla Cəfərov, tarix elmləri doktoru, professor:

"Elmlər akademiyasında işlədiyim 55 il ərzində respublikanın rəhbər işçiləri ilə təmasda olmuş, onların söhbətlərini dinləmişəm. Onların arasında arxeologiyaya, tarixə, musiqiyə, incəsənətə və ümumiyyətlə ölkənin quruculuq işlərinə müstəsna əhəmiyyət verən Həsən Əziz oğlu Həsənovun fəaliyyəti məni heyran etmişdir.

Yaxşı yadımdadır, 1981-ci il mayın axırlarında Azərbaycan KP MK binasının 6-cı mərtəbəsində MK katibi Həsən Həsənov bir qrup tarixçiləri, arxeoloqları və etnoqrafları öz qəbul otağına dəvət etmişdi. Həmin görüşdə mən də iştirak edirdim. Orada Azərbaycan tarixinin, arxeologiyasının və etnoqrafiyasının problemləri geniş surətdə müzakirə olundu. O cümlədən, uzun müddət idi ki, Tarix institutunda təşkil olunmuş arxeoloji ekspedisiyalarda çöl şəraitində fəhləyə ayda 60 manat (sovet pulu ilə) verilirdi. Həsən müəllim bunu eşidəndən sonra heyrətə gəldi və respublikanın maliyyə naziri ilə əlaqə saxlayaraq həmin məbləğin 5 dəfə artırılması haqqında qərar qəbul etdirdi və 1981-ci il iyulun 1-də çöl şəraitində arxeoloji ekspedisiyanın tərkibində çalışan fəhlələrin gündəlik əmək haqqı 15 manat müəyyən olundu.

Sonra isə Azərbaycanın tarixi, memarlıq və arxeoloji abidələrinin tədqiqini və təbliğini yaxşılaşdırmaq məqsədilə həmin görüşdə qaldırılmış məsələlər və təkliflər haqqında Həsən Həsənov görkəmli dövlət xadimi, Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevə məruzə etdi. Nəticədə, Heydər Əliyevin tapşırığı əsasında Azərbaycan Respublikasının ərazisində tarix, arxeologiya və memarlıq abidələrinin tədqiqi və təbliğ olunması işinin daha da yaxşılaşdırılmassı məqsədilə 1981-ci ilin sentyabrında Azərbaycan KP MK və respublika Nazirlər Sovetinin qərarı qəbul olundu. Məhz həmin qərara uyğun olaraq Azərbaycanın paleolit, mezolit, neolit, eneolit, tunc, dəmir, antik və orta əsr arxeologiyasına aid

100-ə yaxın kitabça çap olunaraq, həm ölkə daxilində və həm də xarici mütəxəssislərə göndərildi. Eyni zamanda, 1981-ci ildə 4 dildə: Azərbaycan, rus, ingilis, fransız dillərində "Azıx mağarası" adlı kitabça nəşr olunaraq, elmi ictimaiyyətə çatdırıldı. Həmin vaxtdan etibarən mən Həsən Həsənovun fəaliyyətini izləməyə başladım və gördüm ki, onun harada çalışmasından asılı olmayaraq, işlədiyi sahədə elmi əsaslara söykənmiş yeniliklər yaradır, quruculuq işləri ilə məşğul olur.

Qarabağda çalışdığım uzun illər ərzində maraqlı hadisələr və dünyanın müxtəlif ölkələrindən gələn alimlər, tələbələr və turistlər Azıx və Tağlar düşərgələrində aparılan arxeoloji qazıntılara baxaraq, özlərinin heyranlığını bildirirdilər. Qeyd etmək lazımdır ki, Qarabağda işlədiyim uzun illər ərzində bir mühüm tarixi hadisə mənim yadımdan heç vaxt çıxmayacaqdır. 1981-ci il iyulun 17-də axşam məni təcili olaraq Füzuli Rayon Partiya Komitəsinə dəvət etdilər.

Orada məni rayonun birinci katibi Əhməd Əhmədzadə və Azərbaycan KP MK katibi Həsən Həsənov qarşıladılar. H.Həsənov mənə bildirdi ki, "eşitmişəm siz burada Məmmədəli Hüseynovla birlikdə Azıxda arxeoloji qazıntı işləri aparırsınız. Mən sabah sizinlə birlikdə Azıx paleolit düşərgəsinə gəlmək istəyirəm". Mən ona bildirdim: "sizin bu fikriniz mən və Məmmədəli müəllim üçün olduqca sevindirici bir xəbərdir. Sizin Azıx düşərgəsinə gəlməyiniz bizim üçün ən böyük şərəf olar". Mən Həsən müəllimə bildirdim ki, ekspedisiyanın rəisi Məmmədəli müəllim Horadiz şəhərində səfərdədir, o gələn kimi mən sizin xahişinizi ona yetirər və sabah saat 8:00 da Azıx düşərgəsinə gedərik. 1981-ci il iyulun 18-də paleolit arxeoloji ekspedisiyasının üzvləri və Həsən Həsənov Azıx düşərgəsinə gedib orada aparılan arxeoloji qazıntılar, mədəni təbəqələr və tapılmış maddi mədəniyyət qalıqları haqqında Həsən müəllimə Məmmədəli müəllimlə birlikdə geniş məlumat verdik. Qeyd etmək lazımdır ki, Həsən müəllimin bu fəaliyyəti ekspedisiya üzvlərinə böyük ruh verdi və arxeoloji tədqiqat işlərini daha səmərəli aparmağa zəmin yaratdı. Həsən Həsənov Azıx paleolit düşərgəsində gördüyü təəssüratları Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevə məruzə edərək, aparılan qazıntı işlərinə yüksək qiymət verdi. Məhz bunun nəticəsi olaraq,Heydər Əliyevin tapşırığı əsasında Azıx düşərgəsinə həsr olunmuş 4 dildə kitabça çap olunaraq, dünyanın müxtəlif ölkələrinə yayıldı.

Bir faktı da yada salmaq yerinə düşər ki, 1983-cü ilin əvvəllərində məni akademiyanın Rəyasət Heyətinə akademik Cəmil Quliyev və elmi katib Hacı müəllim dəvət edərək bildirdilər ki, dünən biz MK katibi Həsən Həsənovun qəbulunda idik. Onun yanında akademiyanın 1983-cü il üçün hazır əsərlərinin çap olunmasını müzakirə edirdik. Həsən müəllim orada çap olunması nəzərdə tutulmuş 100-dən artıq əsərin adlarını oxuduqdan sonra birinci olaraq sənin "Azərbaycanın mustye mədəniyyəti (Tağlar mağarasının materialları əsasında)" adlı monoqrafiyan üzərində dayanaraq qeyd etdi ki, bu əsər ilk çap olunmalıdır. Mən çox sevinərək, akademik Cəmil müəllimdən xahiş etdim ki, mənim minnətdarlıq hissimi tezliklə Həsən müəllimə çatdırsın. Çünki o zaman Akademiya işçilərinin yüzlərlə əsərləri çap olunmaq üçün növbə gözləyirdi. Belə xatirələr çoxdur...

Həsən müəllimin yaşı 80-i keçməsinə baxmayaraq, bu gün də Azərbaycan tarixi və digər sahələrin tədqiqi və təbliği ilə məşğul olur. İnanıram ki, bu müdrik yaşında Həsən Əziz oğlu Həsənov özünün keçdiyi mənalı həyat yolu haqqında bir kitab yazaraq bizi sevindirəcək və tarixə, elmə, mədəniyyətimizə, incəsənətimizə, folklorumuza vurğun olmasının səbəblərini oxuculara çatdıracaq..."

Həmkarlarımın da xatirələrini təqdim edəndən sonra sonda yalnız onu deyə bilərəm ki, Azərbaycan dövlətçiliyi Həsən Həsənov kimi vətənpərvər və tərəqqipərvər ziyalıların, dövlət xadimlərinin hesabına yaşamaqdadır və bundan sonra da yaşayacaqdır.

P.S. *Məqalənin yazılmasında göstərdiyi köməyə görə AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun elmi işçisi, tarix üzrə fəlsəfə doktoru, arxeoloq Pərviz Qasımova minnətdarlığımı bildirirəm.*

Qüdrət İsmayılzadə

Tarix elmləri doktoru, professor,əməkdar müəllim,
Xəzər Universitetinin "Azərbaycan arxeologiyası" jurnalının baş redaktoru

PROFESSOR, AKADEMİK HAMLET İSAXANLI TƏHSİL NAZİRİ EMİN ƏMRULLAYEVLƏ GÖRÜŞDÜ

PROFESSOR, ACADEMICIAN HAMLET ISAKHANLI MET WITH MINISTER OF EDUCATION EMIN AMRULLAYEV

Yanvarın 17-də Xəzər Universiteinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor, akademik Hamlet İsaxanlı Azərbaycan Respublikasının təhsil naziri Emin Əmrullayevlə görüşdü.

Görüşdə Azərbaycan təhsil sistemində baş verən yeniliklər və islahat proqramı ətrafında geniş müzakirə aparıldı.

Nazir tələbə kreditlərinin tətbiqi, ali təhsilin əlçatanlığının artırılması yolları, ali məktəblərdə idman fəaliyyətinin, xüsusi halda ali məktəb basketbol liqasının təşkili məsələləri barədə yeniliklərdən danışdı, fikir mübadiləsi aparıldı.

Xəzər Universitetində yeni ixtisaslar üzrə tələbə qəbulu, Xəzər Universiteti Gəncə filialının yaradılması məsələləri müzakirə olundu.

Xəzər Universiteti Buzovna Kampusunun yaradılması məsələsi üzərində xüsusi dayanıldı.

Müzakirə olunan məsələlərin diqqət mərkəzində saxlanılmasının vacibliyi qeyd olundu.

On January 17, the founder of Khazar University, Chairman of the Board of Directors and Trustees, Professor, Academician Hamlet Isakhanli, met with the Minister of Education of the Republic of Azerbaijan, Emin Amrullayev.

The meeting focused on innovations and the reform program in the education system of Azerbaijan.

The Minister spoke about the application of student loans, ways to increase access to higher education, sports activities in universities, in particular, the organization of the university basketball league, and they exchanged views.

Admission of students to new specialties at Khazar University and the establishment of the Ganja branch of Khazar University were discussed.

The issue of establishing the Buzovna Campus at Khazar University was highlighted.

It was noted that it was important to keep the issues under discussion in focus.

20 YANVAR HADİSƏLƏRİ İLƏ BAĞLI KONFRANS

CONFERENCE ON THE EVENTS OF JANUARY 20

Yanvarın 18-də Xəzər UniversitetiTarix və arxeologiya departamentinin təşkil etdiyi "20 Yanvardan Qarabağ Zəfərinə Azərbaycan Milli Mübarizəsi" adlı konfrans Sovetlər İttifaqının dağılması prosesində Azərbaycan xalqının apardığı milli mübarizəyə, ölkənin ərazi bütövlüyü yolunda aparılan çətin prosesə həsr edilmişdir. Konfransda universitetin rəhbərliyi, departamentin müəllimləri və tələbələri iştirak etmişlər.

20 Yanvar şəhidlərinin xatirəsi anıldıqdan sonra universitetin rektoru dosent İradə Xəlilova, Tarix və arxeologiya departamentinin müdiri dosent Telman Nüsrətoğlu, İştimai əlagələr və mediya üzrə direktor Əlövsət Əmirbəyli və konfransda iştirak edən müəllimlər o dövr Dağlıq Qarabağda alovlandırılan erməni separatizmi, Azərbaycan türklərinin Ermənistandakı dədə-baba yurdlarından qovulma prosesi, sovet rejiminin Azərbaycan xalqının milli azadlıq mübarizəsini silah gücü ilə yatırtmaq üçün hərbi müdaxiləyəsi ilə bağlı ətraflı məlumat vermişlər.

On January 18, a conference organized by Khazar University's Department of History and Archeology, entitled "Azerbaijan's National Struggle for the Victory of Karabakh on January 20," was dedicated to the national struggle of the Azerbaijani people during the collapse of the Soviet Union. The conference was attended by university administration, faculty members and students of the department.

After commemorating the martyrs of January 20, the rector of the university Irada Khalilova, the head of the department of history and archeology Telman Nusratoglu, the director of public relations and media Alovsat Amirbeyli and the teachers participating in the conference gave detailed information about the Armenian separatism that was ignited in Nagorno-Karabakh at that time, the process of expulsion of Azerbaijani Turks from their ancestral lands in Armenia, the military intervention of the soviet regime to suppress the national liberation struggle of the Azerbaijani people.

PROFESSOR, AKADEMİK HAMLET İSAXANLININ *AZEDU.AZ* XƏBƏR PORTALINA MÜSAHİBƏSİ

INTERVIEW OF PROFESSOR, ACADEMICIAN HAMLET ISAKHANLI TO *AZEDU.AZ* NEWS PORTAL

Yanvarın 6-da Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor, akademik Hamlet İsaxanlı *azedu.az* xəbər portalının “son zamanlar valideynlərin övladları üçün məktəb seçimində yaşadığı əraziyə uyğunluğu deyil, daha çox keyfiyyəti əsas götürərək, uzaq təhsil müəssisələrini seçdiyi müşahidə edilir” sorğusuna (müəllif Şükufə Süleymanlı) münasibətini bildirərək, qısa müsahibə vermişdir:

“Valideynlərin övladlarını yaşadığı ərazidən kənardakı təhsil müəssisələrinə aparmasının əsas səbəblərindən biri də dövlət məktəblərində təhsilin zəif inkişaf etməsi ilə bağlıdır. Belə ki, bu səbəbdən də özəl məktəblər fəaliyyətə başlayır. Onların verdiyi təhsil dövlət məktəblərinə nisbətən daha keyfiyyətli olur. Əvvəlki dövrlərdə valideynlərin çoxu övladını yaşadığı ərazinin yaxınlığındakı məktəbə aparırdı, lakin zaman keçdikcə məktəblərarası rəqabət və təhsilin keyfiyyəti məsələsi ön plana keçdi. Buna görə də, valideynlərin bir qismi özəl və keyfiyyətli təhsil verən məktəbləri seçir. Ona görə də, bütün təhsil müəssisələrində təhsilin keyfiyyəti eyni şəkildə artırılmalı və heç bir təhsil müəssisəsi digərindən geri qalmamalıdır. Lakin özəl sektorun sahib olduğu maddi-texniki baza daha əlverişli və keyfiyyətlidir”.

On January 6, the founder of Khazar University, Chairman of the Board of Directors and Trustees, Professor, Academician Hamlet Isakhanli, gave a short interview commenting on the survey of the news portal *azedu.az* “Recently, it is observed that parents’ choice of school for their children is based on the quality rather than their proximity to the area they live” (author Shukufa Suleymanli)

“One of the main reasons for parents to take their children to educational institutions outside their area of residence is the poor development of education in public schools. That is why private schools are starting to operate. Their education is of better quality than public schools. In the past, most parents took their children to a school near where they lived, but over time, inter-school competition and the quality of education came to the fore. Therefore, some parents choose private and quality schools. Therefore, the quality of education in all educational institutions should be improved in the same way, and no educational institution should lag behind the other. However, the material and technical base belonging to the private sector is more advantageous and of better quality.”

https://azedu.az/az/news/51584-hazirda-dovlet-mekteblerinin-bezilerinde-tehsil-zeif-inkisaf-edir-hamlet-isaxanli

PROFESSOR, AKADEMİK HAMLET İSAXANLI *İCTİMAİ TV*-NİN “SABAHINIZ XEYİR” PROQRAMINDA

PROFESSOR, ACADEMICIAN HAMLET ISAKHANLI IN THE PROGRAM “SABAHINIZ XEYIR” ON *İCTİMAİ TV*

2022-ci il yanvarın 24-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor, akademik Hamlet İsaxanlı *İctimai TV*-nin “Sabahınız xeyir” proqramında, canlı verilişdə iştirak etdi. O, Beynəlxalq Təhsil Günü və vacib təhsil məsələləri barədə söhbət etdi, suallara cavab verdi.

On January 24, 2022, Professor Hamlet Isakhanli, Founder of Khazar University and Chairman of the Board of Directors and Trustees, participated in a live broadcast of *İctimai* TV’s (Public TV) program “Sabhınız xeyir” “Good Morning.” He talked about the International Education Day and important educational issues and questions.

"XƏZƏR XƏBƏR"İN AMEA NİZAMİ ADINA ƏDƏBİYYAT İNSTİTUTUNDA BÜROSU

GƏNCƏDƏ "YAŞAYAN NİZAMİ GƏNCƏVİ" KONFRANSI

AMEA Rəyasət Heyəti, Gəncə Şəhər İcra Hakimiyyəti, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu və AMEA-nın Gəncə Bölməsinin birgə təşkilatçılığı ilə dahi şairin dünyaya göz açdığı qədim Gəncə şəhərində "Yaşayan Nizami Gəncəvi" adlı elmi-praktik konfrans keçirilib. Konfrans iştirakçıları əvvəlcə Ulu öndər Heydər Əliyevin Gəncənin mərkəzi meydanındakı abidəsini ziyarət ediblər.

AMEA-nın Gəncə Bölməsində keçirilən konfransda öncə "Nizami Gəncəvi – 880" sərgisi ilə tanış olublar. Sərgidə Nizami Gəncəvinin müxtəlif dünya ölkələrinin kitabxana və muzeylərində saxlanılan əlyazmalarının və əsərlərinə çəkilmiş miniatürlərin surətləri, "Nizami Gəncəvi İli" çərçivəsində Bölmə əməkdaşlarının çap olunan kitabları və monoqrafiyaları nümayiş etdirilmişdir.

Konfransı giriş sözü ilə açan akademik Fuad Əliyev tədbir iştirakçılarını salamlayaraq dahi şairə həsr olunmuş tədbirin əhəmiyyətindən danışıb.

AMEA-nın vitse-prezidenti, Ədəbiyyat İnstitutunun baş direktoru, akademik İsa Həbibbəyli il boyu böyük Azərbaycan şairi Nizami Gəncəvi irsinin araşdırılması, tədqiqi, nəşri və bir çox dünya dillərinə tərcümə olunmasından danışmışdır. Gəncə Şəhər İcra Hakimiyyəti başçısının birinci müavini Səməd Tomuyev Nizami yurdunun belə mötəbər tədbirə ev sahibliyi etməyinin əhəmiyyətindən və nizamişünaslığın növbəti mərhələsinə önəmli töhfə verəcəyindən danışıb. AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun baş direktoru, akademik Teymur Kərimli Nizami Gəncəvinin dünya ədəbiyyatına bəxş etdiyi töhfələrdən söz açıb.

Tədbirdə qardaş Türkiyəni təmsil edən və Türkiyədə böyük Azərbaycan şairinin irsinin təbliği sahəsində xüsusi xidmətləri olan Avrasiya Yazarlar Birliyinin sədri Yaqub Ömeroğlu çıxış edərək, Nizami Gəncəvinin, Əhməd Cavadın doğma vətənində olmaqdan bəxtiyarlıq duyduğunu, onların yaradıcılığının Türkiyədə də Azərbaycanda sevildiyi qədər sevildiyini bildirib. Qonaq, qəhrəman Gəncə şəhərinin 44 günlük müharibədən sonra həm də qazi şəhər olduğunu söyləyib.

Konfransda Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun və AMEA Gəncə bölməsinin əməkdaşları müxtəlif mövzularda məruzə etmişlər.

Akademik İsa Həbibbəyli "Nizami Gəncəvi İli" çərçivəsində AMEA-da çap olunan müxtəlif nəşrləri, o cümlədən müəllifliyi ilə 10 dildə nəşr edilən "Böyük Azərbaycan şairi Nizami Gəncəvi" haqqında tanıtma kitabını, TÜRKSOY-un hazırladığı "Nizamini oxuyaq" albom-kitabı Gəncə Bölməsinə hədiyyə edib. Akademik həmçinin Əlyazmalar İnstitutunun əməkdaşı Seyfəddin Məmmədquluyevin Nizami Gəncəvinin taxta üzərində oyma-xətlə yazdığı kəlamını da həm İcra Hakimiyyətinin rəhbərliyinə, həm də AMEA-nın Gəncə Bölməsinə təqdim edib.

Avrasiya Yazarlar Birliyinin sədri Yaqub Ömeroğlu Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu ilə birgə hazırladıqları "Qardaş qələmlər" dərgisinin Nizami Gəncəviyə həsr olunmuş xüsusi buraxılışını və rəhbərlik etdiyi "Bengü" nəşrlər evinin digər nəşrlərini hədiyyə edib.



Daha sonra konfrans iştirakçıları ikinci Qarabağ savaşı zamanı Ermənistan Silahlı Qüvvələrinin atdığı bomba nəticəsində dağılmış ərazidə, Qələbə parkında olub, şəhidlərimizi yad ediblər. Nizami Gəncəvi məqbərəsi, həmçinin şairin atası Yusif, anası Rəisənin məqbərənin yaxınlığında yerləşən qəbirləri də qonaqlar tərəfindən ziyarət edilib.

Nizami Gəncəvi Muzeyində olan qonaqlar muzeyin zəngin eksponatları ilə tanış olub, xatirə dəftərinə ürək sözlərini yazıblar. Qeyd edək ki, muzeydə davam edən tədbirdə tanınmış nizamişünas alim Xəlil Yusifli də iştirak etmiş, o şairin orada saxlanılan əlyazma nüsxələri haqqında maraqlı fikirlərini bölüşmüşdür. Ədəbiyyat İnstitutunun nəşrləri və əməkdaşların kitabları muzeyə hədiyyə edilib.





"TÜRK ƏDƏBİYYATI VƏQFİ VƏ AZƏRBAYCAN" MÖVZUSUNDA ELMİ SESSİYA

AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda "Türk Ədəbiyyatı Vəqfi və Azərbaycan" mövzusunda elmi sessiya keçirilib. Tədbirdə Türkiyədən Türk Ədəbiyyatı Vəqfinin rəhbəri Sərhat Kabaklı, "Türk ədəbiyyatı" dərgisinin baş redaktoru İmdat Avşar və başqa ziyalılar iştirak ediblər.

Tədbiri AMEA-nın vitse-prezidenti, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun baş direktoru, akademik İsa Həbibbəyli açıb. O bildirib ki, "Türkiyə bizim qardaş cümhuriyyətimizdir. Hər sahədə olduğu kimi, ədəbiyyat-elm cəhbəsində də Azərbaycanın Türkiyə ilə geniş əlaqələri var. Bu əlaqələr daha da genişlənməlidir. Bunların içərisində Türk Ədəbiyyatı Vəqfi də qədimlərdən Azərbaycanla əlaqə saxlayan, iş quran ilk böyük təşkilatlardan biridir.

"Türk ədəbiyyatı" dərgisi 1972-ci ildən çıxır. 1978-ci ildən də "Türk ədəbiyyatı" dərgisinin əsasında Türk Ədəbiyyatı Vəqfi qurulub. Bu qurumu təsis edən professor Əhməd Kabaklı olub. Türk ədəbiyyatı dərgisinin son otuz ilinə baxsan hər nömrəsində Azərbaycan var, son illərdə lap çoxalır. Minnətdarlığımı bildirmək istəyirəm ki, dərginin bir sayını da Nizami Gəncəviyə həsr etmisiniz. Nizaminin türk oğlu türk olduğunu dünyaya çatdırmalıyıq. Sərhat Kabaklı, İmdat Avşar və Bəxtiyar Aslanın bu sevdanın içində olduqlarını görürük və yüksək qiymətləndiririk. Bizim İnstitutun dörd dərgisi var, hamısında Türkiyəyə yer ayrılır".




Sonra Türk Ədəbiyyatı Vəqfinin rəhbəri Sərhat Kabaklı "Türk ədəbiyyatı" heyəti adından çıxış edib: "Bizim uşaqlığımızdan Türk dünyası Azərbaycan idi. Biz Azərbaycanın dərdi ilə ilk uşaq şeirlərimizi yazdıq. Azərbaycana ilk gəlişimdə torpağı öpmüşdüm. Türklüyün, türk ədəbiyyatının mərkəzi Azərbaycan – Bakıdır. Mən İsa müəllimə həm böyük sayğı, həm böyük heyranlıq duyuram. İsa müəllim türk dünyasının mədəniyyət birliyi üçün böyük işlər görür. Azərbaycanı türk mədəniyyətinin mərkəzi kimi görməyimizdə İsa müəllimin çox böyük payı vardır. O hər halı ilə türk dünyasına bir Dədə Qorqud olmuşdur".

"Türk ədəbiyyatı" dərgisinin baş redaktoru, yazıçı İmdat Avşar da çıxışında bildirib ki, "İsa müəllim Türk Ədəbiyyatı Vəqfinin tarixini çox gözəl anlatdı. Bu vəqfdə çox ciddi fikir adamları, siyasi insanlar birləşib. Dərgimiz həm ədəbiyyat, həm də digər sahələrin adamlarının çıxış etdiyi bir kürsüdür. Sonra hər iki qonağa Ədəbiyyat İnstitutunun "Fəxri dostu" diplomu təqdim edilib. Bəxtiyar Aslanın "İlin alimi" diplomu isə vəqfin rəhbərinə təqdim olunub. Qonaqlar təltif edildiklərinə görə minnətdarlığını bildiriblər.

Qonaqlar da akademik İsa Həbibbəyliyə "Yaşayan Dədə Qorqud" mükafatını təqdim ediblər. Eyni zamanda "Türk ədəbiyyatı" dərgisinin Nizami Gəncəviyə həsr olunmuş sayı və digər nəşrlər institut rəhbərliyinə hədiyyə olunub.

Sessiyada inistitutun əməkdaşları mövzuya uyğun məruzələrlə çıxış ediblər.

ƏDƏBİYYAT İNSTİTUTU YUNUS ƏMRƏNİN "DİVAN"INI ÇAP EDİB



Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu Yunus Əmrənin "Salam olsun" ("Divan") kitabını çap edib. Kitab 2021-ci il qardaş Türkiyədə YUNESKO-nun qərarı ilə "Yunus Əmrə ili" elan olunmasına töhfə olaraq nəşr edilib. "Divan" Ədəbiyyat İnstitutunun Elmi Şurasının 28 oktyabr 2021-ci il tarixli 7 saylı qərarı ilə işıq üzü görüb.

Nəşrin ideya müəllifi və "Yunus Əmrə dastanı" adlı ön sözünün müəllifi AMEA-nın vitse-prezidenti, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun baş direktoru, akademik İsa Həbibbəylidir. "Divan"da Əbdülbaqi Gölpınarlının "Yunusun yaşadığı çağ" (1971) və Mustafa Tatçının "Yunus Əmrə şeirinə sözbaşı" (2021) araşdırmaları da yer alıb. Kitabın tərtib edəni filologiya üzrə fəlsəfə doktoru, dosent Xuraman Hümmətovadır.

Ulu öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" ideyasına sadiq qalan AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun çap etdirdiyi kitab XIII əsr Türk şairi Yunus Əmrənin Türkiyədə müxtəlif illərdə çap olunmuş divan nəşrlərindən istifadə olunmaqla tərtib olunub. Burada şairin müxtəlif məzmunlu ilahiləri ilə yanaşı, əxlaqi-fəlsəfi, dini-tərbiyəvi baxışlarını əks etdirən öyüd-nəsihət əsəri "Risalətün-Nüshiyyə" didaktik məsnəvisi, Fatih Köksalın yeni tapdığı 17 şeiri və Vatikan nüsxəsinə aid iki şeiri də yer alıb. Kitabda geniş məzmunlu açıqlama və lüğətlər, şairin istifadə etdiyi tarixi mənbələr də əksini tapıb.

"Elm və təhsil" nəşriyyatında çap olunan kitab 572 səhifədir.

Gülnar Səma

Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu,
İctimaiyyətlə əlaqələr şöbəsi

FƏLSƏFƏ DOKTORU HAZIRLIĞI ÜZRƏ TƏHSİL ALAN DOKTORANTLARIN ATTESTASİYASI

ATTESTATION OF PHD STUDENTS PURSUING DEGREE OF DOCTOR OF PHILOSOPHY

2021-ci il dekabrın 23-24-də Xəzər Universitetinin Təbiət elmləri, sənət və texnologiya yüksək təhsil fakültəsi və İqtisadiyyat və biznes yüksək təhsil fakültəsinin fəlsəfə doktoru hazırlığı üzrə təhsil alan yerli və əcnəbi doktorant və dissertantlarının attestasiyası keçirilib.


Doktorant və dissertantlar universitet rektorunun 30 noyabr 2021-ci il tarixli S/4073 saylı əmri ilə yaradılmış Attestasiya Komissiyası qarşısında 2021-ci il ərzində yerinə yetirdikləri elmi-tədqiqat işləri haqqında hesabat veriblər. Onların fərdi iş planlarında nəzərdə tutulmuş işləri, konfrans və seminarlarda iştirakı, həmçinin il ərzində dərc edilmiş əsərləri barədə müzakirələr aparılıb. Attestasiya Komissiyasının qərarı ilə fərdi iş planlarında nəzərdə tutulan işləri tam yerinə yetirmiş doktorantların növbəti tədris ilində təhsillərini davam etdirməsi tövsiyə olunub.

On December 23-24, 2021, local and foreign doctoral students and dissertators studying at Khazar University's Graduate School of Sciences, Arts, and Technology, and the Graduate School of Economics and Business, were attested.

Doctoral students and dissertators reported to the Attestation Commission established by the order of the rector of the university No. S/4073 dated November 30, 2021 on the research work carried out in 2021.

Discussions were held on their work in individual work plans, participation in conferences and seminars, as well as their works published during the year.

By the decision of the Attestation Commission, it was recommended that doctoral students who have completed the work provided for in the individual work plans continue their education in the next academic year.



"EMDR VƏ BRAINSPOTTING" TERAPİYALARI MÖVZUSUNDA SEMİNAR

WORKSHOP ON EMDR AND BRAINSPOTTING THERAPIES

2021-ci il dekabrın 24-də Xəzər Universitetinin Psixologiya departamentinin müəllimi və doktorantı Nilufər Əlizadənin təşkilatçılığı ilə klinik psixoloq, psixoterapevt, İstanbul Fateh Universitetinin məzunu Sevinc İsmayılova "EMDR və Brainspotting" terapiyaları mövzusu ilə seminarda iştirak etmişdir.

Seminar zamanı hər iki terapiyanın praktiki tərəfləri ilə yanaşı, beynəlxalq jurnallarda dərc olunmuş məqalələr haqqında istinadlar verilmişdir. Tələbələr tərəfindən maraqla qarşılanan seminar sualların müzakirələri və gələcək təlim-tədris planları ilə yekunlaşdırılmışdır.

On December 24, 2021, Sevinj Ismayilova, the clinical psychologist, psychotherapist, and graduate of Istanbul Fateh University, participated in the seminar on "EMDR and Brainspotting Therapies" organized by Nilufar Alizadeh, the lecturer and doctoral student in the Department of Psychology at Khazar University.

During the seminar, along with the practical aspects of both therapies, references were given to articles published in international journals. The seminar, which was met with interest by students, ended with discussions of questions and future training plans.

DİLLƏR VƏ ƏDƏBİYYATLAR DEPARTAMENTİNİN DOKTORANTI FƏLSƏFƏ DOKTORU ELMİ DƏRƏCƏSİ ALMAQ ÜÇÜN DİSSERTASİYA MÜDAFİƏ ETDİ

DOCTORAL STUDENT OF LANGUAGES AND LITERATURE DEPARTMENT DEFENDS PHD DISSERTATION

2021-ci il dekabrın 24-də AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.05 Dissertasiya şurasının iclasında Xəzər Universitetinin Dillər və ədəbiyyatlar departamentinin müəllimi Qardaşxan Əzizxanlının "Azərbaycan poeziyasında vətəndaşlıq lirikası (Məmməd Araz, Söhrab Tahir, Məmməd İsmayıl yaradıcılığı əsasında)" mövzusunda yazdığı fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertasiya işinin müdafiəsi keçirildi.

AMEA Azərbaycan-Asiya əlaqələri şöbəsinin müdiri professor Bədirxan Əhmədov (elmi rəhbər) və opponentlər - professor İslam Qəribov, dosent, filologiya üzrə fəlsəfə doktoru Afina Məmmədli-Barmanbay, filologiya üzrə fəlsəfə doktoru Aida Mirzəyeva, filologiya elmləri doktoru Rəhim Əliyev tədqiqatın elmi - nəzəri səviyyəsinin yüksək olduğunu, müəllifin təhlillərinin xüsusi maraq doğurduğunu vurğulamışlar.

İclasda, həmçinin, Bakı Dövlət Universitetinin Azərbaycan ədəbiyyatı tarixi kafedrasının professorları - filologiya elmləri doktoru Vaqif Sultanlı və filologiya elmləri doktoru Sənan İbrahimovun, Azərbaycan Neft və Sənaye Universitetinin Humanitar elmlər kafedrasının professoru, filologiya elmləri doktoru Rüstəm Kamalın, Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ədəbiyyat kafedrasının professoru, filologiya elmləri doktoru Elman Quliyevin, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun XX əsr (sovet dövrü) Azərbaycan ədəbiyyatı şöbəsinin aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru, dosent Günay Qarayevanın, Bakı Slavyan Universitetinin Azərbaycan Multikulturalizmi və Ölkəşünaslıq kafedrasının dosenti, filologiya üzrə fəlsəfə doktoru İbrahim Quliyevin, Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ədəbiyyatın tədrisi texnologiyası kafedrasının müəllimi, filologiya üzrə fəlsəfə doktoru Ülkər Baxşıyevanın dissertasiya və avtoreferata verdikləri rəylərdə tədqiqat işində əldə edilən elmi nəticələrin təqdir olunduğu qeyd olunmuşdur.

Müdafiə prosesinin sonunda Şura üzlərinin yekdil rəyi ilə dissertasiya işini Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasına təqdim etmək qərara alındı.

On December 24, 2021, Gardashkhan Azizkhanli, the lecturer at Khazar University's Department of Languages and Literature, defended his dissertation entitled "Citizenship lyrics in Azerbaijani poetry (based on the works of Mammad Araz, Sohrab Tahir, Mammad Ismayil)" at the meeting of Dissertation Council No.ED 1.05 at the Institute of Literature named after Nizami Ganjavi of ANAS. Head of the Department of Azerbaijan-Asian Relations of ANAS Professor Badirkhan Ahmadov (supervisor) and opponents - Professor Islam Garibov, Associate Professor, Doctor of Philosophy in Philology Afina Mammadli-Barmanbay, Doctor of Philosophy in Philology Aida Mirzayeva, Doctor of Philology Rahim Aliyev emphasized that the scientific and theoretical level of the research is high, and the author's analysis is of particular interest.

At the meeting it was also noted that the scientific results obtained in the research were appreciated by Professors of the Department of History of Azerbaijan Literature of Baku State University - Doctor of Philology Vagif Sultanli and Doctor of Philology Sanan Ibrahimov, Professor of the Department of Humanities of the Azerbaijan University of Oil and Industry, Doctor of Philology Rustam Kamal, Professor of the Department of Literature of the Azerbaijan State Pedagogical University, Doctor of Philology Elman Guliyev , Leading researcher of the XX century (Soviet period) Azerbaijan literature department of the Institute of Literature named after Nizami Ganjavi of ANAS, doctor of philosophy in philology, associate professor Gunay Garayeva, associate professor of Azerbaijan Multiculturalism and Country Studies department of Baku Slavic University, doctor of philology Ibrahim Guliyev, Azerbaijan State Pedagogical University Teacher of the Department of Literature Teaching Technology, Doctor of Philosophy in Philology Ulker Bakhshiyeva in the opinions given to the dissertation and abstract.

At the end of the defense process, the members of the Council unanimously decided to submit the dissertation to the Supreme Attestation Commission under the President of the Republic of Azerbaijan.

DEPARTAMENT MÜDİRİ MİLLİ ADAPTASİYA PROQRAMI ÇƏRÇİVƏSİNDƏ TƏLİM KEÇİRMİŞDİR

DEPARTMENT HEAD CONDUCTED TRAINING WITHIN NATIONAL ADAPTATION PROGRAM

2021-ci il dekabrın 25-26-da Xəzər Universitetinin Coğrafiya və ətraf mühit departamentinin müdiri Rövşən Abbasov Şabran rayonunun Qalaaltı kəndində Milli Adaptasiya Proqramı çərçivəsində "İqlim, zəifliklər, risklər və boşluqlar" adlı təlim keçirmişdir.

Təlimdə müxtəlif nazirliklərin və elmi idarələrin əməkdaşları iştirak etmişlər. Qrup işlərinin də olduğu bu təlimdə təşkilat təmsilçiləri arasında maraqlı diskussiya da baş tutmuşdur. Təlim BMT İnkişaf proqramı tərəfindən təşkil edilmişdi.

On December 25-26, 2021, Rovshan Abbasov, Head of the Department of Geography and Environment at Khazar University, conducted a training on "Climate, Vulnerabilities, Risks, and Gaps" as part of the National Adaptation Program in Galaalti Village, Shabran District. The training was attended by employees of various ministries and scientific departments.

There was an interesting discussion among the representatives of the organization in this training, which also included group work. This training was organized by the UN Development Program.

"ƏLƏSGƏRƏM, YANDIM EŞQ ATƏŞİNDƏ" ADLI ƏDƏBİ-BƏDİİ GECƏ

"I'M ALASGAR, I'M BURNT IN THE FIRE OF LOVE" LITERARY-ARTISTIC EVENING

2021-ci il dekabrın 27-də Xəzər Universitetində Dillər və ədəbiyyatlar departamentinin təşkilatçılığı ilə "Ələsgərəm, yandım eşq atəşində" adlı ədəbi-bədii gecə keçirildi. Gecəni departamentin müəllimi Dr.Aynur Qəzənfərqızı açdı. Onun Aşıq Ələsgərin yaradıcılığı haqqında qısa məlumatından sonra Dövlət Mədəniyyət və İncəsənət Universitetinin baş müəllimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru Hafiz Kərimov aşıq məclislərinin "Baş divani" havası ilə başlanmasına dair çıxış etdi. Xəzər Universitetinin tələbələrinin ifasında səhnələşdirilmiş "Aşıq Ələsgər və Səhnəbanı" dastanı təqdim olundu.

Dədə Ələsgər İctimai Birliyinin sədri, Aşıq Ələsgərin nəticəsi Xətai Ələsgərli çıxış edərək, aşıq haqqında rəvayətlərdən danışdı və şeirlərini oxudu. O, birlik adından Aşıq Ələsgərin xatirə portretini Humanitar, təhsil və sosial elmlər fakültəsinin dekanı dosent Elza Səmədliyə təqdim etdi.

Tədbirdə AMEA Folklor İnstitutunun əməkdaşları, Mirvarid Dilbazi dərnəyinin nümayəndələri, şəhid Kərəm Mirzəyev adına Qubadlı rayonunun Xınalıq kəndindəki 1 saylı tam orta məktəbin müəllim və şagirdləri iştirak edirdilər.

On December 27, 2021, Khazar University hosted a literary-artistic evening organized by the Department of Languages and Literature entitled "I'm Alasgar, I'm Burnt in the Fire of Love." The event was opened by Dr. Aynur Gazanfargizi, the lecturer of the department. After her brief information about the work of Ashug Alasgar, Hafiz Karimov, the senior lecturer at the State University of Culture and Arts, Doctor of Philosophy in Art History, spoke about the opening of the ashug meetings with the melody "Grand Divan". The epos "Ashug Alasgar and Sahnabanu" staged by Khazar University students was presented.

Chairman of Dada Alasgar Public Union, Khatai Alasgarli, the great grandson of Ashug Alasgar, spoke about the legends about Ashug and recited his poems. On behalf of the union, he presented a memorial portrait of Ashig Alasgar to the dean of the School of Humanities, Education and Social Sciences, Associate Professor Elza Samedli.

Employees of the Institute of Folklore of ANAS, representatives of Mirvarid Dilbazi circle, teachers and students of secondary school No. 1 in Khinalig village of Gubadli region named after martyr Karam Mirzayev took part in the event.

CƏNUBİ FLORİDA UNİVERSİTETİNİN DOKTORANTI XƏZƏR UNİVERSİTETİNDƏ SEMİNAR-VORKSHOP KEÇİRİB

A DOCTORAL STUDENT AT SOUTH FLORIDA UNIVERSITY HELD A WORKSHOP AT KHAZAR UNIVERSITY



2021-ci il dekabrın 27-də Təbiət elmləri, sənət və texnologiya yüksək təhsil fakültəsinin və Təhsil departamentinin təşkilatçılığı ilə "Hekayə anlatma sənəti: hekayələrin öyrənmə bacarıqlarına təsiri" adlı seminar-vorkshop keçirilib.

Məruzəçi "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə xaricdə doktorantura təhsili" proqramı çərçivəsində Amerika Birləşmiş Ştatlarının Cənubi Florida Universitetində doktorantura təhsili alan Lalə Orucova idi.

Proqramın şərtlərinə əsasən xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində doktorantura təhsili almaq üçün müraciət edən namizədlər əvvəlcədən yerli ali təhsil müəssisələrindən biri ilə, təhsil müddəti bitdikdən sonra onunla əmək müqaviləsinin bağlanmasına dair, əməkdaşlıq müqaviləsi bağlamalı və razılıq məktubu almalıdır. Lalə Orucova Xəzər Universitetinin dəstəyi ilə proqrama müraciət edərək, müvvəffəqiyyət qazanmış doktorantlardan biridir.


Təşkil olunmuş seminar-vorkshop çox uğurlu olmuş, tələbələr həm nəzəri məlumatlarla tanış edilmiş, həm də kiçik həcmli hekayələr yazaraq, onların fəlsəfi və metodiki cəhətdən əsaslandırılması kimi təcrübi tapşırıqları yerinə yetirmiş, müzakirələrdə fəal iştirak etmişlər.

On December 27, 2021, Graduate School of Sciences, Arts and Technology and the Department of Education organized a workshop entitled "The art of storytelling: the impact of stories on learning skills."

The speaker was Lala Orujova, who is pursuing a doctoral degree at the University of South Florida in the United States under the program "Doctoral Education Abroad to Increase the International Competitiveness of the Higher Education System in the Republic of Azerbaijan for 2019-2023".

Under the terms of the program, candidates applying for doctoral education at prestigious foreign universities must first sign a cooperation agreement with one of the local universities on concluding an employment contract with this university upon the completion of his/her education and receive a letter of consent. Lala Orujova is one of the most successful doctoral students in the program supported by Khazar University.

During the seminar which was very successful and provided theoretical underpinnings, students wrote short stories, completed practical tasks on their philosophical and methodical foundations and actively participated in discussions.



SON GÖRÜŞ OLMAYAYDI...

Hamlet İsaxanlı

Əvvəli jurnalın 412-ci (dekabr 2021-ci il) nömrəsində

"Qoy bir qədər də öz istədikləri kimi yaşasınlar"

Ailə sözünə hər ikimiz geniş məna verirdik. Hələ sənin doğulduğun evdə anan və qardaşınla birgə yaşayarkən, yer darlığına baxmayaraq, mənim ali təhsil almağa gələn qardaşlarım da bizdə yaşadı. Sonralar da, qardaşlarım və hətta bəzi digər yaxın qohumlarım öz evimizdə və ya kirayədə olduğumuz evdə bizimlə yaşadılar. Sən bir dəfə də olsun çətinlik barədə söhbət açmadın, şikayət etmədin, əksinə, qardaşlarım və digər yaxınlarımın bizimlə bərabər yaşamasını çox təbii qəbul etdin, onların qayğısına qaldın, onlara ana, bacı, sirdaş oldun və qarşılığını layiqincə aldın. Onları sevdin, onlar da səni sevdilər. Mənim xəbərim olmadan onların problemlərini həll edir, ciblərinə xərclik qoyur, həyatlarını qurmağa kömək edirdin. Bəzən mən nəsə narazılıq bildirəndə (məsələn, "az oxuyurlar", "yaxşı oxumurlar",...), sən onları müdafiə edirdin: "Niyə elə düşünürsən ki, hamı alim olmalıdır?! Kömək edək, oxu deyək, amma, sıxışdırmayaq, qoy bir qədər də öz istədikləri kimi yaşasınlar". Onlar bir fikrə düşəndə, bir arzuları olanda birinci mənimlə deyil, sənlə məsləhətləşmişlər. Bunların çoxunu mən sonralar bildim. Bu məsələdə sənə bənzər ikinci insanla rastlaşmadım, sənə oxşar ailə xanımı olmaq, yəqin ki, çox az qadına nəsib olur...

"Bir az qəmlənmək və dəmlənmək üçün"

Evdə ən çox sevdiyimiz məşğələlərdən biri çalıb-oxumaq idi. Sən piano arxasına keçir, bir qədər çalır, sonra məndən soruşurdun: "nə çalım, nə istəyirsən?" Mənim sifarişlərim çox rəngarəng

olurdu, ağlıma gələn, yaddaşıma yazılan, ürəyimə yatan mahnıların adını çəkirdim. Get-gedə mahnı repertuarımızı sistemə saldıq. "bir az qəmləənmək üçün" adı ilə sevdiyimiz lirik, həzin mahnıları yada salır, çalıb-oxuyurduq. Sonra "Bir az dəmlənmək üçün" adı altında birləşdirdiyimiz oynaq, şən mahnı və oyun havalarına keçirdik. "Süleymani" oyun havasını sənin kimi gözəl, çoşqun tərzdə çalan görməmişəm.

Mən heç bir musiqi təhsili almamışdım, amma, geniş spektrdə Azərbaycan musiqisini də, klassik musiqini də sevmişəm. Musiqi tarixindən xəbərim vardı. Sənlə birləşəndən sonra isə musiqini, onun müxtəlif janrlarını, incəliklərini daha yaxşı başa düşməyə başladım. Köhnə Azərbaycan mahnılarını yaxşı bilirdim, sənlə birlikdə hansısa mahnını yada salmaq, zümzümə etmək, oxumaq mənə həzz verirdi. Lakin, klassik musiqidə, həmçinin, rus və qərb dünyası mahnı və romanslarını yada salmaqda sənin yanından yel olub keçə bilməzdim.

Mən mahnının melodiyasını düzgün oxumayanda bağışlamırdın, necə düzgün oxumaq lazım gəldiyini deyir, oxuyub təkrar edirdin. Bəzən mənə elə gəlirdi ki, xırdaçılıq edirsən, mən çoşmuşam, oxuyuram, sən isə ortada kəsib elə yox, belə lazımdır deyirsən. Amma, xeyri yoxdu, bu məsələdə qəti güzəştə getmirdin. Mən məcburən sənə tabe olur, dediyin kimi oxumağa çalışırdım. Amma, mən də az aşın duzu deyildim. Tək musiqini deyil, sözləri də təhrif və təftiş edirdim, tək-tək hallarda bilmədiyim üçün, amma, əsasən bilə-bilə.

Mən "Ay laçın" xalq mahnısının

Bir dəstə gül olaydım
Asılaydım yaxanan

beytini qəsdən təhrif edir və onu digər uydurma beytə yapışdırıb oxuyurdum:

Dağlara düşdü duman
Yoxmu dərdimə dərman?
Bir dəstə qız olaydı
Asılaydı yaxamnan.

Üstəlik, Fikrət Əmirov`un çox sevdiyimiz "Sevdiyim yardır mənim" romansını da bənzər ideya ilə təftiş edirdim:

Sevdiyim yardır mənim
Həsrətim vardır mənim
Bir dəstə qız olaydı
Evimizə dolaydı.

Yarım oynadı, güldü
Xumar gözlər süzüldü
Dedim hər yan qız olsun
Qızlar səf-səf düzüldü.

Sən, "aləmi qarışdırdın" deyə qəhqəhə çəkirdin. Və bu barədə dost-tanışlara gülə-gülə danışırdın: "Hamlet bu sözləri o qədər oxudu ki, bir dəstə qız səf-səf düzüldü, evimizə doldu və onun yaxasından asıldı".

"Get, işinlə məşğul ol"

Yaradıcı həyat keçirmək üçün ideal şərait yaratmışdın. Sən məni ev və məişətlə bağlı bir çox qayğılardan azad etmişdin. Mənə o qədər azadlıq, o qədər sərbəstlik vermişdin ki, bəzən mən mətbəxə gəlib "sənə kömək edimmi?" deyəndə, məni ciddi qəbul etmir, "get, işinlə məşğul ol, mənə mane olma" deyirdin. Bu yerdə kiçik bir hadisə yadıma düşdü. Adətən, xaricdən və ya Sovet

respublikalarından gələn alim və mütəxəssisləri evimizə dəvət edirdik, bəzi hallarda gec olduğuna görə onlar bizdə gecələyirdilər. Lomonosov Moskva Universitetindən gəlmiş tanınmış riyaziyyatçı professor Yevqeniy Alekseyeviç Qorin`lə riyaziyyat və riyazyyatətrafı, ədəbiyyat, tarix və musiqi kimi mövzularda xoş söhbətdən və sənin pianoda improvizasiyalarından və əlbəttə, yaxşı yemək-içməkdən sonra ona bizdə qal dedik və o, məmnuniyyətlə qaldı. Sən söhbət edə-edə boşqabları yumaq istədin. Qorin həmən yerindən sıçradı və "mən yuyacam" deyə səndən kənara çəkilməni xahiş etdi. Sən təəccüb içində etiraz etsən də, Qorin aman vermədi, yarı-zarafatla, yarı-ciddi şəkildə "пусть рука ангела остается чистой" ("qoy mələyin əli təmiz qalsın") dedi. Və söhbət edə-edə Qorin qabları yudu. Sabahı gün "niyə Qorinə qab yumağa imkan verdin?" sualıma "Qorin qab yumaq istəyini o qədər içdən, ürəkdən bildirdi ki, yox demək onun səmimi istəyinə qarşı çıxmaq kimi göründü mənə" deyə cavab verdin. "Bəs mən mətbəxdə sənə kömək etmək istəyəndə yox deyirsən" deyə ona baxanda cavabı belə oldu: "sənin içindən gəlmir o istək, sadəcə, birdən-birə yadına kömək etmək düşür, mən də deyirəm get sənə daha maraqlı görünən işlə məşğul ol".

Uşaq olasan, belə düşünəsən

Uşaqların düzgün tərbiyə və savad almasını valideyn kimi əsas vəzifə saydıq və bu vəzifəni tam ahəng içində, birlikdə daşıdıq. Onların xarakterini doğru, dürüst olmaq, yalan danışmamaq, bir-birinə qayğı ilə yanaşmaq, zəhmət çəkmək kimi keyfiyyətlər üzərində yoğurmağa çalışdıq. Düşünürəm ki, qızlarımızı ləyaqətli, insani dəyərlərə həssas və həyati bacarıqlara malik şəxslər kimi yetişdirə bildik. Sənə "anacan", mənə "atacan" dedilər. Qızlarımızın bilik və zövqlərini qidalandırmaq üçün məktəbə getməmişdən xeyli əvvəl onları kitab oxumağa alışdırdıq, onlarda riyaziyyat, təbiət elmləri, rəsm və musiqiyə maraq oyandırdıq, onların dünya görüşünü formalaşdırmağa çalışdıq. Qızlar Azərbaycan, rus və dünya ədəbiyyatını oxudular, rus və Azərbaycan türkcəsində oxuyub danışdılar, üstəlik, ingilis dilini ciddi öyrənməyə girişdilər. Qızlar mənimlə ancaq Azərbaycan türkcəsində danışdılar, sənինlə ünsiyyətdə isə həm öz dilimizdən, həm ruscadan istifadə etdilər. Birgə səyimizlə yanaşı sən və mən peşəkar olduğumuz ayrı-ayrı fəaliyyət sahələrini qızlara sevdirmək üçün gücümüzü əsirgəmirdik. Üç qızımız musiqi məktəbində də təhsil aldılar, bu işdə sən onlara qayğı göstərdin, kömək etdin. Mən qızlara şahmat öyrətdim. Onlarla yanaşı şahmat oynamağı sən də öyrəndin, yadımdadır ki, iki gedişə matı çox tez tapırdın. Aytən şahmatla məşğul oldu, xeyli uğur qazandı; o, artıq yetkin yaşlarında özbaşına musiqi ilə məşğul oldu, pianoda klassik musiqini yaxşı ifa etməyi bacardı.

Qayğı və diqqət göstərmək məsələsində sən bir məktəb idin. Sənin məktəbini keçmiş qızımız Aygün barədə kiçik bir hadisə yadıma düşdü. Bir yay aylarını Moskvada keçirməyi qərara aldıq. Aygün və mən əvvəlcə getdik, Moskvada ev tutduq, sizi - səni, Zeynəb və Aytəni gözlədik. İlk günlərin birində ev sahibəsi Aygünü yaxındakı parka gəzməyə aparmışdı, mən isə evdə qalmışdım. Bir az keçdi, qadın və Aygün qayıtdılar. Qadın təəccüb dolu gözlərlə niyə tez qayıtdıqlarını izah etdi: "Qızın məndən saatı soruşdu, saat ikidir deyən kimi tez evə qayıdaq dedi. Soruşdum ki, nə olub? Dedi ki, atamın yemək vaxtıdır, başı qarışar yemək yadından çıxar, gərək ona yemək verim. Uşaq olasan, belə düşünəsən. Belə şey görməmişəm". O zaman Aygünün 11 yaşı tamam olmamışdı...

Servantda kitablar

Təbiətcə şən və təvazökar olan qardaşın Firidun bir dəfə sərxoş vaxtı ehtiyatsız bir söz demişdi. Çox pərt oldum. Səhər evdən çıxıb dərsə gedəndə (Bakı Dövlət Universitetinin tətbiqi riyaziyyat fakültəsində dərs deyirdim) sənə yavaşca, amma, tam soyuqqanlılıqla "mən bura qayıtmayacam" deyib, evdən çıxdım. Bir-birimizi çox yaxşı tanıyırdıq və sən, sözsüz, mənim sözlərimi olduğu kimi, birqiymətli qəbul etmişdin. Bu tez göründü. Mühazirəni bitirib koridora çıxanda səni və əlindən tutduğun Aygünü gördüm. Təəccübləndim, "nə edirsiniz burda, xeyir ola?". Cavabın çox sadə və aydın oldu: "dedin evə qayıtmayacam, biz də gəldik, hara deyirsən, biz də sənинlə ora gedəcəyik". Ayıb olmasa, səni orda qucaqlayıb öpərdim... Mehribangilə getdik. Bizi, həmişə olduğu kimi,

çox gözəl qarşıladı. Mənim "bir az sizdə qonaq qalmağımıza necə baxırsan?" sualıma Mehriban gözlənildiyi kimi mehribanlıqla cavab verdi: "nə qədər istəyirsiniz qalın, öz evinizdir".

Bir qədər sonra bir yataq otağı və bir dəhlizdən ibarət sadə bir mənzil kirayə etdik. Bu kiçik mənzildə də çətin vəziyyətə düşən tələbə qohumlara yer verdin. Hər zaman olduğu kimi, bu mənzil də Bakıda yaşayan dostlarımızın və kəndimizdən gələnlərin xoş görüş yeri idi.

Elmlər Akademiyası öz əməkdaşlarına dəyərinin böyük hissəsini illər boyu, aybaay ödəmək şərtilə kooperativ ev təklif etdi. Bu imkandan biz də yararlandıq, Əhmədlidə 9 mərtəbəli evin 8-ci mərtəbəsində beş otaqlı mənzilimiz oldu! Sevincimizin həddi-hüdudu yoxdu. Lakin, mənzillər yararsız vəziyyətdə idi və biz imkanımız daxilində ev quruculuğu işinə başlamağa məcbur olduq. Mətbəxin yerini dəyişmək, otaqların təyinatını müəyyən etmək, evi zəruri mebellə təmin etmək kimi işləri sən gördün. Mən, hər addımda sənin rəyini nəzərə almaqla, təmir işini təşkil etdim.

Ümumiyyətlə, evlə bağlı məsələlərin əksəriyyətini öz üzərinə götürdün, sənin zövqünə güvənirdim, üstəlik, ev işləri məni çox narahat etmirdi. Məni ən çox sevindirən şey mənim iş otağımın əmələ gəlməsi idi! Kitab şkafları aldıq, onları divar boyu düzdük. Kitablarım çox idi, hamısını rəflərə yerləşdirmək mümkün olmadı, bir hissəsini yerdə və kiçik qutularda saxlamalı oldum. Otaqlardan ən böyüyünü ("qonaq otağını") xüsusi zövqlə düzəltdin, bəzədin. Sovet məkanında "servant" adı alan və adətən qonaq otağında yer alan şüşəli şkafa o zamanın dəbinə uyğun qab-qacaq dəsti, gərək ki, Madonna servizi düzdün.

Bir neçə gündən sonra ehtiyatla sənə müraciət etdim: "Bəlkə servantın bir gözünə kitab yığım?" Sən çaşqın nəzərlə mənə baxdın: "Necə yəni? Servanta, bəzəkli şüşə qabların yanına necə kitab qoymaq olar?" Düz deyirdin. Mən daha üz vurmadım, susdum. Bir gün keçdi. Yəqin ki, kefimin pozulduğu sənə təsir etmişdi, "yaxşı, servantda bir küncü ayırıram, gətir ora kitablarını düz" dedin. Riyaziyyata aid bir dəstə kitabı sənin ayırdığın yerdə iki cərgəyə düzdüm - arxa cərgəyə az istifadə olunanları, üzdəki cərgəyə tez-tez müraciət etdiklərimi. İşdən qayıdanda kitabların yerini dəyişdirdiyini gördüm, çox işlənənləri arxaya, "Burbaki" adı ilə tanınan, fransızcadan tərcümə olunmuş kitabları üzdəki qatara düzmüşdün. "Burbaki"lər çox istifadə etdiyim kitablardan deyildi. "Bunu niyə belə etmisən?" deyəndə "nimdaş, əzilmiş, solğun kitabları arxaya, görünməyən yerə yerləşdirdim, bu Burbakilər təzədir, üzləri bəzəklidir, onları görünən yerə qoydum". Xeyli güldüm, sən də mənə qoşuldun. "Ağ" etdiyimi başa düşdüm və bir neçə gündən sonra kitabları servantdan yığışdırdım. Sonralar bu əhvalat yadıma düşəndə, öz-özümə utanırdım.

Ürəyin dediyinə fikir ver

Hər gün, hər ay, hər il həyatımıza öz möhrünü vurur. Gündəlik yaşayış və ailə qayğılarımızı əsasən təmin edə biləndə, iş yerində üzərimizə düşən vəzifələri əsasən yerinə yetirə biləndə, xoş saatların, günlərin sayı artanda həyatdan razı qalırıq. Yadda qalan günlər, hadisələr baxımından 1980-ci illəri zəngin saymaq olar. Qızlar (ən kiçiyi istisna olmaqla) məktəbdə oxuyurdular. Sənin və mənim evdəki tərbiyə-təlim səylərimiz, uşaqların həvəs və çalışqanlığı və məktəbin verdikləri üst-üstə gəlir, nəticənin çox yaxşı olduğu şübhə doğurmurdu. Mənim qızlarımıza qarşı tələbkarlığımın həddini aşmamasına diqqət verirdin.

İşə düzəlmək istədiyini dedin. Riyaziyyat və Mexanika İnstitutunun direktoru Fəraməz (Maqsudov) müəllimdən xahiş etdim və onun tövsiyəsi ilə instituta bağlı olan Xüsusi konstruktor bürosunda (rusca abreviatura ilə SKB-də) işə girdin. Patent və müqavilələrin mətni və arxivləşdirilməsi üzrə çalışırdın. Bir qədər keçmiş bu işə həvəsin olmadığını, "öz müəllimlik sənətim yaxşıdır, məktəbdə rus dili və ədəbiyyatı müəllimi kimi işləmək istəyirəm" dedin və bu arzuna nail oldun. Məktəb evimizdən bir qədər uzaqda idi, lakin, bu sənə çox mane olmurdu. İşindən həzz aldığın görünürdü.

Mən Moskvada elmlər dokturu adı almaq üçün dissertasiya müdafiə etdim. SSRİ-də müxtəlif yerlərdə keçirilən çox elmi konfranslarda iştirakımla yanaşı, SSRİ-nin son 7-8 ili ərzində xarici ölkələrə elmi səfərlərim başladı. Məşğul olduğum riyazi-fiziki məsələlər Böyük Britaniya, Almaniya, Kanada, ABŞ və digər ölkələrdə inkişaf tapdığına görə müxtəlif universitetlərdən və beynəlxalq konfrans təşkilatçılarından dəvət alırdım. Eyni zamanda qəzet, jurnal və televiziyada verdiyim müsahibələrdə dünya və Azərbaycanda elmin və təhsilin müqayisəli vəziyyəti barədə fikir

söyləyirdim. Qərb dünyası aparıcı ali məktəblərinin güclü tərəflərini vurğulamaqla Azərbaycan təhsil sisteminin nöqsanlarını göstərir, islahat yolları barədə yazır və söhbət açırdım. Sən "çox tənqid etmə, pis zəmanədir, başımıza iş açacaqsan" deyə məndən ehtiyatlı olmağı xahiş edirdin. Beləcə, o zamandan başlayaraq mən həmişə "ehtiyatsız" fikirlər söyləməyə davam etdim, sən isə, sözünün mənə təsir edəcəyinə inanmasan da, "çalış artıq söz danışma" deməyi unutmadın.

Görkəmli filosof Camal Mustafayev ailəmizin (və çoxsaylı digər insanların) sevimli ağsaqqalı sayılırdı. Onu görüb söhbət etmək, hal-əhval tutmaq üçün evlərinə gedər, maraqlı söhbət edərdik. Camal müəllim sənin qabiliyyətini görüb, görüşlərimizin birində elmi tədqiqatla məşğul olmanı, rus və Azərbaycan ədəbiyyatları timsalında ədəbiyyatda estetik ideallar kimi mövzu üzərində çalışmanı məsləhət görmüş, elmi rəhbər kimi köməyini əsirgəməyəciyini bildirmişdi. Mən bu hala sevinmişdim. Lakin, evimizə qayıdanda sən mənimlə açıq danışıb, elmlə məşğul olmaq istəmədiyini bildirdin. "Təbiətim məni elmə doğru çəkmir, şöhrətə isə ehtiyacım yoxdur, sənin alimliyin ikimizə də yetər" dedin və əlavə etdin: "qoy ürəyim nə istəyir onunla məşğul olum". Mən, təəssüf etmədim, əksinə, daha bir dəfə sənin həyatı düzgün qiymətləndirmək və doğru qərar qəbul etmək qabiliyyətinin şahidi oldum.

Dağlıq Qarabağ münaqişəsi Azərbaycanda hər ailədə olduğu kimi, bizdə də ağrı doğuran düşüncələrə yol açdı. Sən yaşadığın doğma Bakı şəhərində və Quba rayonunda müxtəlif millətlərin dostcasına birgə yaşamasını yada salır, bariz nümunə olaraq Azərbaycan türkü ilə yanaşı rus, erməni, gürcü və yəhudilərin yaşadığı öz kiçik həyətinizi (Bakı, Həzi Aslanov küçəsi, 31) göstərirdin. Bununla yanaşı, milli-azadlıq hərəkatını böyük rəğbətlə izləyir, mərkəzi meydanda qərar tutanlara piroq bişirib göndərirdin. 1990-cı il Qara Yanvar faciəsi kədərli əhvalımızı daha da dərinləşdirdi. Bir qədər əvvəl Kommunist partyası üzvü olmadan xarici elmi səfərlərin mümkün olmayacağını səbəb göstərməklə məni partiya üzvlüyünə keçirmişdilər; bu üzvlük uzun çəkmədi, etiraz əlaməti olaraq partiya sıralarını tərk etdim. Mənim bu addımımı sən ehtiyatsız hərəkət kimi qiymətləndirmədin, "ürəyin nə deyir onu et" dedin.

Xəzər Universiteti: çiyin-çiyinə addımladıq

1990-cı ilin son və 1991-ci ilin ilk ayları Xəzər Universitetinin (o zamankı adı ilə "İngilisdilli Azərbaycan Universitetinin) qurulma ideyası yarandı və həyata keçdi. Azərbaycan hökumətinin qərarı ilə rəsmi açılan bu ilk özəl ali məktəbin qurulma işi ilə bağlı Nazirlər Sovetinə (sonra Nazirlər Kabinetinə) gedib-gəlməyə başladım. Azərbaycan addım-addım müstəqilliyə doğru gedirdi. Universitetimizin yaranmasına hazırlıq işlərinin aparılması barədə ilk sərəncamı (20 dekabr 1990) Azərbaycan SSR Nazirlər Sovetinin sədri, yaradılma qərarını isə Azərbaycan Respublikası Nazirlər Kabinetinin sədri Həsən Həsənov imzalamışdı. Sən hər dəfə mənim geyimimə fikir verir, gülər üzlə yola salırdın.

Yadımdadır - bir dəfə baş nazirlə növbəti görüşə getməliydim. Sən kağız-kuğuz arasında başım qarışdığını görüb "ləngiyirsən, dur get, gecikə bilərsən" deyə məni tələsdirdin. Mən, doğrudan da, bu vacib görüşə 5-6 dəqiqə gecikdim və bu gecikmənin baş nazirin xoşuna gəlmədiyini gördüm. Bir az pərt olmuşdum, evə qayıdanda sənin "görüş necə keçdi?" sualına könülsüz cavab verdiyimi hiss edəndə, "nəsə olub?" deyə soruşdun. Mən gecikdiyimi, bundan pərtlik yarandığını dedim və söhbətin gedişi barədə qısa məlumat verdim. Sən "eybi yoxdur, əsas olan odur ki, müzakiräniz yaxşı keçib və məsələnin həlli istiqamətində irəli addım atılıb" deyə mənə ürək-dirək verdin və təbii olaraq gözlənilən "axı sənə demişdim gecikəcəksən" sözünü demədin.

Beləliklə, 1991-ci ilin yazında Xəzər Universiteti fəaliyyətə başladı. Həmin ilin ikinci yarısı Azərbaycan Respublikasının dövlət müstəqilliyi əldə etməsi ilə tarixə keçdi. Azərbaycan Respublikası müstəqilliyə gedən yolda qurbanlar da verdi, uğurlu addımlar da atdı. Bu uğurlu addımlardan biri Azərbaycanda ilk özəl ali məktəbin – Xəzər Universitetinin yaranması idi; "Xəzər" Azərbaycanda inkişaf etmiş ölkələrin ali təhsi modellərini ilk dəfə tətbiq edən, tədris dili ingiliscə olan ilk Universitet oldu. Sən Xəzər Universitetinin qurulması və inkişafı yolunda mənimlə bərabər, çiyin-çiyinə addımladın. Səni bu yolda "Hamletin sağ əli", "Hamletin ilham pərisi" adlandırır, mənim birinci sayıldığım bu işdə sənin rolunu daha çox səciyyəvi "hər güclü kişinin arxasında bir

güclü qadın var" kimi qəlib ifadələrlə vurğulayırdılar. Lakin, Xəzər Universiteti ailəsinin, Xəzər Universitetinə xas olan cazibəli insani və mədəni mühitin yaranmasını və ümumiyyətlə, Xəzər Universitetinin inkişafını sənsiz təsəvvür etmək mümkün deyil.

"Xəzər"in ilk kasıb günlərində sən evimizdən qab-qacaq, samovar, xalça və mebelləri bu universitetə daşıdın, universitetdə çalışan xanım müəllimləri başına yığdın, yeni savadlı müəllimlərin, xüsusilə xanımların seçilməsi və işə götürülməsi üçün səy göstərdin. Bir qədər sonra Xəzər Xanımlar Məclisini (Klubunu) yaratdın, Azərbaycanın tanınmış, fəal, istedadlı xanımlarını, eləcə də Azərbaycanda yaşayan xarici xanımları başına topladın. Yaradıcı, yenilikçi, enerjili şəxsiyyət kimi tanındın, musiqili məclislərin, tamaşa və görüşlərin, Azərbaycanın müxtəlif guşələrinə unudumaz səfərlərin təşkilatçısı oldun. Universitetimizin inkişafına töhfə verən xarici qonaqların "Xəzər" ailəsi ilə qaynayıb-qarışmasında sənin əməyin və insani keyfiyyətlərin böyük rol oynayırdı. Sənin ideyaların, birbaşa müdaxilən və zövqün universitetin maddi bazasının yaradılmasına çox kömək etdi. Xəzər Universiteti Mədəniyyət Mərkəzi adı alan mərkəz ideyasını irəli sürdün və bunu həyata keçirdin. "Xəzər"in inkişafında əvəzolunmaz xitmətlərinə görə yenidən dövlət qeydiyyatından keçərkən, sən mənimlə birlikdə Xəzər Universitetinin həmtəsisçisi oldun.

"Yaxına, uzağa sən mənimlə get"

Sovet dövründə səni xarici ölkələrə apara bilmirdim. Ciddi qaydalar və çətinliklər vardı. Mən rəsmi dəvət olunurdum, hökumət mənim təkbaşına səfərimə icazə verir və ya vermirdi. Müstəqillik çox şeydə olduğu kimi, səfər məsələsini də tam yüngülləşdirdi, hökumətdən icazə istəmədən hər yana getmək mümkün oldu, sadəcə getmək istədiyimiz ölkənin icazəsi, yəni, vizası kifayət idi. Yollar açılan kimi sənlə ilk xarici səfərimiz baş tutdu; Türkiyəyə, İstanbula getdik. İkinci səfərimiz isə İran, İran Azərbaycanı oldu. Sonralar bu iki ölkəni başdan ayağa gəzdik demək mümkündür. Yadımdadır – İsfahanda bir mehriban fars ailənin qonağı olduq, ailədə yalnız oğlanlardan biri bir az ingiliscə danışa bilirdi. Bu oğlan anasının "müəllimə de ki, Nailə çox gözəl xanımdır, çox xoşuma gəldi, çox dostlaşdıq" sözlərini mənə tərcümə etdi. Təəccüb etdim, bu iki xanım bir-birini necə anlayıb. Sən gülə-gülə mənə başa saldın: "anlatmağa nə var ki?! Məsələn, dörd qızım olduğunu belə dedim: mənim çahar düxtərim var".

Sənlə səfərdə olmaq mənə xüsusi həzz verirdi. Səni gəzdirməyi, gəzdiyimiz yerin tarixi, mədəniyyəti haqqında bildiklərimi söyləməyi, səni danışdırmağı, gəzə-gəzə sənlə zarafat etməyi sevirdim. İş, ailə, səhhətlə bağlı müəyyən qayğıya görə sən mənimlə növbəti ölkəyə getmək istəməyəndə, kefim pozulurdu. Səni yoldan çıxartmağa çalışır, "gəl gedək" deyir, məlum mahnını oxuyurdum: "yaxına, uzağa sən mənimlə get". Sən mənim təkidimə təəccüb edir və bir az da nazla yox deyirdin: "yox, gedə bilmərəm. Qəribədir, adamlar tək getməyə, azadlığa çıxmağa çalışırlar, sən isə məndən əl çəkmirsən, mənsiz getmək istəmirsən. Ay canım, məni rahat burax, get, işini gör, gəz, kef çək". Mən şeir dili ilə xoş asılılığın, sevginin azadlıqdan şirin olduğunu deyirdim:

Eşq ki var, o asılılıq, bağlılıqdır
İnsanı insan eyləyən
Heyranlıqdır, xoş qılıqdır.
Məhəbbət varsa ürəkdə
Artıq söz-söhbət nədəndir?!
Bil ki, gücsüz görünmək də
Bəzən güclü sevgidəndir.

Hər halda sənlə Avropa, Asiya və Şimali və Cənubi Amerikanın əsas yerlərini yaxşı gəzdik. Afrika səfərimdə mənimlə getmədin. Avstraliyaya dəfələrlə dəvət etdilər, hər dəfə təxirə saldıq. Nişanımızda coşub dediyim "dünyanı sənin ayaqların altına sərəcəm. Əlindən tutub dünyanı gəzdirəcəm. Əlbəttə, bəxtim müttəfiq olsa" sözünü hərdən yada salırdın. Doğrudan da, bəxtim müttəfiq oldu və sənlə əl-ələ tutub, dünyanı gəzdik. Şəhər və qəsəbələri, təbiəti - dağları, göl, dəniz, çay və şəlalələri gəzdik-gördük. Dənizi çox sevirdin, Azərbaycanda və Türkiyədə dənizləri

seyr etdin, sonra dörd okeanın hər birini gördün, sahilində gəzişdin, qumlarla, qayalarla, qağayılarla, dalğalarla söhbət etdin. Dənizlə tək qalmaq, dənizin nəhayətsizliyi barədə düşüncələrə dalmaq xoşuna gəlirdi. Dəniz, musiqi və gülləri çox sevirəm deyirdin. Muzey və teatrlara getdik. Yadımdadır, Parisdə Louvre (Luvr) muzeyində Quba xalçasını görüb, həyəcandan qışqırmışdın. Moskva`da Bol`şoy (Большой) teatr, Milan`da La-Scala, Vienna`da opera-balet teatrında sevdiyin operalara qulaq asdıq. Digər şəhərlərdə və doğma Bakımızda da zəngin musiqi, incəsənət, muzey və teatr həyatı içində olduq.

Hətta ABŞ, Çin, Rusiya, Böyük Britaniya, Türkiyə və digər ölkələrə mənsiz də getdin. Bəzən başına macəra da gəlirdi. ABŞ-da oxuyan qızımız Ülkəri görmək üçün gedəndə, Los Angeles hava limanında baqajını açmış və orada sanki şübhəli ot görmüş, onun nə olduğunu soruşmuşlar. Sən "qızım üçün vətəndən göy-göyərti gətirmişəm" demək istəyibsən və bunu ingiliscə "It`s grass for my daughter, she is a student" kimi ifadə etmisən. "Grass" şərti dildə, jarqon olaraq marixuana, narkotik maddə mənası verir. Sənin göy-göyərtindən nümunə götürmüş, xüsusi təlim görmüş it`ə qoxulatmışlar, dediyinə görə "itin burnuna yaxınlaşdırdılar, it başını yana çevirdi". Söhbətdə məsələni anlamış, üzr istəyib səni gülə-gülə yola salmışlar.

Hisslər zəkanı üstələyəndə

Bir-birinə həddindən artıq yaxın insanlar arasında da müxtəlif məsələlərə münasibətdə fikir ayrılığı olması təbiidir. İki insan, necə olur-olsun, fərqli məxluqdurlar, heç bir insan digərindən mexaniki yolla, surətçıxarma vasitəsilə alınmır. Bir ana bətnində eyni zamanda əmələ gəlib yetişən və dünyaya eyni vaxtda göz açan ekizlər nə qədər bir-birinə bənzəsələr də, xasiyyət, qabiliyyət və həyat yoluna görə bir-birindən fərqlənir, hətta kəskin surətdə fərqlənə bilirlər. Hər şəxsin öz kimliyi var. İnsanı bənzərsiz edən onu başqa insanlarla eyniləşdirən deyil, fərqləndirən xüsusiyyətlərdir. Dünyanı rəngarəng edən də insanların özünəməxsusluğu, bənzərsizliyidir. Sən və mən "şəxsi hisslərini çılpaqlığı ilə aç mən bilim" kimi qeyri-insani iddia irəli sürən deyildik.

Hər ikimizdə bizi bir-birimizə bağlayan, bir-birimizə sevdirən müəyyən keyfiyyətlər olmamış deyildi. Zaman keçdikcə, birgə həyat təcrübəmiz artdıqca bir-birimizi çox tez, sadə bir kəlmə, çətin sezilən bir işarə və ya üz ifadəsi ilə başa düşürdük. Birimiz bir fikir ortaya atanda, "qəribədir, bu an mən də bu barədə düşünürdüm" deyə bilirdik. Bir-birimizdən fərqli cəhətlərimiz də vardı. Bununla bir-birimizi tamamlayırdıq demək mümkündür. Evliliyimizin ilk illərində mən lazım gəldiyindən çox, bəzən də lazımsız tələbkarlıq edir, xırdaçılıq edə bilirdim. Sən daha təmkinli və güzəştə gedən olsan da, etiraz da edə bilirdin. Mehriban, canyanan və yumşaq xasiyyətli olsan da, müti deyildin. Özünə qarşı tələbkar olmaqla yanaşı, özünə hörmət hissini və ləyaqətini qoruyurdun. Doğru saymadığın hərəkəti bəyənmədiyini açıq bildirirdin. Aydın, sağlam məqsədə nail olmaq yolunda iddialı ola bilirdin.

Aramızda incimək, küsmək olurdu, amma, bu, uzun sürmürdü, 3-5 dəqiqə, uzağı bir-iki saat. Kim özünü günahkar sayırdısa, xətirə dəyə bilən bir söz işlətmişdisə, o, yaxınlaşıb "bağışla" deyir, qucaqlayır, öpürdü.

Hirslənəndə hisslər zəkanı üstələyə bilir. İnsanı içdən bulandıran qürur və mənəm-mənəmlik qarşıdakını dinləmək və anlamağa çalışmaq, yumşaq danışmaq kimi insani sifətləri kütləşdirə bilir. Mənim bir hirsimə qarşı necə tədbir gördüyünü yada salmağı sevirdin. Sən uzaqdakı bir məktəbdə rus dili müəllimi vəzifəsində çalışırdın. Qızlarımız isə evimizin yanındakı məktəbdə oxuyurdular. Bəzi günlərdə qızlar səndən tez evə gəlirdilər və bu zaman sənin evdə olmamağın, uşaqları qarşılaya bilməməyin məni rahatsız edir, narazı salırdı. Hirsim üst-üstə yığıldı və bir gün "belə olmaz, nə edirsən et, elə et ki, uşaqlar məktəbdən gələndə evdə olasan. Mümkün deyilsə, işdən çıx" deyə yumruğumu masanın üstünə vurdum. Qəribədir, o gündən sonra uşaqlar gələndə evdə olurdun. Bəs bu necə oldu? Əslində, sənin işdən çıxmağını istəmirdim, məsələ tək maddiyyatda deyildi, sevdiyin işlə məşğul olmağını vacib sayırdım. Nəhayət, soruşdum: "nə olub, işə getmirsən deyəsən?" Sən rahat cavab verdin: "Dedin evdə ol, uşaqları qarşıla, mən də dediyini etdim". Mən "yox, işini buraxma" deyəndə, güldün və sirri mənə açdın - həkimdən bülleten götürübsən ki, mənim hirsim soyuyana kimi evdə ola biləsən, məni yaxşı tanıdığın üçün hirsimin tez soyuyacağını bilirdin...

Yalnız bir dəfə səndən incidim və evi tərk edib, bağımıza getdim, orda qalmağı qərara aldım.

Ən maraqlı cəhət odur ki, o vaxt niyə incidiyimi indi yada sala bilmirəm. Sən bağda yaşamağım və işə gedib-gəlməyim üçün hər şeyi təşkil etmişdin – yemək hazırlanır, iş və ev geyimlərim təqdim olunur, internet xətti işləyirdi. Sonra mənə bir məktub göndərdin, səni başa düşmək istəmədiyimi yüngülcə qınadın, amma, mənə hörmətini ifadə etdin, nə olur-olsun məni çox sevdiyini bildirdin. Bu ayrılıq çox çəkmədi, sənsiz çox qala bilmədim və evə qayıtdım.

Sevgi qısqanclıq sevər. Aramızda böyük qısqanclıq olmayıb. Utancaq olmaqla yanaşı, sadə və səmimiliyin insanları çox cəlb edirdi, cazibən böyükdü. Bu, sənlə ilk tanış olduğumuz zamanlar bəzən məndə kiçik bir qısqanclıq hissi yarada bilirdi. Amma, bu tez keçib getdi. Səni qısqanmağın günah olduğunu tez anladım. Qaldı ki, sənin məni qısqanmağına – bu da çox olmayıb. Gəncliyimizdə buna bir əsas olmayıb. Lakin, yaşa dolanda, mən müəyyən dərəcədə tanınmış insana çevriləndə, mənimlə maraqlanan qız-qadınların mövcudluğunu gizlətmək mümkün deyildi. Bunu sən də eşidir, bilir, görürdün. Bu marağı şiddətə döndərən də olmuşdu; bu halda sən qısqanclıq hissinin yersiz olduğunu tam başa düşür və vəziyyətdən çıxmaq üçün mənə kömək edirdin.

Mənim müxtəlif qız və qadınlarla, həmkar və qonaqlarla oturub-durmağım, zarafatlarım səndə az da olsa bir qısqanclıq hissi doğurmazdı. Mən qadınlara hörmət və marağın həm də gözəlliyi seyr etmək, xoş ahəngi, harmoniyanı duymaq hissindən doğduğunu deyir, "gözəlliyi, zərifliyi qiymətləndirə bilməsəydim, bəlkə səni də kəşf etməzdim" deyə zarafat edirdim. Xarici səfərlərimizin birində təyyarədə yanaşı oturmuşduq, bizə gözəl, gülərüz bir qız – stüardessa çox mehribanlıqla xidmət edir, tez-tez gedir-gəlir, nə istədiyimizi soruşur, dilimizdən çıxanı həmin an yerinə yetirməyə çalışırdı. Qızın adı Gözəlpəri idi. Mənim anamın adı Pərixanım`dır. Bunu qıza dedim: "anam pəri xanımdır, sən isə gözəl pərisən". Qız nəsə gətirmək üçün gedəndə "yaxşı qızdır, ona nə yaxşılıq etmək olar?" deyə sənə müraciət etdim və birdən "bəlkə ona bir-iki misralıq bir şeir yazım?!" dedim. Sən "yaxşı fikirdir, de gəlsin" deyən kimi bir dördlük hazır etdim və yazıb qıza verdim. Qız həyəcanlandı və çox sevindi.

Gülməli hallar da olurdu. Hansısa izdihamlı rəsmi görüşlərin birində bir xanım sənin yanında mənə "girişmişdi" – belə demək mümkünsə. Məni sorğu-suala tutur, əlimdən tutur, əl çəkmirdi. Mən nəzakət çərçivəsini pozmadan aralanmağa çalışır, lakin, bacarmırdım. Başımı qaldıranda sənin Fərhad Bədəlbəyli ilə söhbət etdiyini, məni və o xanımı göstərib, xısın-xısın gülüşdüyünüzü gördüm.

Dünəni yaşadım, dünəndə bitdi
Uşaqlıq qayğılar dinəndə bitdi
Qısqanclıq, çılğınlıq dolu səhnələr
Ömrümüz payıza dönəndə bitdi.

Səni sevdim çox sadəcə

Ad gününü (1999-cu il) Xəzər Universitetində çalışan öz xanım dost və həmkarlarınla birlikdə Quba`da keçirmək istədiyini bildirdin. Mən "yaxşı edirsən, gedin" dedim. Mənimlə "darıxma, evdə işinlə məşğul ol, biz də sənin sevdiyin Qubaya gedək, kefimiz açılsın, dincələk, çalışacam tez qayıdaq" deyə salamatlaşıb Qubaya yola düşdünüz. Mən ad günü münasibətilə sənə nə hədiyyə ala biləcəyim üzərində düşündüm. Düşündüm ki, günortadan sonra şəhərə çıxıb, bir dəstə yaxşı gül alaram, sonra bəlkə bir hədiyyə də taparam, hərçənd ki, bu hədiyyənin nə ola biləcəyini təsəvvür etmirdim. Ümumiyyətlə, ad günlərində və digər əlamətdar tarixlərdə hədiyyə almağı yaxşı bacarmıram, bəlkə də bu bacarıqsızlığım hədiyyə almağın mühüm iş olmadığı kimi qəribə düşüncə və ya bilincaltı ilə bağlıdır. Nəsə, başım oxuyub yazmağa qarışdı. Şəhərə çıxmağı bir az sonraya təxirə sala-sala günün keçdiyini və evdən eşiyə çıxma həvəsimin durmadan azaldığını hiss etdim.

Aha! Bildim nə edəcəm. Başımda bir fikir vardı: sevgi barədə danışanda və yazanda adətən "dərdindən dəli olmuşam", "Məcnun yanında heç nədir", "eşq atəşindən külə döndüm" kimi təmtəraqlı sevgi təşbehləri ortada hökm sürür, sadə, səmimi sevgi, bağlılıq barədə çox danışılmır. Mən o məşhur aşiqlərdən deyiləm, amma, sadəcə, səni çox sevirəm; beynimdə "Sadəcə çox sevdim səni" və bunun tərsinə düzülüşü - "Səni sevdim çox sadəcə" ifadələri dolaşırdı. "Bu hissləri şeirə döndərib sənə hədiyyə etsəm pis olmaz" deyə düşündüm. Şeir hazır olanda onu sənə təqdim etmək üçün bir bəzəkli xüsusi kağız parçasına köçürdüm (onu bu yaxınlarda sənin kağızların arasında tapdım).

Gec gəldiniz, yəqin ki, gününüz maraqlı olmuşdu. Sən tək gəlmədin, sənlə bir yerdə Qubaya gedənlər bizə, çay içməyə gəldiniz. Bəlkə də tək gələsən, "çox gec gəldin" deyə bilərdim. Hər halda, kefinizin kök olması və indi mənim iştirakımla kef məclisinin davam etməsi mənə də xoş idi. "Əzizim Nailə xanım, ad gününü təbrik edirəm, sənə xüsusi hədiyyə almamışam, bağışla bu yazıq bəndəni, amma, sənin şərinə bir şeir yazmışam, onu sadə bir hədiyyə kimi qəbul et" dedim və şeir yazılmış kağızı sənə uzatdım. "Oxuyun, oxuyun" səsləri gəldi. Şeiri oxudum.

Səni sevdim gündən-günə daha dolğun, daha incə
Düşünmədən, daşınmadan, bər-bəzəksiz, çox sadəcə.
Səni sevdim yerə həsrət yağış kimi, leysan kimi
Səni sevdim gözəlliyə heyran olan insan kimi
Sadəcə, çox sevdim səni
Səni sevdim çox sadəcə.

Mahnılarda anılmadım, dastanlarda yoxdur adım
Kərəm ünlü aşiqlərin cərgəsində yer almadım
İçimdəki ağrıların atəşindən kül olmadım
Sadəcə, çox sevdim səni
Səni sevdim çox sadəcə.

Məcnun olub, dərdli eşqlə səhralara üz tutmadım
İnsanlardan uzaq düşüb ceyran-cüyür ovutmadım
Xəyallara səcdə qılıb vüsalını unutmadım
Sadəcə, çox sevdim səni
Səni sevdim çox sadəcə.

Fərhad olub, dəryaları məcrasından döndərmədim
Xosrov kimi can yanğını məhəbbətlə söndürmədim
Dünyanın naz-nemətini sənə bəxşiş göndərmədim
Sadəcə, çox sevdim səni
Səni sevdim çox sadəcə.

Romeo tək tez od alıb yanmaq üçün doğulmadım
Vaqif kimi pəri, sona göllərində boğulmadım
Otello tək qısqanclıqdan, ehtirasdan yoğrulmadım
Sadəcə, çox sevdim səni
Səni sevdim çox sadəcə.

Koroğlu tək eşq yolunda davalara alışmadım
Haray salıb gözəllərin məclisinə qarışmadım
İstedadlı aşiq kimi Füzuliylə yarışmadım
Sadəcə, çox sevdim səni
Səni sevdim çox sadəcə.

Səni sevdim gündən-günə daha dolğun, daha incə
Düşünmədən, daşınmadan, bər-bəzəksiz, çox sadəcə
Səni sevdim yerə həsrət yağış kimi, leysan kimi
Səni sevdim gözəlliyə heyran olan insan kimi
Sadəcə, çox sevdim səni
Səni sevdim çox sadəcə.

Məclis əhli əl çaldı. Sənə çox xoş olduğunu, hədiyyəmin yerinə düşdüyünü hiss etdim.

Sən məni şair etdin

Uşaq yaşlarımdan riyaziyyat və təbiət elmlərinə rəğbətim və müəyyən dərəcədə qabiliyyətim vardı. Eyni zamanda, ədəbiyyatı çox sevirdim, bədii əsərləri oxumaqdan böyük həzz alırdım. Özüm də şeir, hətta dram əsərləri yazırdım. Bu uşaqlıq sevdası tələbə vaxtı və daha sonralar əsasən şeir şəklində davam etdi. Amma şeirləri dərc etdirmək barədə düşünmürdüm. Sadəcə, birdən ideya yaranır, şeir meydana çıxırdı; onların mətni dəftərlərdə və yazdığım gündəliklərdə qalırdı. Tanış şəxslərə, o cümlədən qızlara yazıb-verdiyim şeirlərin isə izi qalmırdı. Söhbətlərimizdə, çoşanda hazırlıqsız, sinədən gələn sadə şeirlər deyirdim, bir qismi zarafat dolu, oynaq olurdu. Yazdığım rübai, bayatı və digər dördlüklərin bir qismi bu cür yaranıb. Məsələn, sən nazla "sən güclüsən, sadə adam deyilsən, mənim nəyimi bəyənibsən?" deyəndə, belə cavab vermişdim:

Çox sadə bir insanam mən
İnsanların çoxu kimi
Sən zərifsən, sən incəsən
Güldən gələn qoxu kimi.

Bu şeirlərin bəzilərini "yaz, mənə ver" deyirdin. Ümumiyyətlə, sənlə birlikdə mahnı oxumaq və şeir söyləmək həyatımın ən xoş anlarını təşkil edib. Hədiyyə almaq tənbəlliyimi bəzən şeirlə yumşaldır, sənə kiçik şeir təqdim edirdim. Bu yaxında sənin kağızların arasında mənim xəttimlə sənə ünvanlanmış 8 mart 2006 tarixli bir yazı tapdım:

"Əzizim Nailə! Gör sənə aşiq olub nə

Demişəm

(Aşıqsayağı)

Geyinibsən güllü donu
Hara gedir işin sonu?
Bir quru canım var, onu
Al, sənə qurban demişəm.

Əğyar aranı vuranda
Mən boynu bükük duranda
Sən mənə qan udduranda
Mən sənə can-can demişəm.

Oda qalasan da məni
Oda düşüb allam səni
Can yaxan odlu busəni
Canıma dərman demişəm".

Sonralar bu şeirin "Geyinibsən güllü donu" misrası "Geyinibsən gödək donu" kimi dərc olunub.

"Səni sevdim çox sadəcə" şeirinin sədası ailədən kənara çıxdı, yayıldı, o cümlədən, Xəzər Universitetində və bənzərsiz insan, professor Camal Mustafayevə də çatdı. Camal müəllim "Hamletin şair təbiətli olduğu bəllidir, amma, şeir yazdığını bilmirdim" deyə sənə müraciət edib, mənim şeirlərimi istəyibmiş.

Bir gün əlində qəribə və gözəl, səthi kiçik, amma qalın bir dəftər mənə yanaşdın, "al bu dəftəri, xahiş edirəm şeirlərini köçür, mənə ver" dedin. Mən "nə oldu birdən-birə, neyləyirsən şeirlərimi?" deyə təəccübümü bildirdim, sən davam etdin: "Camal müəllimlə birlikdə sənin şeirlərini toplamaq

qərarına gəlmişik". Camal müəllim atamın yaxın dostu olub, sovet dövrü hər iki nəsil cəza tədbirlərinə uğrayıb. Sənə ali məktəbdə fəlsəfə dərsi demişdi, onun dərsindən xüsusi həzz aldığını yada salırdın. Çox sevdiyimiz, xətrini çox istədiyimiz Camal müəllimin sözünü yerə sala bilməzdim və sənin xahişini yerinə yetirməli oldum. Müxtəlif illərdə yazılmış şeirləri hissə-hissə topladım, ixtisarlar etdim, yüngülcə üzərində işlədim və birinci hissəni sənə təhvil verdim. Camal müəllim birinci kitabın adını "Təzadlar" qoydu və kitaba çox gözəl giriş məqaləsi yazdı. Beləliklə, sən məni planımda olmayan bir işə qoşdun, öz başımda şairlik sevdası olmasa da, sən məni şair etdin:

Qayda yaradanam, qayda pozanam
Sufiyəm, Dərvişəm, Dəli Ozanam
Şairlik sevdası yoxdur başımda
Məhəbbət coşanda şeir yazanam.

Bir qədər sonra "Bu da bir həyatdı", "Dördlüklər" və "Ziyarət" adlı şeir kitablarım da dərc olundu, şeirlər rus, çin, gürcü, türk, ingilis, ukrayna, özbək, fin, eston dillərinə çevrildi, müxtəlif ölkələrdə kitab şəklində, həmçinin jurnallarda dərc olundu. Bu şeirlər əsasında bəstəkarlar çox mahnı yazdılar və xüsusi tamaşalar hazırlandı. Sənin də bu mahnı cərgəsinə qoşulacağını təsəvvür etməzdim...

"Birinci yaradıcılıq birliyimiz"

Bir axşam həmişəki kimi pianonun arxasında oturub tanış mahnı, rəqs və romansları çalırdın. Arada mənim bilmədiyim bir melodiya səsləndi. "Bu nədir?" deyə soruşdum, cavabın qısa oldu: "heç". Fikir vermədim. Bir az sonra yenə oxşar melodiya səsləndi. Düşündüm ki, nəsə köhnə mahnılardan birini yada salmağa çalışırsan. O biri gün sanki bu melodiyanın davamını eşitdim və "Nailə, bu nədir? Nə edirsən, nə axtarırsan?" deyə sənə yaxınlaşdım. Bir az ürkək və utancaq baxışla "deyəsən mahnı bəstələyirəm" dedin. Təəccübləndim: "Nə? Mahnı? Bəs sözləri?" Sən gülümsədin: "Səni sevdim çox sadəcə - mənə hədiyyə etdiyin şeirdir." Və beləcə tanqo tipli gözəl mahnı yarandı. Pianoda çalıb ahəstə, xoş səslə oxuduğun bu mahnı məni çox sevindirdi; zarafat deyil ki, öz mahnımız əmələ gəlib. Lakin, mənə görə daha mühüm olan sənin bəstəçilik qabiliyyətinin meydana çıxması idi.

Sənə "mahnını kimə verək oxusun?" dedim və kimlərin oxuya biləcəyini saymağa başladım. Sən ancaq "bilmirəm" deyir, bəzi adlara isə həmən "yox" deyir və izah edirdin: "Yumşaq, həzin oxuyan müğənni lazımdır, şansonye lazımdır, bax, Mirzə Babayev və ya Akif İslamzadə səhnədə olsalar, bu mahnını yaxşı oxuyardılar", gülümsəyib əlavə etdin: "Və ya Salvatore Adamo". Xeyli vaxt keçdi. Bir gün mənə "Tapdım mahnını kim oxuyacaq – İlqar Muradov". Hardasa bir məclisdə İlqarın ifasını görmüş və bəyənmişdin. İlqar Muradov bu mahnını doğrudan da gözəl oxudu; mahnı dillər əzbəri oldu. Bu mahnını bir qədər fərqli tonda kanadalı müğənni Yusif Savalan, həmçinin gənc, həvəskar müğənnilər də oxudular.

"Səni sevdim çox sadəcə" mahnısını zarafatla "Birinci yaradıcılıq birliyimiz" adlandırdım. Əslində isə, sənlə evləndiyimiz ilk gündən yaradıcı birlik içindəydik, hər şeyə öz baxışımız vardı, xəyal gücümüz qoşa qanadlı idi.

Sonra mənim sözlərimə bir-birindən gözəl, bir-birindən fərqli, hər biri bənzərsiz melodiya üzərində qurulmuş yeni mahnılar bəstələdin. Sən mahnı yazanda çox sevinirdim, sən isə utanırdın ki, mən bəstəkarlıq bitirməmişəm. Deyirdim ki, axı sən musiqiçisən, oxumusan, dərs demisən, klassik musiqini, rus və Azərbaycan musiqisini, ən köhnə mahnıları və melodiyaları bilirsən, musiqi ilə dolusan. Peşəkar bəstəkarlıq məktəbi keçmədən simfonik əsər, opera və balet yazmaq mümkün deyil. Ancaq mahnı bəstələmək fərqlidir, yüzlərlə gözəl mahnılarımız var ki, onlar yarananda bəstəkarlıq təhsili-təlimi yoxdu. Musiqi duyumu olan, musiqi ilə nəfəs alan, musiqiyə yaradıcı yanaşa bilən kəslərdir mahnı yazanlar. Onlar arasında müğənnilər, xanəndələr, cürbəcür musiqi alətində çalanlar, musiqi istedadına malik müxtəlif peşə sahibləri olublar.

Yadımdadır, bir dəfə, hansısa bir görüşdə tanınmış ədəbiyyatçı tanışımız sənə müraciət etdi: "Nailə xanım, maşallah, gözəl mahnılar bəstələyirsiniz, təbrik edirəm. Ancaq, niyə yalnız Hamlet müəllimin

sözlərinə? Bizim də şeirlərimiz var..." Sən qızardın: "Vallah, mən peşəkar bəstəkar deyiləm, elə-belə yazıram!". Mən vəziyyəti düzəltməyə çalışdım: "Müəllim, şeirlərini göndər, Nailə xanım baxsın". Müəllif şeir kitabını göndərdi. Mən "ayıbdır, xahiş edib, kitab göndərib, bir şeirini seç, bəstələ" dedim. Dinməz-söyləməz şeir kitabını götürdün, bir neçə gündən sonra "xahiş edirəm, məni sıxma" dedin, "niyə sənin şeirlərinə mahnı yazıram?! Çünki onlar mənə doğmadır, bir çoxunun necə, hansı hisslərlə yazıldığını bilirəm, bir qismi birbaşa mənə aiddir. Sənin-lə, sən dediyin kimi, yaradıcılıq birliyimiz var. Həm də başqa bir şairin sözlərinə mahnı bəstələsəm, elə çıxa bilər ki, bəstəkar adına iddia edirəm. Məni bağışla, türklər demişkən, yapamam". Mən təkid etmədim.

Həyat acılarla doludur

Həyatımızı kökündən dəyişdirən, həyəcan və ağrı ilə dolduran hadisə baş verdi. Sən ciddi surətdə xəstələndin. İstanbula getdik. Cərrahi əməliyyatdan sonrakı analizlər çox qorxduğumuz xəstəliyin əlamətlərini göstərdi. Yadımdadır, həkim bu xəstəliyin adını çəkəndə səni hələ əməliyyat otağından gətirməmişdilər. Zeynəb və mən, ata-bala sarsıldıq, qucaqlaşıb ağladıq. Səni gətirdilər, ayılmışdın, xəstəliyin nə olduğunu soruşdun. Yəqin ki, üzümüzdəki ifadə çox şey deyirdi; sən başa düşdün və sakitcə "neyləyək, belə oldu" dedin. Sonra səni uzun illər müalicə edəcək həkim bizə ürək-dirək verdi: "Bu xəstəlik geniş yayılmışdır və hazırda uğurla müalicə olunur. Narahat olmayın". Narahat olmaq nədir, böyük təşviş içindəydik. Bununla yanaşı, həkimin inamlı sözləri, sənin qəti surətdə təlaşa düşməməyin nəticəsində bir az özümüzü ələ ala bildik.

Xəstəxanada Zeynəb sənin yanında qalmağa hazırlaşırdı, mən etiraz etdim, qətiyyətlə "mən qalacam" dedim. Qaldım. Həmişə, hansı məkan olur-olsun, sənin-lə birlikdə, bir yerdə olmaq istəmişəm. Yanında məhz mənim qalmağım sənə çox xoş olmuşdu. Türkiyədə xəstə yanında qalan şəxsə "refakatçı" deyirlər. Bu sözün mənə ünvanlanması səni şənləndirdi və şuxluqla mənə "mənim əziz refakatçım" deyə müraciət etməyə başladın. Mən özümü refakatçılıq vəzifəsinə uyğun aparırdım; sənin-lə söhbətləşir və sənə qulluq edirdim. Yanına gələnlərə "heç Hamletdən gözləməzdim, mənə əməlli-başlı qulluq edir, salat düzəldir, meyvə hazırlayır, xörəyi verir, yığışdırır, nə istəyirəm edir, üstəlik, şeir deyir, mahnı oxuyur, mənə heç kim belə refakatçılıq edə bilməzdi" deyir, xoş təəccübünü bildirirdin. Məişət məsələlərini tam üzərinə götürüb məni o qədər azad və bu mənada ərköyün etmişdin ki, indi sadə xidmət qabilyyətimə təəccüblənir və bu çox kiçik xidməti qiymətləndirməyi unutmurdun.

Səni yüksək savada malik qabiliyyətli həkim müalicə etməyə başladı; müalicə oluna biləcəyik – bu ümidimiz İstanbulda qaldığımız müddətdə möhkəmləndi. Müəyyən olundu ki, başlanğıcda standart müalicə üsulunun tətbiqi üçün hər üç həftədə bir İstanbula getməliyik.

Həyat, təəssüf ki, xəstəliklə, acılarla doludur. Heç xəstələnməyən adam yoxdur. Sağlam həyat tərzi keçirən, normal qidalanma fiziologiyası, maddələr mübadiləsi və ifrazata malik insanlar, adətən, az xəstələnirlər. Mən bu sırada olsam da, gəncliyimdə bir dəfə xəstələnmişdim. Gecən-gündüzün mənimlə keçdi, həkimlə yanaşı, əslində həkimdən daha çox sən məni müalicə etdin, sağaltdın. Qayğı, qulluq və sənin yüksək tibbi mədəniyyətin – belə demək mümkünsə, ailəmizə də, düçar olduğun ağır xəstəliyin müalicəsinə də kömək etdi. Evdə həkim qardaşından öyrənməyə başlamış, sonra ümumi tibbi biliklərə həvəs göstərmişdin. Ailənin sağlamlığını qorumaq zərurəti səni "ev həkimi" etmişdi. İnternet zamanında öyrənmək yolu daha açıq olmuşdu və sən bu yolu da yaxşı keçdin; bununla yanaşı, çağdaş tibb ilə uyğun gəlməyən şübhəli, amma reklam olunan, möcüzə kimi qələmə verilən ara müalicə üsullarına qəti baş qoşmadın.

Xoşbəxtlik fəlsəfəsi

Xəstələndiyin dövr, qəribə səslənsə də, həm də çox mənada çiçəkləndiyin dövr idi. Xəzər Universitetinin xoş bir təhsil və mədəniyyət ocağına çevrilməsi yolunda yorulmadan, həvəslə fəaliyyət göstərməyə davam etdin. Sənin-lə birlikdə Xəzər Universiteti nəzdində ibtidai və orta məktəb qurmaq qərarına gəldik. Bu məktəbə "Dünya məktəbi" adı verdik. Xəzər Universiteti və

Dünya məktəbinin, elə öz evimiz və bağımızın tərtibində də yüksək estetik duyğu, incə zövq sahibi olduğun göründü. Nəhayət, məni heyran edən musiqi duyumun bar verdi - mənim sözlərimə bir-birindən gözəl mahnılar bəstələməyə başladın.

Aramızda qadağan olunmuş mövzular yoxdu, ağlımıza gələn və lazım bildiyimiz hər şey barədə dadlı-dadlı söhbət edirdik – ailə, sevgi, universitet, məktəb, musiqi, elm, ədəbiyyat, tarix, dəniz, dağ, səfər, xəstəlik... Xəstəlik barədə nikbin düşüncələrin bizə ağlamağı-sızıldamağı deyil, həyatın dadını, ləzzətini duymağa, yaşamağa imkan verdi. Sən həyata baxışını sözlərlə ifadə edirdin: "Həyatımız çətinliklərlə, hətta faciələrlə doludur, bunu bilə-bilə yaşamağı, yaxşı yaşamağı, xoşbəxt olmağı bacarmaq lazımdır. İnsanlar xəstəliklərini, xüsusilə ağır sayılan xəstəliklərini ətrafdakılardan gizlətməyə çalışır, bununla da içinə qapanır və ya əllərini həyatdan üzürlər. Xəstəliyi qarşımıza çıxan bir problem kimi qəbul edib, həyatı dolu-dolu yaşamaq lazımdır". Sən bu həyat fəlsəfəsi ilə xoşbəxt yaşadın, elə-belə yaşamadın, qurdun, yaratdın, məni də, səni əhatə edən insanları da xoşbəxt etdin.

Hər halda, xəstəliyin bizi səfərbər etdi, zəruri saydığımız addımları atmağa başladıq. Xəstəliyin meydana çıxdığı ilk il çox qorxmuşduq. İngiltərədə yaşayan, həm özünün, həm həyat yoldaşının çox yaxşı işi olan Aygün balaca Altayın da daxil olduğu ailəsi ilə Bakıya köçməyə qərar verdi. O, sənin çətin günlərində, gələcəyə ümidimizin kövrək olduğu bir zamanda sənin yanaşı yaşamaq, qayğına qalmaq, sənin ünsiyyətdə olmaq üçün işini buraxıb, Bakıya gəldi. Aygün`gilin Bakıda yaşadıqları il yarım həyatımızın maraqlı dövrü idi. Sonda sən, "bala, mənim yanıma gəldiniz, qayğıma qaldınız, kefimizi qaldırdınız, çox sağ olun. İndi mən yaxşıyam, qayıdın gedin İngiltərəyə, mənə görə işinizdən geri qaldınız, gedin, həyatınızı istədiyiniz kimi qurun. İndi gediş-gəliş asanlaşıb, biz də gələcəyik, iş, ailə imkan verdiyi qədər siz də bura, öz evinizə gəlin". Ailəmizdə bir qayda qoymuşduq – kim harada, hansı ölkədə olur-olsun, imkan dairəsində böyük ailəmizin bir yerə yığışmasını təmin etməliyik. Xüsusilə yay aylarında birgə istirahət etməyi adətə çevirdik.

Mənim İnci Çiçəyim

"Oturum bir mahnı yazım" kimi iş prinsipin yoxdu. Mahnıların hər birinin arxasında bir xoş təsadüf, bir hadisə və ya hansısa bir ideya dayanırdı. Yadımdadır, bir qış gecəsində söhbət edirdik.

Ümumiyyətlə, mən gecə adamıyam; gecələr oxuyub-yazmağı sevirəm, uşaqlıqdan bəri həmişə belə olub, bu gün də belədir. Sən isə gecə vaxtında yatıb, səhər vaxtında durmaq istəyən təbii, normal insan idin. Bununla belə, mənim qəribəliyimi və qrafikimi nəzərə almalı olurdun. Geçə boyu çalışanda acır və yemək istəyirdim. Sən gecə yeməyim üçün xüsusi hazırlıq görürdün. Zaman keçdikcə, yaşa dolduqca sən də gecə həyatını uzatdın. Maraqlı gecə söhbətlərimiz olurdu, musiqiyə qulaq asır, filmə tamaşa edirdik və ya hərəmiz öz işimizlə məşğul olur, arada bərabər çay içirdik.

Yadımdadır, Kanada səfərinə hazırlaşırdım. Məktəbdə və universitetdə fransız dili ilə məşğul olmuş, sonra elmi fəaliyyətimlə bağlı ingilis dili öyrənmək lazım gəlmişdi. Səfər öncəsi ingilis söz və ifadələrinin tələffüzü ilə məşğul olurdum. Gecə yarı idi, hündür səslə tələffüz edirdim: "meet me" (səslənməsi: "miit mi"). Bir də gördüm gecə paltarında incik halda yanıma gəldin: "Nə istəyirsən mənnən, qoymazsan bir az gözümün acısını alam". Mən başa düşmədim: "Nə deyirsən? Səni çağırmadım ki..." Sən "necə yəni çağırmadın, səsin evi titrədir – dalbadal meyit, meyitmisən deyirsən". Məni gülmək tutdu, səni qucaqladım və vəziyyəti izah etdim. Sən də ürəkdən güldün.

Hə, bir qış gecəsi çay içir, söhbət edirdik. Birdən dilləndin: "ay Hamlet, bilirsən burnuma nə qoxusu gəldi? Landış! Landış yaz çiçəyidir, qışın ortasında hardan gəldi bu qoxu?" Və landışın incəliyi, rəngi, yetişmə coğrafiyası haqqında danışmağa başladın. Gülləri yaxşı tanıyırdın. Mən "azərbaycanca landışa nə deyirlər" deyə soruşdum, "bilmirəm" dedin. İş otağıma keçdim və landışa dilimizdə "inci çiçəyi" deyildiyini müəyyən etdim. Tənbəllik etməyib tez "İnci çiçəyi" adlı sadə bir şeir yazdım və "sən məni məst eyləyibsən, mənim İnci Çiçəyim, buyur!" deyə sənə təqdim etdim:

Sən gözələ gözüm düşüb,
Elin elimdən,
Dilin dilimdən.

Fələk elçi düşsə belə
Verməm əlimdən.

Naz eyləsən, əl ataram
Hər fəndi-felə,
Əlləşmə göylə,
Eşqimə aç qucağını,
Şükürlər eylə.

Sənsiz gülşənim puç olar,
Duy bu gerçəyi,
Çöllər göyçəyi.
Sən məni məst eyləyibsən,
İnci çiçəyi.

Qısa bir zaman keçdi, "İnci çiçəyi" mahnısını yazdın. Həyat eşqi ilə dolu fövqəladə gözəl mahnı alındı. Bütün təvazökarlığınla yanaşı güclü, incə, şən ruhlu qeyri-adi mahnı doğulduğunu özün də gördün, hiss etdin. Yadımdadır, bir dəfə rəfiqən, pianoçu Yeganə xanım Axundova bizdə idi, ona "Yeganə, deyəsən bir mahnı yazmışam, bax, gör bir şeyə dəyərmi?" dedin və mahnını çalıb oxudun. Yeganə xanım mat-mat, heyranlıqla sənə baxırdı. Onu, istedadlı musiqiçini təəccübləndirən və sevindirən tək sənin gözəl bəstən deyildi, həm də səndəki nikbinlik, həyat sevgisi idi; sən sanki xəstəliyini unutmuş, əvvəlki kimi şən, musiqili həyatını yaşayırdın, hətta daha yüksəyə qalxmış, mahnı yaradıcılığına qədəm qoymuşdun. Yeganə xanım mahnını çox bəyəndi, həyəcanlandı və "Nailə xanım, sizə pərəstiş edirəm, mən sizdən yaşamağı öyrənirəm" dedi.

Bu dəfə mənim "bu mahnını Brilliant xanım yaxşı oxuyar" fikrimi bəyəndin. Mahnıların studiyada oxunması və yazılması prosesində özün də iştirak edir, arzu və qeydlərini bildirirdin. Brilliant xanım mahnıda nəqərat rolu oynayan ikinci beşliyə "Əlləşmə göylə" və "Şükürlər eylə" ifadələrinə bənzər daha bir ifadənin artırılmasını xahiş etdi və mən mətnə kitab variantında olmayan "Tərs olma böylə" ifadəsini daxil etdim. Brilliant xanım gah "Tərs olma böylə", gah da "Naz etmə böylə" deyə oxudu. "İnci çiçəyi" çox sevilən bir mahnıya döndü. Mahnıya həvəskar müğənnilər də müraciət etdilər.

Zaman keçdikcə "İnci çiçəyi" sənin rəmzinə çevrildi. Dünya məktəbi konfrans-konsert salonuna "İnci çiçəyi salonu" adı verildi, şəninə "İnci çiçəyi" adlı film çəkildi.

"Lalə dözməz vüsalə"

Yaz ayları səfərlərimiz artırdı. Yaz hər yerdə gözəldir. Bir neçə maşınla Gürcüstana, ata evimizə getməyə qərar verdik. Yolda yaşıl çölü qırmızı rəngə boyayan lalələri görəndə həyəcanlandın: "Nə gözəldir, maşını saxlayın mümkünsə". Ağsaqqalımız Camal müəllim, qohum-qardaş və dostlar lalələrin eşqilə çölə səpələndik. Sən sanki lalələrlə oynayırdın – onları əlinlə sığallayır, onların arasında oturur, durur, gəzirdin. "Laləni dərmək yox, yerində seyr etmək maraqlıdır" dedin. Sənin bu sözün məni düşündürdü: "Zəriflik, işıq, alov toxunmaq üçün deyil, gözəlliyi duymaq, onlardan ilham, işıq və istilik almaq üçündür". Və "Lalə" şeirini yazdım.

İncə alov tək dikəldi,
Parladı yandı lalə,
Gözümüzə işıq gəldi,
Könül cumdu xəyalə.

Yanağı al-qırmızıdı,
Göydə yazılmış yazıdı,
Allahın doğma qızıdı,
Əhsən o mahcəmalə.

Dağlı, çöllü, meşəlidi,
Sərxoş, ürkək, ya dəlidi,
Hər halda çox nəşəlidi,
Gəlməyəydi zavalə...

Onu işvəkar sanmayın,
Ona dəyib toxunmayın,
Amandır, vüsal ummayın,
Lalə dözməz vüsalə...

Bakıya dönəndə yenə piano arxasına keçdin və sanki mənə məlum olmayan bir oyun havasına bənzər bir şey çalmağa başladın. Bu dəfə heç nə soruşmadım, gözlədim. Bir qədər sonra "Lalə" şeiri əsasında mahnı yazmağa başladığını söylədin. Çox gözəl, oynaq bir hava bəstələməkdə idin. "Sonluğu alınmır" deyə mahnını bitirə bilmirdin. Ümumiyyətlə, mahnının hər nöqtəsi üzərində düşünür, səslənmənin təmizliyinə, hamarlığına xüsusi fikir verir, mahnıdakı dalğalanma ilə təbii ahəngi bir-birinə qovuşdurmağa çalışırdın. Əlbəttə, yaradıcı xəyalı və axtarışı sözlərlə təsvir etmək mümkün deyil. Qərarvermədə hansısa estetik duyğu rol oynayır. Beləliklə, mahnını yazdın, amma, mahnının son notlarını hələ tapa bilmirəm deyə axtarışda oldun.

İrana dəvət olunmuşdum. Astarada sərhəd məntəqəsini keçirdim. Cib telefonum zəng çaldı, götürdüm, sənin şən, cingiltili səsin gəldi: "Hamlet, tapdım!". Mən anlamadım: "Nə deyirsən, nəyi tapdın?" "Lalə`ni deyirəm, mahnını, sonluğunu tapdım, bitirdim, mahnı hazırdır" deyib, həmin yeri – son dördlüyü avazla oxudun, təkrarlama variasiyalarını, uzatmaları nümayiş etdirdin. Mən "əla" deyib, səni təbrik etdim. Bu mahnı əvvəlcə Brilliant xanımın ifasında estrada üslubunda, sonra Aygün Bəylərin ifasında xalq çalğı alətlərinin müşayiəti ilə gözəl səsləndirildi; hər ikisi çox yaxşı təsir bağışladı. Gözəl oyun havası üslubunda yazılmış bu mahnının əsasında bir neçə quruluşda rəqs də qoyuldu. Gül-çiçək vurğunu idin. Evimizi, bağımızı, Dünya məktəbini gül-çiçəyə, yaşıllığa bürümüşdün. Gül-çiçəyi qoxulayır, əzizləyir, onlarla danışır, onlara mahnı oxuyurdun. Mənim "Nərgizim" və "Bənövşə" adlı dərc olunmamış şeirlərim vardı, onları sənə oxumamışdım, uyğun bir vaxtda oxuyacaqdım və bəlkə də sən yeni bir melodiya zümzümə edəcəkdin...

"Gözəldir"

Bu ərəfədə daha bir mahnı bəstələdin. "Gözəldir" adlı qoşma yazmışdım. Onu aşıq havası üstündə oxumuşdular. Sən gözəl bir romans yazdın. Mahnı üçün şeirdəki yeddi dördlüyün dördünü seçdin (müğənniyə "dördlüklərdən birini başqası ilə əvəz edə bilərsən" deyirdin):

Bulaq çaya dönür, axır şırhaşır,
Sevdalı meşədə kim pıçıldaşır?
Hər yanda möcüzə, xəyalım çaşır,
Aran da gözəldir, dağ da gözəldir!

Torpaqdan uzaqda, tozdan uzaqda,
Hərcayi, töhmətli sözdən uzaqda,
Qol-qola gəzməyə gözdən uzaqda
Bağça da gözəldir, bağ da gözəldir!

Rəng verər gözəlin üzü, rəng alar,
Utanıb qızarar, dərddən saralar,
Binadan aybəniz, ya əsmər olar,
Qara da gözəldir, ağ da gözəldir!

Bir kəs ki, olubdur eşq əvarəsi,
Sağalmaz qəlbini didən yarəsi,

Öldürər, dirildər, yoxdur çarəsi,
Ölən də gözəldir, sağ da gözəldir!

Bu romansı Samir Cəfərov fövqəladə gözəl oxudu. Daha sonra onu İlqar Muradov, Fərid Əliyev və digər müğənnilər də həvəslə ifa etdilər.

"Külək və qız"

Universitetlərarası əməkdaşlıq proqramı üzrə növbəti səfərə çıxmışdıq, İtaliyada, o cümlədən, Roma şəhərində görüşlər keçirir və gəzirdik. Səhər hoteldən çıxmazdan əvvəl yuyunub, üz-gözümü səliqəyə salırdım. Səsini eşitdim, sanki mahnı oxuyurdun. Diqqət etdim – sözsüz mahnı, vokaliz idi oxuduğun və italyan musiqisinə bənzəyirdi. Çoşmuşdun, üzün gülür, uca melodik səsin gəlirdi. Soruşdum: "Nə oxuyursan, nədir oxuduğun?". Çiynini çəkib oxumağına davam etdin, bir az sonra, "bilmirəm bu nədir, beynimə düşüb, çıxmır" deyib, əllərini yelləyə-yelləyə daha aşağı səslə musiqini mənə başa salmağa çalışdın.

Mahnılar adətən iki cür yaranır, əksər hallarda bəstəkar bir şeirə rast gəlir və onu musiqiyə düzür, mahnı yazır. Digər halda isə, bəstəkarın beyninə bir melodiya düşür, sonra ona uyğun şeir axtarır. Deyəsən, bu dəfə yaşadığımız İtaliya təəssüratı ilə sən bir melodiya yaratmışdın. İki gündən sonra musiqini sanki formalaşdırdın. Oxuya-oxuya "buna uyğun söz ver" dedin. Mən həm musiqinin heca ölçüsünü, həm ruhunu anlamalı və sənə şeir tapmalı idim. Bir qədər fikirləşdikdən sonra tələbə vaxtı yazdığım və küləyin qıza qarşı sevgisini tərənnüm edən "Külək və qız" adlı şeirin namizədliyini irəli sürdüm.

Külək oxşar yanağını,
Öpər ürkək dodağını.
Yellədəndə köynəyini,
Qaldıranda ətəyini
Külək dəmdən fəğan eylər,
Tamaşaya çıxar göylər.

Saçlarının dalğasında
Qəvvas olub üzər külək.
Köynəyinin yaxasında,
Vücudunda gəzər külək.

Əsər, coşar, hücum eylər,
İncə vücud yelə neylər?
Dəf etməyə taqətmi var,
Zərif çiçək selə neylər?

Bəlkə dəli bir eşqi var,
O eşq ilə diyar-diyar
Əsər külək, nəğmə söylər,
Tamaşaya çıxar göylər?!

Əvvəlcə şeirə etiraz edib başını yelladin, sonra elə ki, sənin melodiyanı bu şeirin sözləri ilə birlikdə oxumağa başladıq, "hə, deyəsən düz gəlir" dedin. Təbii ki, artıq seçilmiş şeirlə musiqi arasındakı əlaqəni dəqiqləşdirdin. Bakıya qayıdanda mahnının üzərində işləyib, onu cilaladın. Səsi və kübarlığı ilə Azərbaycanda yaxşı tanınmış gürcü qızı Manana bu zərif lirik mahnını ustalıqla ifa etdi.

(*Ardı var*)



XƏZƏR UNİVERSİTETİNİN MƏZUNU YÜKSƏK VƏZİFƏYƏ TƏYİN EDİLMİŞDİR

KHAZAR UNIVERSITY GRADUATE APPOINTED TO SENIOR POSITION

Azərbaycan Respublikası Prezidentinin 23 dekabr 2021-ci il tarixli sərəncamı ilə Məmməd Aslan oğlu Abbasbəyli Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin rəisi təyin edilmişdir.

Məmməd Abbasbəyli 1975-ci ildə Gəncə şəhərində anadan olub. Xəzər Universitetinin Beynəlxalq əlaqələr fakültəsində bakalavr dərəcəsi və Bakı Dövlət Universitetinin Hüquq fakültəsində ali təhsil alıb.1999-cu ildə ABŞ-ın Perdyu Universitetində və 2000-ci ildə ABŞ-nın Corc Vaşinqton Universitetinin hüquq fakültəsinin hüquq üzrə magistri dərəcələri alıb.

2000-ci ildən ABŞ-ın Nyu-York ştatında Vəkillər Kollegiyasının (New York Bar) həqiqi üzvüdür.

Əmək fəaliyyətinə 2000-ci ildə ABŞ-nın Nyu-York şəhərində yerləşən "Salans Hertzfeld & Heilbronn" hüquq şirkətində başlayıb, daha sonra 2003-cü ilədək firmanın Bakı ofisində işini davam etdirib.

2004-cü ildən "Azpetrol International Holdings B.V."də, "EUPEC Pipe-Coatings LLC" və "BP Group kimi bir sıra iri xarici sənaye və investisiya korporasiyalarında hüquqşünas, hüquq bölməsinin rəhbəri və baş menecer vəzifələrində çalışıb. 2016-cı ildə Azərbaycan Alpinizm Federasiyasının prezidenti olub. 2019-cu ildə İqtisadiyyat nazirinin müşaviri vəzifəsində çalışıb.

Ötən il İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin rəis müavini vəzifəsinə təyin edilib. Eyni zamanda, Sahibkarlığın İnkişafı Fondunun Müşahidə Şurasının üzvü və Apellyasiya Şurasının üzvü təyin olunub.

Evlidir, 3 övladı var.

Ölkə saytları təyinat haqqında xəbər yayımlamışdır.

By the order of the President of the Republic of Azerbaijan dated December 23, 2021, Mammad Aslan oglu Abbasbayli was appointed Head of the State Service for Antimonopoly and Consumer Market Control under the Ministry of Economy of the Republic of Azerbaijan.

Mammad Abbasbayli was born in 1975 in the city of Ganja. He holds a bachelor's degree in international relations from Khazar University and a law degree from Baku State University. He received a master's degree in law from Purdue University in 1999 and a law degree from George Washington University in 2000.

He has been a full member of the New York Bar since 2000.

He started his career in 2000 at the law firm Salans Hertzfeld & Heilbronn in New York, USA, and then worked in the company's Baku office until 2003.

Since 2004, he has worked as a lawyer, head of law department and general manager at Azpetrol International Holdings B.V., a number of major foreign industrial and investment corporations, including EUPEC Pipe-Coatings LLC and BP Group. In 2016, he became the President of the Azerbaijan Mountaineering Federation. In 2019, he worked as an adviser to the Minister of Economy.

Last year, he was appointed deputy head of the State Service for Antimonopoly and Consumer Market Control under the Ministry of Economy. At the same time, he was appointed a member of the Supervisory Board of the Entrepreneurship Development Fund and a member of the Board of Appeals.

He is married and has 3 children. The country's websites published news about the appointment.

https://www.azerbaycan24.com/prezidentin-bu-gun-teyin-etdiyi-xidmet-reisi-kimdir/

"XƏZƏR"İN MƏZUNU YENİ VƏZİFƏDƏ

KHAZAR UNIVERSITY GRADUATE AT NEW POSITION



Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin İnsan resurslarının idarə edilməsi şöbəsinə yeni rəis təyin olunub. Bununla bağlı nazir Rəşad Nəbiyev 2022-ci il yanvarın 12-də əmr imzalayıb. Əmrə əsasən, sözügedən vəzifə Fidan Fərzəliyevaya həvalə edilib.

O, Bakıda Qərb Universitetində bakalavr, Xəzər Universitetində magistr, Böyük Britaniyanın Nottinqem Trent Universitetində isə "İnsan Resurslarının idarə edliməsi" ixtisası üzrə doktorantura təhsili alıb, İngiltərədəki İnsan Resurslarının İdarə Edilməsi Peşəkarları Assosiasiyasının (CIPD) üzvüdür.

F.Fərzəliyeva BP şirkətinin İnsanlar və mədəniyyət (keçmiş İnsan resursları) departamentinin direktoru olub, 18 il şirkətdə müxtəlif rəhbər vəzifələrdə işləyərkən, həyata keçirdiyi uğurlu layihələrə və əldə etdiyi proqressiv nəticələrə görə, ötən ilin yanvar ayından BP-nin ümumdünya insan hüquqlarının müdafiəsi üzrə mütəxəssisi təyin olunub. O, bir sıra insan resurslarının tranformasiyası layihələrində iştirak və rəhbərlik edib.

Ailəlidir, üç övladı var.

Bir sıra saytlar bu barədə xəbər yayımlayıb.

A new head has been appointed to the Human Resources Management Department of the Ministry of Digital Development and Transport. In this regard, Minister Rashad Nabiyev signed an order on January 12, 2022. According to the order, the post was assigned to Fidan Farzaliyeva.

She received her bachelor's degree from Western University in Baku, a master's degree from Khazar University, and a doctorate in Human Resource Management from Nottingham Trent University in the United Kingdom. He is a member of the British Chartered Institute of Personnel Development (CIPD).

Ms.Farzaliyeva has been the Director of BP's People and Culture (formerly Human Resources) Department. She has been a BP Global Human Rights Specialist since January last year for her successful projects and progressive results while working in various senior positions at the company for 18 years.

She has participated in and led a number of human resource transformation projects.

She is married and has three children.

A number of websites published news about it.

https://www.mia.az/w1027428/nazir-resad-nebiyev-fidan-ferzeliyevaya-yuksek-vezife-verdi-foto-2022-01-12-183238 və s.

BİLECİK'DƏKİ SOYDAŞLARIMIZI BİR ARAYA GƏTİRƏN TƏŞKİLAT

2022-ci il yanvarın 11-də bayraqdar.info xəbər portalı "Həmsəhbət" rubrikasında Xəzər Universitetinin məzunu, Türkiyənin Bilecik Şeyh Edebali Universitetinin Mühəndislik Fakültəsi Biomühəndislik Bölümünün dosenti, Bilecik Azərbaycan Qardaşlıq Dərnəyinin yaradıcısı və sədri Rafiq Qurbanovla müsahibə dərc etmişdir.

Bu gün dünyanın müxtəlif yerlərində, o cümlədən qardaş Türkiyədə diaspor təşkilatlarımız fəaliyyət göstərir. Belə təşkilatlardan biri də Bilecik Azərbaycan Qardaşlıq Dərnəyidir.

Məlumat üçün bildirək ki, bu Dərnək yeni qurulub. Daha doğrusu, gələn ay dərnəyin yaradılmasının bir ili tamam olur. Dərnək Türkiyə Daxili İşlər Nazirliyinin Bilecik Valiliyi Sivil Toplumla İlişkiler Müdürlüyü tərəfindən 02.02.2021-ci il tarixində rəsmi olaraq qeydiyyata alınıb.

Bu barədə *bayraqdar.info*-ya özəl müsahibəsində Bilecik Azərbaycan Qardaşlıq Dərnəyinin sədri Rafiq Qurbanov məlumat verib.



TÜRKSOY-un Baş katibi Prof. Düsen Kaseinov ve Bilecik Azərbaycan Qardaşlıq Dərnəyinin sədri Rafiq Qurbanov

Dərnək haqqında ətraflı məlumata keçməzdən öncə vurğulayaq ki, R.Qurbanov 1983-cü ildə Azərbaycanda, Saatlı rayonunda anadan olub. O, bakalavr təhsilini Xəzər Universitetinin Tibbi Biologiya fakultəsində, magistratura və doktorantura təhsilini isə Türkiyənin Orta Doğu Texniki Universitetinin Biokimya fakültəsində alıb. 2016-2021-ci illərdə Bilecik Şeyh Edebali Universiteti Fən və Ədəbiyyat Fakültəsi Molekulyar Biologiya və Genetika Bölümündə Yrd. Dosent Dr. kimi çalışıb. Hazırda Bilecik Şeyh Edebali Universiteti Mühəndislik Fakültəsi Biomühəndislik Bölümünün dosentidir.

R.Qurbanov Avropa və Amerikanın tanınmış elmi jurnal və nəşriyyatlarında çap olunmuş onlarla məqalə və kitab fəsillərinin müəllifidir. Eyni zamanda, Tübitak və Türkiyə universitetlərinin maliyyə dəstəyi ilə reallaşdırılan bir çox layihələri həyata keçirib.

Bilecik Azərbaycan Qardaşlıq Dərnəyi qısa zamanda çoxsaylı işlər görüb

Bayraqdar.info-ya özəl müsahibəsində öncə rəhbərlik etdiyi dərnəyin yaranması məsələsinə toxunan R.Qurbanov deyib ki, bu şəhərdə azərbaycanlılar fərd olaraq hər zaman fəallıq göstəriblər: "Burada yaşayan və işləyən, o cümlədən təhsil alan soydaşlarımız bir fərd olaraq hər zaman fəallıq göstərib, Azərbaycanla bağlı məsələlərdə ön sırada olublar. Lakin təəssüflər olsun ki, ötən ilə qədər təşkilatçılıq baxımından bunu demək

mümkün deyildi".

Müsahibimiz qeyd edib ki, o, və hazırda dərnəkdə sədr müavini olan Elçin Mustafayev Bilecik kimi tarixi bir şəhərdə Azərbaycan diaspor təşkilatının olması üçün, necə deyərlər, qollarını çırmayıb, müvafiq addımlar atıblar: "Quruluş və qurtuluş şəhəri olan, tarixi Osmanlı dövlətinin qurulduğu Bilecik şəhərində belə bir təşkilatın olması üçün hərəkətə keçdik. Buradakı digər fəal soydaşlarımızın da iştirakı ilə dərnəyimizi qurduq. Sonra isə lazım olan sənədləri müvafiq quruma təqdim etdik. Beləliklə, ötən il fevralın 2-dən etibarən rəsmi fəaliyyətə başladıq. Onu da qeyd edim ki, bizim təşkilat qısa zaman ərzində Azərbaycan Respublikasının Diasporla İş üzrə Komitəsi tərəfindən də qeydiyyata alındı".

Türk dünyası və Azərbaycanla əlaqələrin möhkəmləndirilməsi diqqət mərkəzindədir. Bu məqamda bildirmək yerinə düşər ki, qurulmasından heç bir il belə keçməməsinə baxmayaraq, Bilecik Azərbaycan Qardaşlıq Dərnəyi bir çox uğurlara imza atıb: "Beləliklə, rəsmi fəaliyyətə başlayarkən ilk işimiz türk dünyası və Azərbaycanla əlaqələrin möhkəmləndirilməsi istiqamətində müvafiq addımlar atmaq oldu. Fəaliyyətimizin başlamasının pandemiya dövrünə təsadüf etməsi bizi bəzi planlarımızda dəyişiklik etmək zorunda qoydu. Bununla belə, pandemiya dövrünün şərtlərinə əməl etməklə bu dövr ərzində türk dünyasının daha da dərindən inteqrasiyasına xidmət edən bir çox görüş və tədbirlər keçirdik.

Məsələn, 2021-ci ildə TÜKRSOY və Bilecik Şeyh Edebali Universiteti ilə birgə fotoqraf sərgisi təşkil etdik. "Müstəqilliklərinin 30-cu ilində Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan – TÜRKSOY fotoqraf sərgisi" böyük maraqla qarşılandı. Bu tədbiri "Kitabxanalar həftəsi" çərçivəsində martın 30-da gerçəkləşdirdik. Eyni zamanda, bizim təşkilatçılığımızla TÜRKSOY tərəfindən türk dünyası müəlliflərinin 70 kitabı universitetin kitabxanasına hədiyyə edildi.

Mən yaranmış şəraitdən istifadə edərək hər zaman bizə yaxından dəstək verən Bilecik Şeyh Edebali Universitetinin rektoru hörmətli Prof. Dr. Şükrü Beydemirə, o cümlədən təşkilatımız yeni yaranarkən Bilecik valisi olan hörmətli Bilal Şentürkə dərin təşəkkürümü bildirmək istəyirəm".

Bu müddət ərzində Dərnək təmsilçiləri bir sıra görüşlər də keçirib: "Bu müddətdə Bilecik Valisi Dr. Kemal Kızılkaya, Bələdiyyə başqanı Semih Şahin, Bilecik Şeyh Edebali Üniversitetinin rektoru Prof. Dr. Şükrü Beydemir, Bilecik AK Parti millət vəkili Selim Yağcı, Bilecik Gençlik ve Spor İl müdiri Yasin Özdemir, Bilecik Kültür ve Turizm İl müdiri Serkan Bircanla görüşlər keçirmişik. Bu görüşlərin hər birinin müsbət nəticələri olub".

Bilecikdə 20 Yanvarla bağlı anım tədbiri keçiriləcək

Gələcək planlara gəlincə, R.Qurbanov ilk olaraq 20 Yanvar faciəsinin ildönümü ilə əlaqədar tədbirin keçiriləcəyini bildirib: "Bilecik Valiliyinin və Bələdiyyəsinin razılığını alaraq, yanvarın 20-də anım rədbiri keçirməyi planlaşdırırıq. Ən böyük və səs gətirəcək tədbirimiz isə Novruz bayramında olacaq. Belə ki, 15-21 mart tarixləri arasında bayram şənliyi keçirməyi planlaşdırırıq. Bu bayram şənliyində TÜRKSOY rəsmilərinin, o cümlədən Bilecikdəki digər türkdilli xalqların təmsilçilərinin iştirakını nəzərdə tuturuq. Osmanlının qurulduğu şəhərdə türklüyün adına layiq bir Novruz şöləni keçirəcəyik".

Nadir Azəri
əməkdar jurnalist
https://www.bayraqdar.info/?p=20012

INTERVIEW OF KHAZAR UNIVERSITY GRADUATE TO *BAYRAQDAR.INFO*

On January 11, 2022, the news portal *bayraqdar.info* published an interview with Rafig Gurbanov, a graduate of Khazar University, associate professor of Bioengineering at the Faculty of Engineering, Bilecik Sheikh Edebali University, Turkey, founder and chairman of the Bilecik Azerbaijan Brotherhood Association. (Author Nadir Azeri).

The interview discusses the establishment of the Azerbaijani Diaspora Organization in Bilecik and the establishment and activities of the Bilecik Azerbaijan Brotherhood Association.

https://www.bayraqdar.info/?p=20012

XƏZƏR UNİVERSİTETİNİN ƏMƏKDAŞLARI TÜRKİYƏ UNİVERSİTETLƏRİNDƏ RƏSMİ SƏFƏRDƏ

KHAZAR UNIVERSITY STAFF MEMBERS PAY OFFICIAL VISIT TO TURKISH UNIVERSITIES

Xəzər Universitetinin əməkdaşları-Təbiət elmləri, sənət və texnologiya yüksək təhsil fakültəsinin dekanı Səidə Şərifova, Həyat elmləri departamentinin koordinatoru Cavid Ocaqi və Mexanika mühəndisliyi departamentinin koordinatoru Mehdi Kiyasatfar 2021-ci il dekabrın 13-17-də Türkiyənin Boğaziçi Universiteti, Sabancı Universiteti, Beykoz Universiteti, Üsküdar Universiteti, Kent Universiteti, TED Universiteti və Atılım Universitetində rəsmi səfərdə olmuşlar.

On December 13-17, 2021, staff members of Khazar University - Saida Sharifova, Dean of the Graduate School of Sciences, Arts and Technology, Javid Ocagi, Coordinator of the Department of Life Sciences, and Mehdi Kiyasatfar, Coordinator of the Department of Mechanical Engineering, visited Bogazici University, Sabanci University, Beykoz University, Turkey. They paid official visits to Uskudar University, Kent University, TED University and Atılım University.



Qeyd edilən universitetlərin müxtəlif yüksək təhsil fakültələri və fakültələrinin dekanları və əməkdaşları, eləcə də beynəlxalq əlaqələr ofislərinin nümayəndələri ilə görüşlər keçirilmiş, tələbə və kadr mübadiləsi, ikili diplom proqramlarının rəsmiləşdirilməsi, birgə seminarların, intensiv kursların, yay məktəblərinin təşkili, birgə elmi tədqiqat mərkəzlərinin yaradılması və tədqiqatların aparılması, doktorantlara elmi məsləhətçilərin təyini və s. sahələrdə müzakirələr aparılmış və razılıq əldə olunmuşdur.

During the visit, meetings were held with graduate schools of the mentioned universities and their deans and employees, as well as representatives of international relations offices, and discussions were held and agreement was reached on the exchange of students and staff, preparation and formalization of dual degree programs, organization of joint seminars, intensive courses, summer schools, establishment of joint research centers and research, appointment of scientific advisers to doctoral students, etc.



"MƏDƏNİYYƏTLƏRARASI SƏRİŞTƏ" MÖVZUSUNDA SEMİNAR

SEMINAR ON "INTERCULTURAL COMPETENCE"

2021-ci il dekabrın 29-da İqtisadiyyat və menecment departamentinin təşkilatçılığı ilə Xəzər Universitetinin konfrans zalında "Mədəniyyətlərarası sərişdə" mövzusunda nəzəri-praktik seminar keçirilmişdir. Tədbiri giriş sözü ilə açan departamentin koordinatoru Asəm Məmmədov seminarda təlimçi qismində iştirak edən turizm üzrə ekspert, "Silk Road School" təhsil müəssisəsinin təsisçisi və direktoru Hüseyn Həsənovu tədbir iştirakçılarına təqdim etmiş, təlimin məqsədi, əldə olunacaq bilik və təcrübə haqqında iştirakçıları məlumatlandırmışdır.

Təlim zamanı son zamanlar vüsət alan qloballaşma kontekstində mədəniyyətlərarası ünsiyyət məfhumunun nəzəri-konseptoloji əsası izah edilmiş, göstərilən təcrübi nümunələrlə iştirakçılarda mədəniyyətlərarası ünsiyyətin əhəmiyyətinə dair dolğun təəssürat yaradılmışdır. "Lewis Model"-i əsasında səciyyəvi xüsusiyyətləri nəzərə alınmaqla xalqların təsnifatı təsvir edilmiş, qeyd olunan model əsasında müxtəlif xalqlar təhlil edilmişdir. Bundan başqa, müxtəlif mədəniyyətlərdən olan insanların qarşılıqlı təması, ünsiyyəti zamanı yaranan sosial-psixioloji prosess "DIEs Technique" əsasında mərhələli şəkildə izah olunmuşdur.

Təlimin davamında xalqlar arasında mədəni müxtəlifliyin sosial həyatda, eləcə də iş mühitində doğura biləcəyi çətinliklər göstərilmiş, belə situasiyaların effektiv idarəsinə dair praktik tövsiyələr verilmişdir.

Yekunda turizm sektorunda mədəni müxtəlifliyin xidmət keyfiyyəti və müştəri məmnuniyyətinə müstəsna təsiri vurğulanmışdır.

On December 29, 2021, a theoretical-practical seminar on "Intercultural Competence" was held by the Department of Economics and Management in the conference hall of KhazarUniversity. In his introductory remarks, the coordinator of the department Asam Mammadov introduced the expert on tourism, founder and director of "Silk Road School" Huseyn Hasanov, who participated in the seminar as a trainer, and informed the participants about the purpose of the training, knowledge and experience to be obtained.

During the training, the theoretical and conceptual basis of the concept of intercultural communication in the context of globalization was explained, and the participants were given a full impression of the importance of intercultural communication with the provided practical examples. Based on the Lewis Model, the classification of peoples was given taking into account their characteristics, and different peoples were analysed on the basis of the mentioned model. In addition, the interaction of people from different cultures, the socio-psychological process that occurs during communication is explained in stages on the basis of "DIEs Technique".

During the training, the difficulties that cultural diversity between peoples can cause in social life, as well as in the work environment were shown, and practical recommendations were given for the effec_ tive management of such situations.

At the end of the seminar the exceptional impact of cultural diversity in the tourism sector on service quality and customer satisfaction was highlighted.

HƏDƏF KURSLARININ İDARƏ HEYƏTİ İLƏ GÖRÜŞ

MEETING WITH BOARD OF HADAF COURSES





Yanvarın 6-da Xəzər Universitetində Hədəf Kurslarının idarə heyəti ilə görüş keçirilib. Universitetin İdarəetmə və tələbələrlə iş üzrə prorektoru İsaxan İsaxanlı qonaqları salamlayaraq, təhsil müəssisələrinin qarşılıqlı əməkdaşlığının əhəmiyyətini vurğulayıb, universitetin tələbə kontingenti və potensialı haqda geniş məlumat verib.

Universitetin İctimai əlaqələr və media üzrə direktoru Əlövsət Əmirbəyli universitetin ölkə daxilində və beynəlxalq aləmdəki nüfuzu və məzunların iş imkanları barədə fikirlərini bölüşüb. Universitetin Dillər və ədəbiyyatlar departamentinin müəllimi Ülvi Babasoy Xəzər Universieti haqda təqdimatla çıxış edib.

Hədəf Kurslarının icraçı direktoru Emin Sadiqov kursların tədris prosesi, sınaq imtahanları və təhsillə bağlı layihələri haqqında geniş məlumat verib. Hədəf Kurslarının baş direktorunun müavini, tarix üzrə fəlsəfə doktoru Elvin Əliyev isə Hədəf Kurlarının nəşrlərini təqdim edib.

Sonda tərəflər təhsillə bağlı ortaq layihələrin keçirilməsi ilə bağlı razılığa gəliblər.

On January 6, a meeting was held with Board of Hadaf Courses at Khazar University. Welcoming the guests, Isakhan Isaxanli, Vice-Rector for Management and Student Affairs, stressed the importance of mutual cooperation between educational institutions, and gave detailed information about the university's contingent of students and potential.

Alovsat Amirbayli, Director of Public Relations and Media of the University, shared his views on the university's reputation in the country and in the international arena and the job opportunities of graduates. Ulvi Babasoy, the lecturer at the University's Department of Languages and Literature, delivered a presentation about Khazar University.

Emin Sadigov, Executive Director of Hadaf Courses, gave detailed information about the teaching process of the courses, practice exams and educational projects. Elvin Aliyev, Deputy Director General of Hadaf Courses, Doctor of Philosophy in History, presented the publications of Hadaf Courses.

In the end, the parties agreed to hold joint projects on education.

PROFESSOR, AKADEMİK HAMLET İSAXANLI APDU VƏ GEOFGE WASHINGTON UNİVERSİTETİNİN BİRGƏ MAGİSTR PROQRAMI ÜZRƏ TƏHSİL ALAN TƏLƏBƏLƏRİ QARŞISINDA QONAQ-MÜHAZİRƏÇİ KİMİ ÇIXIŞ ETDİ

PROFESSOR, ACADEMICIAN HAMLET ISAKHANLI DELIVERED A SPEECH AS A GUEST SPEAKER FOR ASPU AND GEORGE WASHINGTON UNIVERSITY'S JOINT MASTER'S PROGRAM STUDENTS.

Yanvarın 6-da Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor, akademik Hamlet İsaxanlı Azərbaycan Dövlət Pedaqoji Universiteti (APDU) və ABŞ-ın Geofge Washington Univerrsitetinin birgə magistr proqramı üzrə təhsil alan tələbələri qarşısında qonaq-mühaziraçi (Guest-speaker) kimi çıxış etdi. O, ali təhsilin idarə olunması mövzusunda öz təcrübəsindən, Xəzər Universitetinin yaranma və idarə olunmasından, eləcə də dünya təcrübəsindən danışdı, tələbələrin çoxsaylı suallarına cavab verdi.

Məruzə ətrafında geniş müzakirə aparıldı.

Sonrakı görüşlərin Xəzər Universitetində keçirilməsi planlaşdırıldı.

On January 6, Professor, Academician Hamlet Isakhanli, Founder of Khazar University and Chairman of the Board of Directors and Trustees, delivered a speech as a guest speaker to the students of the Azerbaijan State Pedagogical University and George Washington University in the United States. He spoke about his experience in higher education management, the establishment and management of Khazar University, as well as world experience, and answered numerous questions from students.

His speech was widely discussed.

The next meetings were planned to be held at Khazar University.

XƏZƏR UNİVERSİTETİNİN VEBSAYTLARINDA YERLƏŞDİRİLMİŞ XƏBƏRLƏR HAQQINDA MÜQAYİSƏLİ MƏLUMAT

COMPARATIVE INFORMATION ABOUT THE NUMBER OF NEWS POSTED ON UNIVERSITY'S WEBSITE

Xəzər Universitetinin vebsaytı (*www.khazar.org*): 2008 - 2021 - ci illər

2008 – 97; 2009 – 149; 2010 – 274; 2011 – 357; 2012 – 476; 2013 – 535; 2014 – 610; 2015 – 700; 2016 – 547; 2017 – 702; 2018 – 700; 2019 – 775; 2020 – 516; 2021 – 705.

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor, akademik Hamlet İsaxanlının vebsaytı (*www.hisaxanli.org*): 2009 - 2021 - ci illər

2009 – 81; 2010 – 125; 2011 – 162; 2012 – 144; 2013 – 156; 2014 – 159; 2015 – 146; 2016 – 158; 2017 – 126; 2018 – 175; 2019 – 121; 2020 – 77; 2021 – 117.

"Xəbər-News"qrupu

Khazar University Website (*www.khazar.org*): 2008-2021-ci illər

2008 – 97; 2009 – 149; 2010 – 274; 2011 – 357; 2012 – 476; 2013 – 535; 2014 – 610; 2015 – 700; 2016 – 547; 2017 – 702; 2018 – 700; 2019 – 775; 2020 – 516; 2021 – 705.

Website of Professor Hamlet Isakhanli, Founder of Khazar University and Chairman of the Board of Directors and Trustees: (*www.hisaxanli.org*) 2009-2021-ci illər

2009 – 81; 2010 – 125; 2011 – 162; 2012 – 144; 2013 – 156; 2014 – 159; 2015 – 146; 2016 – 158; 2017 – 126; 2018 – 175; 2019 – 121; 2020 – 77; 2021 – 117.

"Khabar-News" group





XƏZƏR UNİVERSİTETİ POTENSİAL MƏKTƏB DİREKTORLARI TƏLİMİNƏ YENİDƏN BAŞLADI

KHAZAR UNIVERSITY RELAUNCHED TRAINING FOR "POTENTIAL SCHOOL PRINCIPALS"

Yanvarın 10-da "Potensial Məktəb Direktorları" təlimlərinin başlaması məqsədilə iştirakçılarla ilkin görüş keçirildi.

Görüşdə layihənin rəhbəri Raziyə İsayeva iştirakçıları salamladı, 3 ay müddətində davam edəcək təlimlər haqqında qısa məlumat verdi.

Layihənin koordinatoru Elza Səmədova indiyə qədər layihə çərçivəsində keçirilmiş təlimlər, bu təlimlərin əhəmiyyətindən bəhs etdi və iştirakçılara uğurlar arzuladı.

Qeyd edək ki, təlimin əsas məqsədi ölkədəki yeni təhsil strategiyasına və təhsil islahatına uyğun olaraq məktəb direktorlarının və gələcəkdə bu sahədə fəaliyyət göstərmək istəyən təhsil işçilərinin bilik və bacarıqlarını artırmaq, onları dünyadakı səmərəli idarəetmə təcrübəsi ilə tanış etməkdir. Bu məqsədlə 8 fənn (Kurikulumun tətbiqi və idarəedilməsi, Təhsilin idarə olunması, Statistika və məlumatların təhlili, Maliyyə və mühasibat uçotu, Qanunvericilik və təhsil hüququ, Təhsil psixologiyası, Məntiq və İKT) üzrə həftənin 3 günü, 12 həftə Xəzər Universitetinin "Neftçilər" kampusunda dərslər tədris olunur.

On January 10, a preliminary meeting was held with the participants to start the "Potential School Principals" training.

At the meeting, the project manager Raziya Isayeva greeted the participants and briefed them on the trainings that will last for 3 months.

Project Coordinator Elza Samadova spoke about the trainings held so far within the project, the importance of these trainings and wished success to the participants.

It should be noted that the main purpose of the training is to increase the knowledge and skills of school principals and educators who want to work in this field in accordance with the new education strategy and education reform in the country, to acquaint them with the world's best management practices.

For this purpose, classes on 8 subjects (Curriculum Application and Management, Education Management, Statistics and Data Analysis, Finance and Accounting, Legislation and Education Law, Educational Psychology, Logic and ICT) are taught 3 days a week, 12 weeks at Khazar University's Neftchilar campus.

İTALİYADA AKADEMİK MÜBADİLƏ TƏCRÜBƏM

MY ACADEMIC EXCHANGE EXPERIENCE IN ITALY

Xəzər Universitetinin üçüncü kurs tələbəsi (Kompüter mühəndisliyi ixtisası) Erasmus+ Tələbə Mübadilə Proqramında iştirakı barədə təcrübəsini bölüşür.

A junior student at Khazar University (majoring in Computer Engineering) shares her experience of participating in the Erasmus+ Student Exchange Program

Ciao! Salam!

Mən Almaz Cəfərova, Roma Sapienza Universitetində mübadilə tələbəsiyəm. Mübadilə təcrübəmi sizinlə bölüşməkdən çox məmnunam!

Mənim mübadilə dövrüm 2021-2022 qış semestrini əhatə edir (2021-ci ilin sentyabrından 2022-ci ilin fevralına qədər). Dünyanın ən yaxşı reytinqli universitetlərindən birində təhsil almaq şansım oldu. Sapienza Universiteti Avropanın ən böyük universitetlərindəndir. Təhsil sistemi Xəzər Universiteti ilə eyni olmasa da, uyğunlaşmaq asandır. İtaliyada beynəlxalq tələbə olaraq təhsil almaq, ən azı, unudulmaz bir təcrübə oldu. Sapienza`da dünyanın hər yerindən çoxlu tələbə var. Beləliklə, bir-birimizlə danışmaq, müxtəlif mövzuları müzakirə etmək və bir-birimizə kömək etmək imkanımız oldu.

Biz şanslıyıq ki, Sapienza beynəlxalq tələbələrin yeni insanlarla tanış olması və əsl mədəniyyətlərarası mübadilə etməsi üçün şərait yaradır. Xüsusilə, semestrin ilk iki həftəsi "Xoş gəlmisiniz həftəsi" idi və hər gün müxtəlif fəaliyyət növləri, yəni şəhər turları, piknikləri təşkil olunurdu. Müxtəlif millətlərdən olan çoxlu insanlarla tanış oldum. Onların vətənini, mədəniyyətini öyrənmək imkanım oldu və mən də öz ölkəm Azərbaycan haqqında xoş təəssürat yaratmaq üçün əlimdən gələni edirdim.

Roma tarixi bir şəhərdir. Kolizey, Trevi Fəvvarəsi, Roma Forumu və s. haqqında hamımız bilirik, lakin orada daha çox görməli yer var. Romanın küçələri gözəldir və hətta təsadüfi yerlərdə belə tarixi görə bilərsiniz. Hər yerdə hər şey tarixi cəhətdən qiymətlidir. Sapienza`nın bizim üçün təşkil etdiyi pulsuz şəhər turları şəhər haqqında daha çox məlumat əldə etməyimizə kömək etdi.

İtalyanlar əsasən şən və mehribandırlar. Ən böyük çətinliyim ünsiyyət idi, çünki yerli insanlar, adətən, ingilis dilini bilmirlər. Ancaq belə hallarda da sizə kömək etmək üçün bir yol tapmağa çalışırlar. Romada mübadilə etmək istəyən tələbələr təqaüd və yaşayış xərcləri barədə narahat olmamalıdırlar. Təqaüd şəhərdən zövq almaq və hətta səyahət etmək üçün kifayətdir. Qısa müddət ərzində çoxlu xatirələr və təcrübələr qazandım. Gözəl bir səyahət etmək imkanım oldu. Mən bütün tələbələrə bu təcrübədən keçməyi tövsiyə edirəm.

Ciao!

I am Almaz Jafarova, an exchange student at Sapienza University of Rome. It is a great pleasure to share my exchange experience with you!

My exchange period is the 2021-2022 winter semester (from September 2021 to February 2022). I have a chance to study at one of the best ranking universities in the world. Sapienza University is the largest university in Europe. The education system is not the same as Khazar University, but it is easy to adapt. As for an international student, studying over here in Italy, it was an unforgettable experience to say the least. At Sapienza, there are lots of students from all over the world. So, we were able to talk to each other, discuss several topics and help each other.

We are lucky that Sapienza offers international students plenty of chances to meet new people and have a true cross-cultural exchange. Especially, the first two weeks of the semester was 'Welcome week', and every day we had different kinds of activities, namely city tours, picnics. I met a lot of people of different nationalities. I had a great chance to learn about their homeland and culture, and I was also doing my best to create a good impression of my own great country, Azerbaijan.

Rome is a historic city. We all know about the Colosseum, Trevi Fountain, Roman Forum etc., but there are more. The streets of Rome are beautiful, and even at random places, you can see history. Everywhere everything is historically precious. Free city tours that Sapienza organised for us helped us to learn more about the city.

Italian people are mostly cheerful, and friendly. My biggest difficulty was communication because local people usually don't know English. But even in those cases, they try to find a way to help you. Students who want to have an exchange in Rome should not worry about scholarship and living costs. The scholarship is enough for enjoying the city and even travelling. In a short period, I have got plenty of memories and experiences. I had an opportunity to leave my comfort zone and have a great journey. I highly recommend all students to have this experience.



CREATIVE SPARK LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ MÜƏSSİSƏ TƏHSİLİNİN KURİKULUMA DAXİL EDİLMƏSİ ÜZRƏ SEMİNAR

WORKSHOP ON EMBEDDING ENTERPRISE EDUCATION INTO THE CURRICULUM WITHIN *CREATIVE SPARK* PROJECT

Xəzər Universitetinin İnkişaf Mərkəzinin direktoru Raziyə İsayeva British Council tərəfindən Böyük Britaniyanın Middlesex Universiteti ilə birgə Xəzər Universitetində həyata keçirilən *Creative Spark* çərçivəsində təşkil olunan Ali Təhsil Müəssisə Proqramı seminarında kurikulumun yenidən dizaynı mövzusu ilə bağlı çıxış edib.

“Müəssisə təhsilinin kurikuluma daxil edilməsi” adlı seminar 2021-ci il dekabrın 15-də ADA Universitetində baş tutub. Yarım gün davam edən tədbir müəllimləri və elm adamlarını Azərbaycanda sahibkarlıq təhsili ekosisteminin təkmilləşdirilməsi məqsədilə zəruri olan müvafiq bilik və bacarıqları əldə etmək üçün bir araya gətirmişdi.

İclasın əsas məqsədi tərəfdaş universitetlərin bütün fənlərdə müəssisə və ya sahibkarlığın öyrənilməsini və tədrisini təşviq etmək, təlim nəticələrini fənnin xüsusi nəticələri ilə əvəz etmədən təhsilin kurikuluma inteqrasiya edilməsi sahəsindəki ən yaxşı təcrübələri bölüşmək idi.

Seminar yerli və Böyük Britaniya tərəfdaşlarının təqdimatlarını özündə ehtiva etdi, burada hər kəs tələbələrin, işçilərin və qurumların layihədə əldə etdikləri təcrübələrini bölüşdü.

Tədbir yekun nitqi ilə başa çatdı.

Ms. Razia Isaeva, Development Director of Khazar University, has delivered a speech on the curriculum redesign at Khazar University within *Creative Spark* project implemented in cooperation with the Middlesex University, the UK, during the workshop organized by the British Council within the Creative Spark: Higher Education Enterprise Programme.

The workshop entitled Embedding Enterprise Education into curriculum took place at ADA University on December 15, 2021.

The half-day event brought together teachers and academicians to obtain relevant knowledge and skills essential for improving the entrepreneurial education ecosystem in Azerbaijan.

The main purpose of the meeting was to promote the learning and teaching of enterprise or entrepreneurship across all subject areas of partner universities and share the best practices on how enterprise education can be integrated into the curriculum without enterprise-related learning outcomes having to replace subject-specific outcomes.

The workshop combined speeches of local and UK partners where everyone shared experiences students, staff and institutions gained within a project.

The event ended with a summary of the final remarks.

"AVRASİYA ÖLKƏLƏRİNDƏ TƏMİZ ENERJİYƏ KEÇİD" MÖVZUSUNDA ONLAYN TƏDBİR

ONLINE EVENT ON "TRANSITION TO CLEAN ENERGY IN EURASIAN COUNTRIES"

2021-ci il dekabrın 17-də Avrasiya Hasilat Sənayesi Bilik Mərkəzi və Xəzər Universitetinin təşkilatçılığı ilə "Avrasiya ölkələrində təmiz enerjiyə keçid" mövzusunda onlayn tədbir keçirilib. Tədbirdə "Avrasiyada enerji keçidlərinin genişləndirilməsində çətinliklər və imkanlar haqqında hesabat" təqdim olunub.

Tədbirdə Xəzər Universitetinin Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Fərid Quliyev, Olga Khaulyak (PWYP, Ukrayna), İnqilab Əhmədov (Eusrasia Hub, Bakı), Chinara Aitbaeva (Nash Vek Foundation, Qırğızıstan), Andrei V. Belyi (CEO of Energy Consulting firm balasene OU, Estoniya), Marat Karatayev (University of Graz, Avstriya) çıxış ediblər.

On December 17, 2021, the Eurasian Extractive Industries Knowledge Hub and Khazar University organized an online event on "Transition to Clean Energy in Eurasian Countries." The report on the challenges and opportunities for expanding energy transitions in Eurasia was presented at the event.

Farid Guliyev, Head of the Department of Political Science and Philosophy at Khazar University, Olga Khaulyak (PWYP, Ukraine), Ingilab Ahmadov (Eusrasia Hub, Baku), Chinara Aitbaeva (Nash Vek Foundation, Kyrgyzstan), Andrei V. Belyi (CEO of Energy Consulting firm balasene OU, Estonia), Marat Karatayev (University of Graz, Austria) spoke at the event.

ERASMUS+ ECAR LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ GÖRÜŞ

MEETING WITHIN *ERASMUS+ ECAR* PROJECT

Co-funded by the Erasmus+ Programme of the European Union

2021-ci il dekabrın 20-də Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində Xəzər Universitetinin tərəfdaş olduğu *Erasmus+ ECAR* layihəsinin Azərbaycandakı ali təhsil müəssisələrində ünsiyyət, əməkdaşlıq və şəbəkələşmə ilə bağlı aparılmış tədqiqatların nəticələrinə həsr olunmuş görüşü keçirildi.

Tədbir Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rektoru Ceyran Mahmudovanın giriş sözü ilə başladı. Təhsil Nazirliyinin Elm, ali və orta ixtisas təhsili şöbəsinin müdiri Nicat Məmmədli çıxış etdi. Layihənin koordinatoru olan Bakı Biznes Universitetinin əməkdaşı Gülşən Bayramova layihənin ikinci komponenti haqqında iştirakçıları məlumatlandırdı, Koordinasiya komissiyasının rolundan bəhs etdi.

Görüş sual-cavab sessiyası ilə yekunlaşdı.

Görüşdə Xəzər Universitetini universitetin Beynəlxalq əlaqələr üzrə prorektoru Vlad Vernygora və İnkişaf departamentinin rəhbəri Raziyə İsayeva təmsil edirdilər.

On December 20, 2021, Azerbaijan State University of Culture and Arts hosted a meeting of the *Erasmus+ ECAR* project, to which Khazar University is a partner, on the results of research on communication, cooperation and networking in higher education institutions in Azerbaijan. The event began with an introductory speech by the rector of the Azerbaijan State University of Culture and Arts Jeyran Mahmudova. Nijat Mammadli, Head of the Department of Science, Higher and Secondary Special Education of the Ministry of Education, delivered a speech. Gulshan Bayramova from Baku Business University, who is the project coordinator, informed the participants about the second component of the project and the role of the Coordination Commission.

The meeting ended with a question-and-answer session.

Khazar University was represented at the meeting by Vlad Vernygora, Vice Rector for International Relations, and Raziya Isayeva, Head of the Development Department.



ERASMUS+ ECAR LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ GÖRÜŞ

MEETING WITHIN *ERASMUS+ ECAR* PROJECT

2021-ci il dekabrın 26-28-də Naxçıvan Universitetində Xəzər Universitetinin tərəfdaş olduğu *Erasmus+ ECAR* layihəsinin növbəti görüşü keçirildi. Tədbirin məqsədi indiyə qədər layihə çərçivəsində əldə olunan nəzəri nəticələrin müzakirəsi, qiymətləndirilməsi və gələcək fəaliyyətinin planlaşdırılması idi.

Naxçıvan Universiteti, Naxçıvan Dövlət Universiteti və Naxçıvan Müəllimlər İnstitutu rektorlarının, Milli Erasmus Ofisinin rəhbərinin, Bakı Biznes Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı Mühəndislik Universiteti, Bakı Ali Neft Məktəbi, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti və Odlar Yurdu Universiteti prorektorlarının iştirakı ilə keçən tədbirdə Xəzər Universitetini elmi işlər üzrə prorektor Səida Şərifova təmsil edirdi.

Görüşdə Milli Erasmus Ofisinin rəhbəri Pərviz Bağırov Erasmus+ çərçivəsində həyata keçirilən Rektorlar Konfransı barəsində beynəlxalq təcrübəni bölüşdü.

Bakı Biznes Universitetinin Beynəlxalq əlaqələr üzrə prorektoru Eşqin Bayramov çıxışında layihənin ümumi məqsədi, hədəfləri, iş planları, eləcə də yerli və xarici tərəfdaşları barəsində məlumat verdi. Həmin universitetin Universitet-sənaye əməkdaşlığı departamentinin direktoru, layihənin koordinatoru Gülşən Bayramova Azərbaycan ali təhsil müəssisələrində əməkdaşlıq, əlaqə və şəbəkələşmə sahəsində aparılmış tədqiqatın nəticələrinə dair hesabatla çıxış etdi.

Digər universitetlərin prorektorları da çıxış edərək, yeni çağırışların müşahidə olunduğu müasir təhsil sistemində universitetlərin daha sıx əməkdaşlığının zəruriliyini və layihənin bu istiqamətdə müsbət nəticələr verəcəyinə əminliklərini vurğulayıblar.

On December 26-28, 2021, the next meeting of the *Erasmus+ ECAR* project, to which Khazar University is a partner, was held at Nakhchivan University. The purpose of the event was to discuss, evaluate the theoretical results obtained so far within the project and plan future activities.

Saida Sharifova, Dean of the Graduate School of Science, Art and Technology, represented Khazar University at the event, which was attended by rectors of Nakhchivan University, Nakhchivan State University and Nakhchivan Teachers' Institute, head of the National Erasmus Office, vice-rectors of Baku Business University, Azerbaijan State Pedagogical University, Baku Engineering University, Baku Higher Oil School, Azerbaijan State University of Culture and Art and Odlar Yurdu University.

At the meeting, the head of the National Erasmus Office Parviz Bagirov shared the international experience of the Rectors' Conference held within the Erasmus+.

Eshgin Bayramov, Vice Rector for International Relations of Baku Business University, spoke about the overall goals, targets, work plans, as well as local and foreign partners of the project. Gulshan Bayramova, Director of the University-Industrial Cooperation Department of the same university, project coordinator, delivered a speech on the results of research conducted in the field of cooperation, communication, and networking in Azerbaijani higher education institutions.

Vice-rectors of other universities also stressed the need for closer cooperation between universities in the modern education system, where new challenges are observed, and expressed confidence that the project will yield positive results in this direction.

CREATIVE SPARK LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ VİRTUAL TƏDBİR

VIRTUAL EVENT WITHIN THE *CREATIVE SPARK* PROJECT

Yanvarın 10-da British Council tərəfindən maliyyələşən və Xəzər Universitetinin Middlesex Universiteti ilə birgə tərəfdaşı olduğu "*Creative Spark*" müəssisə layihəsi çərçivəsində virtual görüş keçirilmişdir.

Görüşdə Xəzər Universitetindən İnkişaf Mərkəzinin rəhbəri Raziyə İsayeva, layihə meneceri Səbinə Quliyeva, Karyera Mərkəzinin koordinatoru Elnurə Əhmədzadə və Middlesex Universitetinin professoru Dr. George Dafoulas iştirak etdi.

Görüşdə layihə çərçivəsində yaradılmış müəssisə mərkəzinin genişləndirilməsi üçün gündəlikdə duran əsas məsələlər müzakirə olundu və qarşıdan gələn görüşlər planlaşdırıldı.

On January 10, a virtual meeting was held as part of the *Creative Spark* enterprise project, funded by the British Council and partnered with Khazar University and Middlesex University.

The meeting was attended by Raziya Isayeva, Head of the Development Center at Khazar University, Sabina Guliyeva, Project Manager, Elnura Ahmadzadeh, Coordinator of the Career Center, and Dr. George Dafoulas, a professor at Middlesex University, attended.

The main issues on the agenda for the expansion of the enterprise center established within the project were discussed at the meeting, and upcoming meetings were planned.

UniLab LAYİHƏ TƏRƏFDAŞLARI İLƏ VİRTUAL GÖRÜŞ

VIRTUAL MEETING WITH *UniLab* PROJECT PARTNERS

Yanvarın 21-də Xəzər Universitetində Erasmus + UniLab layihəsi çərçivəsində tərəfdaş universitetlərin növbəti virtual görüşü keçirildi. Görüş Erasmus+ UniLab Layihə Koordinatoru Karme Royo`nun iştirakçıları salamlaması ilə başladı. Sonra görüş Valentina Kononova (Rusiya Sibir Federal Universitetinin nümayəndəsi) və Katerina Kabaxidzenin (Maliyyə Universitetinin nümayəndəsi) çıxışları ilə davam etdi.

Sonda Erasmus+ UniLab layihəsinin koordinatoru Karme Royo növbəti görüşlər və fəaliyyətlər haqqında iştirakçılara məlumat verdi.

On January 21, 2022, the next virtual meeting of partner universities was held within the Erasmus+ UniLab Project, in Khazar University is a partner. The meeting began with greeting from Carme Royo, Erasmus+ UniLab Project Coordinator. Then meeting continued with speeches of Valentina Kononova (representative of Siberian Federal University of Russia) and Katerina Kabakhidze (representative of the University of Finance).

Then Carme Royo, Erasmus+ UniLab project Coordinator, informed the participants about the next meetings and activities.

"XƏZƏR"İN ƏMƏKDAŞLARI 7-Cİ BEYNƏLXALQ ZEVQMA ELMİ ARAŞDIRMALAR KONFRANSINDA

KHAZAR UNIVERSITY STAFF MEMBERS AT THE 7TH INTERNATIONAL ZEUGMA SCIENTIFIC RESEARCH CONFERENCE

Yanvarın 21-23-də Türkiyənin Qaziantep vilayətinin Zevqma şəhərində 7-ci Beynəlxalq Zevqma Elmi Araşdırmalar Konfransı keçirilmişdir.

Konfransda Xəzər Universitetinin İqtisadiyyat və menecment departamentinin koordinatoru Dr.Bahadır Baysal və İnformasiya sistemləri üzrə menecer və müəllim A.Nuriyev "Turizmdə yüksək səviyyəli qeyri-müəyyənlik altında multikriteriyalı qərar qəbul edilməsi: z-rəqəmlərə əsaslanan yanaşmalar" mövzusunda məruzə ilə çıxış etmiş və sualları cavablandırmışlar.

Konfransın materialları konfrans toplusunda çap olunacaq.

On January 21-23, 2022, the 7th International Zeugma Scientific Research Conference was held in Zeugma, Gaziantep Province, Turkey. Khazar University Economics and Management Department Coordinator Dr. Bahadir Baysal and Information Systems Manager and Lecturer A.Nuriyev presented a report "Multicriteria decision-making under high-level uncertainty in tourism: z-numbers based approaches" at the conference and answered questions.

Conference proceedings will be published in the book of conference.



TƏLƏBƏLƏR İNGİLİS DİLİNDƏ İQTİSADİ FORUM SİMULYASİYASI KEÇİRİBLƏR


NDU Tələbə Gənclər Təşkilatının təşəbbüsü ilə ingilis dilində İqtisadi forum simulyasiyası keçirilib. "Pandemiyanın dünya ölkələrinin iqtisadiyyatına təsiri" mövzusunda keçirilən simulyasiyada ali təhsil ocağının tədrisi ingilis dilində olan "İqtisadiyyat" ixtisası üzrə I kurs tələbələri iştirak ediblər.

Universitetin rektoru Elbrus İsayev ali təhsil ocağının beynəlxalq əməkdaşlığında tədrisi ingilis dilində olan ixtisasların mühüm əhəmiyyətə malik olduğunu qeyd edib. Bildirilib ki, bu ixtisasların ikili diplom layihələrində iştirakını nəzərə alaraq tədrisi ingilis dilində olacaq ixtisasların sayının artırılması gələcək hədəflər sırasındadır. Rektor oxuduqları ixtisasın tələbələrə verəcəyi gələcək perspektivləri vurğulayaraq öz təklif və tövsiyyələrini çatdırıb.

"İqtisadiyyat və idarəetmə" fakültəsinin müəllimi Elvin Nəcəfovun moderatorluq etdiyi simulyasiyada tələbələr Azərbaycan, Türkiyə, Pakistan, ABŞ, İngiltərə, Almaniya, İspaniya, İtaliya, Yaponiya dövlətlərini təmsil edərək həmin ölkələrə pandemiyanın təsir mexanizmləri haqda çıxış ediblər. Tələbələr qeyd ediblər ki, pandemiya ilə əlaqədar olaraq uçuşların dayandırılması, məhsulların ixracının minimal həddə endirilməsi, ölkələrin sərhədlərinin bağlanması, turizm, emal sənayesi və digər iqtisadi sahələrdə durğunluğun yaranmasına və dəyər zəncirinin davamlılığının pozulmasına gətirib çıxarıb. Təqdimatlarda bildirilib ki, iqtisadi durğunluq virusun yayılmağa başladığı Çin də daxil olmaqla ABŞ Avrozona kimi iqtisadi mərkəzlərin tənəzzülə doğru hərəkət etməsinə səbəb olub. Virusun Avropada ən çox yayıldığı ölkə kimi İtaliyanın, Avropa İttifaqının ən güclü iqtisadiyyatı olan Almaniyanın, Avropada Covid 19-un ən çox yayıldığı ikinci ölkə kimi İspaniyanın adı çəkilib.

Sonda ən yaxşı təmsilçi nominasiyası üzrə qalib olan Tuncay Ələkbərov diplom və kitabla təltif edilib, fəal iştirak etdiyinə görə isə Ayşən Əbülfəzli və Əli Qənbərov kitabla mükafatlandırılıb.

NDU-NUN MÜƏLLİMİ BEYNƏLXALQ KONFRANSDA ÇIXIŞ EDƏRƏK SERTİFİKAT ƏLDƏ EDİB



NDU-nun müəllimi Səadət Əliyeva yazıçı, ədəbiyyatşünas, ictimai xadim, filologiya elmləri doktoru, professor, 1946-cı ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü Əzizə Cəfərzadənin 100 illik yubileyinə həsr edilmiş onlayn XX Beynəlxalq Elmi Simpoziumunda iştirak edib. Müəllif konfransda "Vətəndaş jurnalistikası ənənəvi jurnalistikanın xüsusiyyətlərini daşıya bilirmi?" adlı məqalə ilə çıxış edərək, sertifikat əldə edib. Məqalədə jurnalistikamıza yeni xüsusiyyətlər gətirən vətəndaş jurnalistikasının özünəməxsus xüsusiyyətləri araşdırılıb. Müəlif məqalədə özünəməxsus nəzəriyyə, qaydaları və etik prinsipləri olan jurnalistikanın bu qolunun daha sərbəst fəaliyyətindən söhbət açaraq qeyd edir ki, vətəndaş jurnalistikasının özünütənzimləmə mexanizmi yoxdur, peşəkarlıq baxımından zəiflik hiss olunur, yarımçıq, birtərəfli və subyektiv işıqlandırılan bəzi hadisələrdə heç bir mənbəyə əsaslanmayan məlumatlar olur. Vətəndaş jurnalistikasının müasir dövrümüzdə formalaşan müsbət və mənfi xüsusiyyətlərinə nəzər salınan məqalədə belə bir nəticəyə gəlinir ki, medianın balanslı inkişafı, onun nəzəri əsaslarının daha ətraflı təhlili və tədqiqi üçün akademik jurnalistika institutunun yaradılmasına ehtiyac var. "



"Xəzər Xəbər"in bürosu





AZƏRBAYCANIN ƏMƏKDAR HƏKİMİ MAHİRƏ İSMAYILOVA TİBB FAKÜLTƏSİ TƏLƏBƏLƏRİNƏ USTAD DƏRSİ KEÇİB

NDU xəstəxanasında ali təhsil ocağının Tibb fakültəsi tələbələrinə Mərkəzi Klinikanın Süni Mayalanma Şöbəsinin müdiri, cərrah-ginekoloq, tibb üzrə fəlsəfə doktoru, Azərbaycanın əməkdar həkimi Mahirə İsmayılova ustad dərsi keçib.

Tibb fakültəsinin dekanı, biologiya üzrə fəlsəfə doktoru, dosent Elsevər Əsədov tələbələrin təcrübi bacarıqlarının qiymətləndirilməsində bu cür dərslərin mühüm əhəmiyyət daşıdığını qeyd edib.

"Ümumi təbabət və klinik fənlər" kafedrasının müdiri, tibb üzrə fəlsəfə doktoru, dosent Gültəkin Əliyeva 13 elmi işin həmmüəllifi, süni mayalanma, doğuş, hamiləlik və qadın xəstəlikləri mütəxəssisi olan Mahirə İsmayılova haqda məlumat verib. Qeyd edilib ki, cərrah-ginekoloq artıq bir ildir ki, muxtar respublikaya gələrək xəstələrin qəbulu, müalicəsi və süni mayalanma əməliyyat prosedurlarının həyata keçirilməsində iştirak edir.

Mərkəzi Klinikanın Süni Mayalanma Şöbəsinin müdiri, cərrah-ginekoloq, tibb üzrə fəlsəfə doktoru, Azərbaycanın əməkdar həkimi Mahirə İsmayılova sonsuzluğun müalicəsində köməkçi reproduktiv texnologiyaların rolundan danışıb. Sonsuzluğun səbəbləri və ona təsir edən amillər haqda tələbələrə slayd vasitəsilə əyani məlumat verilib.

"Müalicə işi" Tibbi profilaktika ixtisası yuxarı kurs tələbələrinin iştirak etdiyi dərsdə müəllim və tələbələrin mövzu ilə bağlı sualları cavablandırıldıqdan sonra onlara Mərkəzi Klinikanın maarifləndirici broşür və bukletləri paylanılıb.

Qeyd edək ki, Tibb elmləri namizədi, mama-ginekoloq Mahirə İsmayılova Naxçıvanda anadan olub. Azərbaycan Tibb Universitetinin məzunudur. 1996-2001-ci illərdə Elmi Tədqiqat Mamalıq və Ginekologiya İnstitutunda işləyib. 2007-ci ildən indiyədək Mərkəzi Klinikada Qadın Mərkəzinin müdiridir.

NDU və İĞDIR UNİVERSİTETİNİN BİRGƏ SƏRGİSİ: "ƏNƏNƏVİ İNCƏSƏNƏT VƏ SƏNƏTKARLIQ NÜMUNƏLƏRİ"

İki gün davam edən sərginin açılış mərasimində çıxış edən universitetin rektoru Elbrus İsayev qonaqları salamlayaraq sərginin işinə uğurlar arzulayıb. Rektor universitetin İncəsənət, Memarlıq və mühəndislik, Pedaqoji fakültələrinin iştirakı ilə keçirilən tədbirdə ümumilikdə 1000-dən çox sənət nümunəsinin sərgiləndiyini diqqətə çatdırıb. Rektor qardaş ölkənin universiteti ilə birgə keçirilən sərginin mühüm əhəmiyyətini qeyd edib. Bu cür görüşlərin gələcək təcrübə mübadiləsinə mühüm töhvə verəcəyinə əminlik ifadə olunub.

Türkiyənin Naxçıvandakı baş konsulu Mehmet Emin Kiraz Türkiyə və Azərbaycan arasında bütün sahələrdə olduğu kimi təhsil sferasında da qazanılan uğurlardan bəhs edib.

İğdır Universitetinin rektoru Mehmet Hakkı Alma 2008-ci ildə yaradılan ali təhsil ocağı haqda məlumat verib. Bildirilib ki, ilk dəfə Naxçıvanda keçirilən sərginin sonra İğdırda, İranda, Gürcüstanda keçirilməsi planlaşdırılıb. Rektor bir çox sahələrdə Naxçıvan Dövlət Universiteti ilə birgə iş birliyinin əhəmiyyətindən danışıb.

Naxçıvan Muxtar Respublikasının Təhsil naziri Rəhman Məmmədov maddi-mədəniyyət abidələrini qorumaq,



yaşatmaq və gələcək nəsillərə çatdırmaq məqsədilə təşkil edilən sərgini yüksək qiymətləndirib. Qeyd edilib ki, muxtar respublikada yaradılan şəraitin nəticəsidir ki, şagirdlər müasirliklə yanaşı qədim adət-ənənələrimizə hörmət ruhunda tərbiyə olunurlar. Nazir şagirdlərin asudə vaxtlarının səmərəli təşkili istiqamətində innovativ dərnəklərin əhəmiyyətini xüsusilə qeyd edib.

Naxçıvan Müəllimlər İnstitutunun rektoru Azad Novruzov, Naxçıvan Universitetinin rektoru Nurlana Əliyeva təşkilatçılara minnətdarlıq edib və sərginin işinə uğurlar arzulayıblar.

Naxçıvan Muxtar Respublikasının Rəssamlar Birliyinin sədri Ülviyyə Həmzəyeva gələcəkdə bu istiqamətdə Rəssamlar Birliyində də sərgilərin keçirilməsi barədə öz təkliflərini çatdırıb.

Sonra sərgiyə baxış olub.

Sərginin ikinci günündə workshop təşkil edilib. Burada sərgilənən əl işlərinin hazırlanma texnikası və texnologiyası əyani sürətdə göstərilib.

Sərgidə təşkilatçılar İğdır Universiteti tərəfindən təşəkkürnamə ilə təltif ediliblər.

NDU-nun Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi



"XƏZƏR"İN ƏMƏKDAŞLARININ MƏQALƏSİ "*TÜRKBİLİG*" JURNALINDA

Xəzər Universiteti Dillər və ədəbiyyatlar departamentinin müdiri olmuş Vurğun Əyyub (vəfatından sonra) və Humanitar, təhsil və sosial elmlər fakültəsinin dekanı Elza Səmədlinin həmmüəllifi olduqları "XII yüzyila kadar türkçe eserlerde methiye geleneği ve şair-hükümdar ilişkileri" ("XII əsrə qədər türkcə əsərlərdə mədhiyyə ənənəsi və şair-hökmdar münasibətləri") adlı məqalə Türkiyənin önəmli jurnallarından biri olan (SCORUS-da tanınan) "*Türkbilig*" jurnalının 2021-ci il 42-ci sayında dərc olunmuşdur.

Məqalədə ədəbi janrlarda mədhiyyə ənənəsinin tarixinə qısaca nəzər salmaqla Orxon abidələri, qədim uyğur mətnləri və Qaraxanlı dönəmi əsərlərində hökmdarlara mədhiyyələr yazılması mövzusu təhlil edilmişdir.

https://dergipark.org.tr/tr/pub/turkbilig/issue/67357/1050628

ARTICLE BY KHAZAR UNIVERSITY STAFF MEMBER IN "*TURKBILIG*" JOURNAL

The article, co-authored by Vurgun Eyyub, former head of the Department of Languages and Literature at Khazar University (posthumously) and Dean of the School of Humanities, Education and Social Sciences Elza Samedli, and entitled "Praise tradition and poet-ruler relations in Turkish works up to XII century" was published in the 42nd issue (2021) of "*Turkbilig*" journal (known in SCORUS), one of the most important magazines in Turkey.

The article gives a brief overview of the history of the praise tradition in literary genres and analyses the topic of writing praise to rulers in the Orkhon monuments, ancient Uyghur texts and works of the Karakhanid period.

https://dergipark.org.tr/tr/pub/turkbilig/issue/67357/1050628

"XƏZƏR"İN ƏMƏKDAŞLARININ MƏQALƏSİ "*LECTURE NOTES IN NETWORK AND SYSTEMS*"- DƏ

ARTICLE BY KHAZAR UNIVERSITY STAFF MEMBERS IN "*LECTURE NOTES IN NETWORK AND SYSTEMS*"

Xəzər Universitetinin əməkdaşları Əziz Nuriyev və Bahadır Baysal`ın "Otel xidmətinin keyfiyyətinin qiymətləndirilməsinə Z rəqəmlərinə əsaslanan yanaşma" adlı məqaləsi "*Lecture notes in Network and systems*" - in ("Şəbəkə və sistemlərdə mühazirə qeydləri") 362-ci cildində dərc olunmuşdur (Scopus, SCImago, Inspect, WTI Frankfurt eG zbMATH tərəfindən indeksləşdirilmiş və Web of Sciences-də təqdim edilmişdir).

Məqaləni aşağıdakı link vasitəsilə oxumaq olar:

https://books.google.az/books?id=dd9XEAAAQBAJ&lpg=PA88&ots=X0q-4VNdJE&dq=nuriyev%20z-number%20

An article by Khazar University staff members Aziz Nuriyev and Bahadir Baysal, entitled " Z-numbers based approach to hotel service quality assessment " has been published in "*Lecture Notes in Network and Systems*" Volume 362 (indexed by Scopus, SCImago, Inspect, WTI Frankfurt eG zbMATH and presented in the Web of Sciences).


You can find the article link below:

DEPARTAMENT MÜDİRİNİN HƏMMÜƏLLİFİ OLDUĞU MƏQALƏ *"UNIVERSITIES, ENTREPRENEURIAL ECOSYSTEMS, AND SUSTAINABILITY"* TOPLUSUNDA

Xəzər Universiteti İqtisadiyyat və menecment fakültəsinin MBA məzunu Kseniya Sorokina, Portuqaliyanın Braqanza Politexnik İnstitutunun professoru Paula Odete Fernandes və İqtisadiyyat və menecment fakültəsinin dekanı Dr. Ceyhun Məmmədovun həmmüəllifi olduqları "Students' perceptions of university social responsibility: A cross-cultural comparison" ("Tələbələrin universitetdə sosial məsuliyyətləri haqqında təsəvvürləri: mədəniyyətlərarası müqayisə") adlı məqalə De Gruyter alman elm nəşriyyatı tərəfindən "*Universities, Entrepreneurial Ecosystems, and Sustainability*" ("Universitetlər, Sahibkarlıq Ekosistemləri və Davamlılıq") adlı topluda dərç edilmişdir.

Tədqiqatın əsas məqsədi Portuqaliyanın Braqanza Politexnik İnstitutunun tələbələri arasında keçirilən sorğunun məlumatları əsasında ekonometrik təhlil apararaq, tələbələrin Korporativ Sosial Məsuliyyəti (KSM) dərk etmə səviyyəsini ölçmək və KSM-ə olan münasibətlərini dəyərləndirmək olmuşdur.

https://www.degruyter.com/document/doi/10.1515/9783110670219-017/html



AN ARTICLE CO-AUTHORED BY FACULTY DEAN AND MBA GRADUATE WAS PUBLISHED IN THE BOOK TITLED *"UNIVERSITIES, ENTREPRENEURIAL ECOSYSTEMS, AND SUSTAINABILITY"*

A scholarly article, titled "Students' perceptions of university social responsibility: A cross-cultural comparison" authored by the MBA alumni of School of Economics and Management, Ms. Kseniya Sorokina, Dean of the School, Dr. Jeyhun Mammadov, and Professor of Management in the Polytechnic Institute of Bragança (IPB) of Portugal, Paula Odete Fernandes has been published by German scholarly publishing house De Gruyter as a chapter of the book titled "*Universities, Entrepreneurial Ecosystems, and Sustainability*".

The main objective of the study was to measure students' level of understanding of Corporate Social Responsibility (CSR) and to assess their attitudes towards CSR through econometric analysis using the data of a survey conducted among students at Polytechnic Institute of Bragança, Portugal.

https://www.degruyter.com/document/doi/10.1515/9783110670219-017/html

"XƏZƏR"İN MÜƏLLİMİNİN *ALWAYS AZERBAYIJAN*-A MÜSAHİBƏSİ

INTERVIEW OF KHAZAR UNIVERSITY FACULTY MEMBER TO *ALWAYS AZERBAIJAN*

2022-ci il yanvarın 6-da Xəzər Universitetinin Psixologiya departamentinin müəllimi və doktorantı Nilufər Əlizadə *Always Azerbayijan* rəsmi instagram səhifəsinə "Öz dəyər və öz dəyərin münasibətlərə təsiri" mövzusunda müsahibə vermişdir.

Müsahibədə uşaqlıq yaşlarından etibarən valideynlərin münasibəti əsasında insanlarda öz dəyərin formalaşması, daha sonra bu faktorun insanların günlük yaşam standartlarına, xüsusilə də münasibət seçimlərinə olan təsirlərindən danışılmışdır.

Aşağıdakı linkə keçid etməklə müsahibəni izləmək olar.

On January 6, 2022, Nilufar Alizadeh, a lecturer and doctoral student in the Department of Psychology at Khazar University, gave an interview to *Always Azerbaijan's* official Instagram page on "Self-esteem and the impact of self-esteem on relationships."

The interview examines the formation of self-esteem in people based on the attitude of parents from childhood, and then the influence of this factor on the everyday standard of living of people, especially the choice of attitudes.

The interview can be watched by following the link below:

https://www.instagram.com/tv/CX-7eXiI7tk/?utm_source=ig_web_copy_link

OLAYLAR

DEPARTAMENT MÜDİRİNİN *OLAYLAR.AZ*-A MÜSAHİBƏSİ

INTERVIEW OF DEPARTMENT HEAD TO *OLAYLAR.AZ*

2022-ci il yanvarın 13-də Tarix və arxeologiya depatamentinin müdiri dosent Telman Nüsrətoğlu *olaylar.az* xəbər portalına Qazaxıstan hadisələri ilə bağlı müsahibə vermişdir.

Müsahibəsində o, Qazaxıstanın siyasi baxımdan önəmi, ölkənin milli iqtisadiyyatı üzrə formalaşan təzyiq və yaranan iqtisadi böhran, baş verən hadisələr və bunun türk dünyasının birlik və bərabərliyinə mümkün təsirləri, Çinin, Rusiyanın və Qərbin maraqları haqqında fikirlərini ifadə etmişdir. Həmçinin, Telman Nüsrətoğlu İpək yolu üzərində yerləşən ölkələrdə sabitliyin qorunmasının, təhlükəsiz ticarətin təmin olunmasının mühüm olduğunu bildirmişdir.

On January 13, 2022, the head of the Department of History and Archeology, Associate Professor Telman Nusratoglu gave an interview to the news portal *olaylar.az* on the events in Kazakhstan.

In his interview, he spoke about the political significance of Kazakhstan, the pressure on the national economy and the economic crisis, the events and their possible impact on the unity and equality of the Turkic world, the interests of China, Russia and the West. Telman Nusratoglu also stressed the importance of maintaining stability and ensuring secure trade in the countries along the Silk Road.

https://olaylar.az/news/musahibe/443849

DEPARTAMENT MÜDİRİNİN MƏQALƏSİ *TRT AZƏRBAYCAN*'DA

DEPARTMENT HEAD ON *TRT AZERBAIJAN*

2021-ci il dekabrın 16-da *TRT azərbaycan*`ın "Qafqaz gündəmi" proqrqmında Tarix və arxeologiya departamentinin müdiri dosent Telman Nüsrətoğlunun "Brüssel görüşündən nə anlamalıyıq" adlı məqaləsi yayımlanıb. Məqalədə Brüssel görüşü, Qarabağ Zəfəri sonrasında regionda cərəyan edən hadisələrin əsas istiqamətləri, Türkiyə-Azərbaycan müttəfiqliyinin hədəfləri təhlil olunmuşdur.

On December 16, 2021, *TRT Azerbaijan*'s "Caucasus Agenda" program published an article by Associate Professor Telman Nusratoglu, Head of the Department of History and Archeology, entitled "What should we understand from the Brussels meeting?" The article analyzes the Brussels meeting, the main directions of the events in the region after the Karabakh Victory, the goals of the Turkish-Azerbaijani alliance.

https://www.trt.net.tr/azerbaycan/qafqazin-gund-mi/2021/12/16/brussel-gorusund-n-n-anlamaliyiq-1747929

DEPARTAMENT MÜDİRİNİN QAZAXISTANDA YAŞANAN SON HADİSƏLƏRLƏ BAĞLI ANALİZİ

ANALYSIS OF THE RECENT EVENTS IN KAZAKHSTAN BY THE DEPARTMENT HEAD

2022-ci il yanvarın 6-da Tarix və arxeologiya departamentinin müdiri dosent Telman Nüsrətoğlu *CNN Türk*, *TRT Azərbaycan* telekanallarında, *TRT* "Türkiyənin səsi" radiosunun "Qafqaz Gündəmi" rubrikasında Qazaxıstanda yaşanan son hadisələrdəki daxili və xarici amilləri, prosesin Qazaxıstan və Türk Dünyasının, bütövlükdə regionun geosiyasi mənzərəsinə mümkün təsirlərini şərh etmişdir.

On January 6, 2022, Telman Nusratoglu, Head of the Department of History and Archeology, spoke on *CNN Turk*, *TRT Azerbaijan* TV channels and «Caucasus Agenda" program on *TRT* "Voice of Turkey" radio about the internal and external factors in the recent events in Kazakhstan, the possible impact of the process on the geopolitical landscape of Kazakhstan and the Turkic world and the region as a whole.

https://www.trt.net.tr/azerbaycan/qafqazin-gund-mi/2022/01/06/qazaxistan-hadis-l-rinin-turk-dunyasina-mesaji-1757620

DEPARTAMENT MÜDİRİNİN TÜRKİYƏ MEDİASINDA 20 YANVARLA BAĞLI ÇIXIŞLARI

SPEECHES OF THE DEPARTMENT HEAD IN TURKISH MEDIA ON JANUARY 20

2022-ci il yanvarın 20-də Tarix və arxeologiya departamentinin müdiri dosent Telman Nüsrətoğlu 20 Yanvar hadisələri ilə bağlı Türkiyə mediyasında geniş təhlillər aparmışdır. Belə ki, *TRT*-də yayımlanan analizdə, xüsusilə, 20 Yanvar ərəfəsində Azərbaycanda baş verən hadisələr, sovet ordusunun Azərbaycan xalqına qarşı həyata keçirdiyi qəddarlıq geniş əks olunmuşdur. Eyni zamanda, Telman Nüsrətoğlu *TRT Avaz*-ın canlı yayımına qonaq olmuş və 20 Yanvarla bağlı əhatəli çıxış etmişdir.

TRT-də yayımlanan analizi aşağıdaki linkdən oxumaq olar:

On January 20, 2022, the head of the Department of History and Archeology, Associate Professor Telman Nusratoglu conducted an extensive analysis of the events of January 20 in the Turkish media. Thus, the broadcast on TRT analysis, in particular, the events that took place in Azerbaijan on the eve of January 20, the brutality of the Soviet army against the Azerbaijani people. At the same time, Telman Nusratoglu was a guest on TRT Avaz's live broadcast and made a comprehensive speech on January 20.

The analysis broadcast on TRT can be read at the following link:


https://www.trt.net.tr/azerbaycan/qafqazin-gund-mi/2022/01/20/20-yanvardan-qarabag-z-f-rin-azrbaycan-1765204



ALMANİYA

ŞTUTQART ŞƏHƏR KİTABXANASI

2011-ci ildə Koreya memarı İn Youn Yi tərəfindən inşa edilmişdir. 11mərtəbəli kitabxananın hər mərtəbəsi bir mövzuya aiddir(musiqi, uşaq, ədəbiyyat və s.) Kitabxanada 460min adda kitab,kompakt-disk, DVD və digər informasiya daşıyıcıları saxlanılır.



ALLAH RƏHMƏT ELƏSİN!

Xəzər Universitetinin kollektivi universitetin müəllimi İlham Tağıyevə həyat yoldaşı

Seyidxanım Tağıyevanın

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.
Allah rəhmət eləsin!

QƏBUL QAYDALARI

DÜNYA MƏKTƏBİ

Məktəbə qəbul müsabiqə yolu ilə həyata keçirilir. Müsabiqədə iştirak etmək üçün məktəbə gəlməklə, bizə zəng etməklə və ya online qeydiyyatdan keçə bilərsiniz. htt://e.dunyaschool.az/sagirdqebulu

Müsabiqədə şagirdlərin təhsil aldıqları sinfə uyğun bilik səviyyəsi, sağlamlığı, maraq dairəsi əsas götürülür. Hər bir şagirdin fərdi xüsusiyyətlərini öyrənmək üçün valideynlərlə söhbətlər aparılır.

Qəbul imtahanında ən yüksək nəticə göstərən VIII-XI sinif şagirdləri təqaüd imkanı qazanırlar.

İngilis bölməsində tədris Beynəlxalq Bakalavr Təşkilatının (IB) ibtidai (PYP), orta məktəb (MYP) və Diplom proqramları (DP) əsasında qurulur.

Diplom proqramında təhsil müddəti iki ildir (X, XI siniflər).

Azərbaycan və rus bölmələrinə ingilis dili ikinci dil kimi beynəlxalq standartlara uyğun tədris olunur. Şagirdlərin seçimi ilə fransız, alman və ya çin dili də öyrədilir.

Dünya məktəbində fikirləşməyi öyrətmək prinsipi əsas götürülür və tədris prosesinin təşkili bu yönümdə qurulur. Siniflərdə şagird sayının az olması hər bir şagirdə fərdi yanaşmağa imkan yaradır.

Sağlam əsaslar üzərində qurulmuş ciddi nizam-intizam təlim-tərbiyə prosesinin yüksək səviyyədə təşkilinə kömək edir.

DÜNYA ANA MƏKTƏBİ

Ana məktəbinə qəbul zamanı hər bir uşağın fərdi xüsusiyyətlərini öyrənmək üçün məktəbin psixoloqu valideynlərlə fərdi söhbətlər aparır. Uşaqlar psixoloji müayinədən və həkim müayinəsindən keçirilir.

Uşaqların sağlamlığı, normal qavrama qabiliyyəti, səlis nitqi və maraq dairəsi əsas götürülür.

Məktəbə qəbul ediləcək şagirdlər "Şagird qəbulu üzrə məktəbdaxili komissiya"nın rəyi əsasında müəyyən edilir və məktəb rəhbərinin əmri ilə rəsmiləşdirilir.

QƏBUL ÜÇÜN TƏLƏB OLUNAN SƏNƏDLƏR:

- Ərizə
- 4 ədəd fotoşəkil (3x4, rəngli)
- Doğum haqqında şəhadətnamənin surəti
- Şəxsiyyət vəsiqəsi
- Tibbi arayış
- Yaşayış yeri haqqında arayış
- Valideynın iş yeri haqqında arayış

Ünvan: Binəqədi rayonu,
Əcəmi Naxçıvani 9
Tel: +994 12 563 59 40/47/48

XƏZƏR UNİVERSİTETİ

HƏR GÜN, HƏR SAAT MÜKƏMMƏLLİYƏ DOĞRU!

NİYƏ XƏZƏR UNİVERSİTETİ?

- Diplomların bütün xarici ölkələrdə tanınması
- Dövlət sifarişi əsasında təhsil almaq imkanı
- Eyni vaxtda 2 ixtisas üzrə təhsil almaq imkanı
- Təhsil haqqının Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin (keçmiş TQDK) imtahanlarında yığılan ballara uyğun olaraq ödənilməsi
- Təhsil haqqının hissə-hissə ödənilməsi
- Zəngin kitabxana, innovativ laboratoriyalar, müasir informasiya-kommunikasiya texnologiyaları infrastrukturunun varlığı
- Dövlət sifarişi və ya ödənişli təhsil almalarından asılı olmayaraq, təhsildə göstərdikləri nailiyyətlərə görə təqaüd almaq imkanı
- Əlavə ödəniş etmədən təhsilinin bir hissəsini Amerika, Avropa və Asiyanın tanınmış ali məktəblərində davam etdirmə imkanı
- Keyfiyyətli və əhatəli tələbə xidmət sistemi (həkim, psixoloji mərkəz, karyera-işə düzəlmə mərkəzi və s.)
- Yüksək standartlara cavab verən müasir yataqxana

TƏHSİL HAQQININ ÖDƏNİLMƏSİNDƏ GÜZƏŞTLƏR

650-700 bal - təhsil haqqından tam azad edilir
600-649 bal - təhsil haqqının ödənilməsində 50% güzəşt edilir
550-599 bal - təhsil haqqının ödənilməsində 40% güzəşt edilir
500-549 bal - təhsil haqqının ödənilməsində 25% güzəşt edilir
450-499 bal - təhsil haqqının ödənilməsində 20% güzəşt edilir
400-449 bal - təhsil haqqının ödənilməsində 15% güzəşt edilir
350-399 bal - təhsil haqqının ödənilməsində 10% güzəşt edilir

Uğurlu karyera qurmaq, təhsildən zövq almaq və yadda qalan tələbə həyatı yaşamaq istəyirsən?
Xəzər Universitetini seç!

BAKALAVR SƏVİYYƏSİNDƏ İXTİSASLARIMIZ

1 QRUP

- Kompüter elmləri
- Kompüter mühəndisliyi
- Neft-qaz mühəndisliyi
- İnşaat mühəndisliyi
- Radiotexnika və telekommunikasiya mühəndisliyi
- Elektrik və elektronika mühəndisliyi
- Kimya mühəndisliyi
- Mexanika mühəndisliyi
- Riyaziyyat və informasiya müəllimliyi
- Fizika müəllimliyi

2 QRUP

- Mühasibat
- Maliyyə
- İqtisadiyyat Menecment
- Marketinq
- Biznesin idarə edilməsi
- Turizm işinin təşkili
- Regionşünaslıq (Avropa)
- Beynəlxalq münasibətlər
- Coğrafiya müəllimliyi
- Tarix və cografiya müəllimliyi

3 QRUP

- İngilis dili və ədəbiyyatı
- Azərbaycan dili və ədəbiyyatı
- Tərcümə (ingilis dili)
- Politologiya
- İngilis dili müəllimliyi
- Azərbaycan dili və ədəbiyyatı müəllimliyi
- İbtidai sinif müəllimliyi
- Tarix müəllimliyi

4 QRUP

- Kimya müəllimliyi
- Biologiya müəllimliyi
- Kimya və biologiya müəllimliyi
- Psixologiya
- Baytarlıq təbabəti

5 QRUP

- Dizayn
- Təsviri incəsənət müəllimliyi